www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 8 oktyabr 2014-cü il Çərşənbə № 248 (5957) Qiymət 40 qəpik

**Xəbər**

## Bayramın dəhşətli qəza statistikası: 8 ölü

yazısı səh.14-də

**Gündəm**

### Minskdə MDB sammiti: Ermənistanın yerinə İŞİD...



Ermənistanın Gömrük və Avrasiya ittifaqlarına üzvlüyü növbəti dəfə baş tutmaya bilər; "İslam dövləti" təhlükəsinin müzakirə ediləcəyi toplantıda Azərbaycanı kim təmsil edəcək?

yazısı səh.9-da

### Tofiq Yaqublu Əli İnsanovun olduğu həbsxanada saxlanır

yazısı səh.3-də

### Qubad İbadoğlu tərəfdarlarını toplayıb Müsavata şərt qoydu

yazısı səh.7-də

### Meriya Milli Şuranın mitinq müraciətinə hələ də cavab verməyib

yazısı səh.11-də

### 40 erməni bir rusu öldürdü, Minvod qarışdı

yazısı səh.11-də

### 7 rayonun əvəzinə Xəzər: ekspertlər nə deyir...

yazısı səh.10-da

### AYB üzvündən Lerikin icra başçısına 17 milyonluq ittiham

yazısı səh.13-də

### Suriyada daha bir azərbaycanlı öldürüldü

yazısı səh.6-da

### Bakı aeroportunda yoxlama biabırçılığı

yazısı səh.15-də

### Ankara İŞİD-lə müharibə üçün şərt qoyur

yazısı səh.12-də

### Daha bir nəfər Ziya Məmmədovun "qoçularının" qurbanı olub

yazısı səh.15-də

### Paytaxt restoranlarında "kişi qadağası"

yazısı səh.15-də

## Moskvanın Bakıya artan reveranslarının ilginc səbəbi

# KREMLİN ERMƏNİSTANI AZƏRBAYCAN HESABINA XİLAS PLANI

Gürcüstanın tamamən əldən çıxması Rusiyanı öz forpostu ilə yalnız Azərbaycan vasitəsilə quru əlaqəsi yaratmaq zorunda qoyub; işğalçı ölkənin Avrasiya layihələrinə qoşulması ilə bu yöndə Bakıya təzyiqlər pik həddə çata bilər; şimal qonşumuz son həmləyə hazırlaşır?



yazısı səh.4-də

## ABŞ və Avropa Azərbaycan iqtidarına sanksiya verəcəkmi?- İpucu

"Əgər Azərbaycan öz geosiyasi seçimini Kremlin, Avrasiya İttifaqının xeyrinə etsə və Qərbdən üz döndərsə, o zaman sanksiyalar tətbiq edilə bilər"

yazısı səh.8-də



*Azər Əsgərov:*

### "AXCP-yə daha odun daxması da verməram"

yazısı səh.3-də



### 195 işçisi Arif Əsgərovla məhkəmədə çəkişir

yazısı səh.6-da



### Arif Hacılı ittihamlara cavab verdi

yazısı səh.5-də

YENİ MÜSAVAT
N 248 (5957) 8 oktyabr 2014



# Parisdə Əliyev-Sarkisyan görüşünə hazırlıq gedir

**Oktyabrın sonunda Parisdə Fransa prezidentinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan prezidentləri İlham Əliyevlə Serj Sərkisyanın növbəti görüşü gözlənilir. Bu görüş barədə razılıq avqustda Soçidə Rusiya prezidenti Putinin vasitəçiliyi ilə Əliyev və Sərkisyan görüşündən sonra əldə edilib.**

ATƏT-in Minsk Qrupunun həmsədr ölkələri *(Rusiya, ABŞ və Fransa)* bu yay Qarabağda vəziyyətin kəskin pisləşməsi ilə bağlı fəallığı artırıblar.

Soçi görüşündən sonra İ.Əliyev və S.Sərkisyan ABŞ dövlət katibi Con Kerrinin vasitəçiliyi ilə Uelsdə görüşüblər.

İndi də Parisdə görüş olacaq. Errmənistan XİN rəhbəri Edvard Nalbəndyan görüşün hazırlanması məqsədilə oktyabrın 7-də Parisə yola düşüb. Çox güman ki, Azərbaycan XİN rəhbəri də yaxın vaxtlarda gedəcək.

Diplomatik mənbələrdən «Turan»a məlum olub ki, Paris görüşü ərəfəsində Avropa İttifaqının Cənubi Qafqazda münaqişələr üzrə yeni xüsusi nümayəndəsi Herbert Zalber Bakıya gələcək. O, Azərbaycan rəhbərliyi ilə danışıqlar aparacaq. Həmçinin onun Ermənistana səfər edəcəyi ehtimal olunur.

Müşahidəçilər Paris görüşündən dönüş gözləmirlər. Onlar belə hesab edirlər ki, Minsk Qrupu həmsədrlərinin indiki mərhələdə əsas vəzifəsi tərəfləri genişmiqyaslı müharibədən çəkindirməkdir, çünki hələlik nizamlanmanın razılaşdırılmış və real variantı yoxdur.

Bundan əlavə, İ.Əliyevi Fransa prezidenti Fransua Ollandla vətəndaş cəmiyyətinə qarşı kütləvi repressiyalarla bağlı söhbət gözləyir. Həbs olunan fəallar arasında Fransanın Fəxri Legion Ordeni kavaleri hüquq müdafiəçisi Leyla Yunus da var.

F.Olland Bakıda səfərdə olarkən L.Yunusla görüşüb və onun məsələsini hakimiyyətlə müzakirə edib. Lakin Fransa prezidenti getdikdən sonra L.Yunus və onun həyat yoldaşı həbs olunublar.

# İcra başçısının qəzaya düşən oğlu təyyarə ilə Türkiyəyə aparıldı

## Hazırda Türkiyədəki xəstəxanalardan birində olan İlham Əsgərlinin vəziyyətinin yaxşı olmadığı bildirilir

**Bir neçə gün öncə Bakı şəhəri Xəzər rayonu Türkan qəsəbəsində Qəbələ rayon sakini Əhliman Süleymanovun idarə etdiyi "Hovo" və Bakı şəhər sakini Pərvin Fətullayevin idarə etdiyi "Mercedes" markalı avtomobillərin toqquşması xəbərini vermişdik.**

"Qafqazinfo" ucnoqta.az-a istinadən xəbər verir ki, yaralı vəziyyətdə xəstəxanaya çatdırılan icra başçısının 26 yaşlı oğlu İlham Əsgərli burda bir müddət xəstəxanada qalmış, ona ilkin tibbi yardımlar göstərilsə də vəziyyəti həddən artıq pisləşib, burdakı həkimlərin ona heç bir köməklik edə bilməyəcəyi məlum olub. Nəticədə icra başçısının oğlu yaralı vəziyyətdə xüsusi təyyarə ilə Türkiyəyə aparılıb. Hazırda Türkiyədəki xəstəxanalardan birində olan İlham Əsgərlinin vəziyyətinin yaxşı olmadığı bildirilir.

Məsələ ilə bağlı İlham Əsgərlinin atası Səbayel Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərovla əlaqə saxlamaq istəsək də, cəhdlərimiz baş tutmadı.

Qeyd edək ki, qəza nəticəsində "Mercedes"i idarə edən Səbayel Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərovun 26 yaşlı oğlu İlham Əsgərli isə ağır yaralanmış, sərnişin, iş adamı «McDonalds"ın Bakı nümayəndəliyinin rəhbəri, Maqsud Mirzəyevin 16 yaşlı oğlu Sənan Mirzəyev isə dünyasını dəyişmişdi.

"Elm" tədris mərkəzi
MAGIC LANGUAGES
➔ Ali məktəblər xarici dillər
➔ kompyuter kursları
➔ Magistratura - dövlət qulluğu - məntiq
➔ 1.C. mühasibat - anbar - bank işi
➔ Məktəbə qədər həftədə 5 dəfə
➔ Sürücülük kursları (1 aya 100 AZN)
Ünvan: 1. «Neftçilər» metrosu 40 mert. R.Rüstəmov-44
Tel:/Faks: (012) 421-10-46; 408-44-43;
Mob: (055) 660-60-95; (050)203-55-95
Ünvan: 2. «İnşaatçılar» metrosu 60 metr. «İran» klinikasının yanı
Tel:/Faks: (012) 434-88-28; 408-44-74;
Mob: (055) 660-07-05

# "Azərbaycanın toy standartları İsveçrədən yüksəkdir"

## Elbəyi Həsənli Bakıda qızına toy edir: ""Kim məni istəyirsə, gəlib bu şad günümüzdə iştirak edə bilər"



**Tanınmış mühacir jurnalist, hazırda İsveçrədə yaşayan "Yeni Müsavat" qəzetinin əməkdaşı Elbəyi Həsənli qızına toy edir. Oktyabrın 10-da, Bakıdakı "Meridian" şadlıq sarayında keçiriləcək toy mərasimi üçün jurnalist artıq paytaxta gəlib. Redaksiyamızın qonağı olan E.Həsənli İsveçrədən Bakıya uzanan toy hekayəsinin detallarından danışdı.**

Müsahibimiz öncə bildirdi ki, kürəkəni azərbaycanlıdır və əslən Qubadlıdandır. Onun sözlərinə görə, hər iki tərəfin qohum-əqrəbası Bakıda olduğu üçün toyu burda keçirmək qərarına gəliblər: "Oğlan evi Azərbaycandadır. İsveçrədə toy etmək yarımçıq olardı. Bundan başqa, orda Azərbaycan diasporunun əhatə dairəsi o qədər geniş deyil. İsveçrədə azərbaycanlı azdır. Ona görə də qərara gəldik ki, toy burda olsun. Bizdən daha çox oğlan evi təkid elədi. Biz də qarşı tərəflə hər zaman hesablaşmağa çalışırıq".

**Müsahibimizin sözlərinə görə, qızı Aygün İsveçrədə oxuyub, dost çevrəsi əcnəbilərdən ibarətdir. Buna baxmayaraq, milli düşüncə onun üçün hər zaman ön plandadır:** "Azərbaycanın bayrağı həmişə başımızın üstündə olub. Mən həmişə müşahidə eləmişəm ki, Avropada olan azərbaycanlı uşaqlar valideynlərindən daha çox millətçi, vətənə daha bağlı olurlar. Çox maraqlıdır. Ola bilsin, bu, qərib mühitdə müqavimətdir. Ona görə də qızımın ailə ilə bağlı seçimi də Azərbaycan oldu. Biz valideynləri olaraq o məsələyə müdaxilə etmirik, sadəcə, gəncləri dəstəkləyirik".

**E.Həsənli dedi ki, toydan sonra gənclər İsveçrəyə gedəcək. Qızı Aygün orda təhsilini davam edəcək, kürəkəni isə təhsilinin davamını İsveçrədə alacaq:** "Oğlan universiteti qurtarıb, orda davam edəcək təhsilini. Düşünürük ki, bu, ən optimal variantdır. Qızım bir-iki ilə vətəndaşlıq alacaq. Kürəkən də avtomatik vətəndaşlıq alacaq. Orda necə yaşayacaqları, məişət məsələləri isə ikinci plandadır. Çünki İsveçrə rahat ölkədir. Orda belə şeylər avtomatik həll olunur".

Müsahibimiz tanıdığı, rəğbət bəslədiyi insanları, xüsusən də jurnalistləri toya dəvət etdiyini dedi. Qəzet vasitəsilə bir daha tanıdığı adamları qızının toyuna çağıran E.Həsənli "kim məni istəyirsə, gəlib bu şad günümüzdə iştirak edə bilər", - dedi. Jurnalist dedi ki, klassik Azərbaycan toyu keçirəcək: "Toyda hər hansı İsveçrə elementləri olmayacaq. Digər tərəfdən, qızım kaprizli deyil. Nə var, ona qane olandır. Amma deyim ki, Azərbaycanda standartlar İsveçrədən daha yüksəkdir. Məsələn, bu gün restoranda xına yaxdı edirlər. Sonra toy olacaq, toyda da standartlar yüksəkdir. Azərbaycanda bir menyu 40-50 manata çıxır. İsveçrə standartlarında isə bu, 25-30 manat həndəvərindədir. Özü də toyu azərbaycanlılar edəndə məbləğ belə olur, isveçrəlilər edəndə isə daha ucuz çıxır - İsveç masası qururlar, 200-300 franka milləti yola vermək olur. Klassik azərbaycanlı olduğumuz üçün belə toy etdik. Gənclərin seçiminə hörmət etdik".

**E.Həsənli İsveçrəyə qayıdandan sonra orda da bu hadisəni xırda miqyasda da olsa qeyd edəcəklərini dedi:** "Sürixdə heç 15-20 nəfər azərbaycanlı olmaz. Amma oradan heç kimi toya dəvət etmədim, çünki az da olsa, yığışıb, toyu orada da qeyd edəcəyik".

❑ Sevinc Telmanqızı

# Teleseriallara ayrılan pulların necə xərcləndiyi araşdırılır

**Azərbaycan efirində nümayiş olunan yerli seriallarla bağlı təftişə başlanır. Axar.az-a telekanalların birindəki mənbədən verilən məlumata görə, serial çəkilişlərində xərclənən vəsaitlər, onların şəffaf sərf olunması, bir seriyanın smeta dəyərinin nə qədər olması, aktyor, rejissor və texniki heyətə verilən qonorarlar araşdırılacaq.**

Mənbə iddia edir ki, hüquq-mühafizə, habelə vergi orqanlarına şikayət və müraciətlər daxil olub. Bu məktublarda qeyd olunur ki, serial çəkilişlərinə ayrılan pulların xərclənməsində qeyri-şəffaflıq var. Prezident tərəfindən birbaşa ayrılan bu vəsaitlərin mənimsənildiyi iddia edilir.

Qaynağımızın sözlərinə görə, serial çəkilişlərinə cəlb olunan rejissorlar peşəkar aktyorlardan daha çox qohum-əqrəba ilə işləməyə üstünlük verirlər.

Qeyd edək ki, 2013-cü ildən ölkə prezidenti tərəfindən milli serialların çəkilməsinə vəsait ayrılır.

# NATO hərbi bazaları Azərbaycanda yerləşdirilə bilər

**"Rusiyanın Ukraynaya təcavüzündən sonra NATO nəinki üzv ölkələrinin təhlükəsizliyini, hətta müttəfiq dövlətlərin təhlükəsizliyini qorumaq üçün xüsusi bir planın hazırlanması üzrə iş görür".**

Aktual.az-ın məlumatına görə, bunu NATO Əməkdaşlıq İnstitutunun rəhbəri Fərrux Məmmədov bildirib.

F. Məmmədov deyib ki, xüsusi plana görə, Avropanın Rusiya ilə sərhədlərində əlavə hərbi kontingentin yerləşdirilməsi və tərəfdaş ölkələrdə NATO hərbi bazalarının yaradılması nəzərdə tutulur:

"Təbii ki, qeyd etdiyim ikinci məsələ tərəfdaş ölkələrin istəkləri əsasında mümkündür. Tərəfdaş ölkələrə hərbi əməkdaşlıq sahələrində müəyyən imzalanmış ikitərəfli müqavilələr var və burada həm NATO həm də tərəfdaş ölkələr bir sıra öhdəliklər üzərlərinə götürüblər. Azərbaycan NATO, münasibətləri isə hazırda eyni istiqamətdə davam edir. Elə buna görə də NATO-nun Azərbaycanla bağlı xüsusi əməkdaşlıq planı var. Lakin bu plan hələ ki, icra olunmur.

Bunun üçün hər iki tərəfin tərəfdaşlıqda olan səmimiyyəti gərək eyni müstəvidə olsun. Yeni fəaliyyətə başlamış baş katib isə bütün üzv və tərəfdaş ölkələrinə səfər edəcək. Səfərin də biri məhz Azərbaycana olacaq. Bu səfər çərçivəsində xüsusi tərəfdaşlıqla bağlı orada danışıqlar gedə bilər".



# Asim Mollazadə argentinalı senatorla görüşüb

Demokratik İslahatlar Partiyasının sədri Asim Mollazadə Argentina Senatının Azərbaycan Parlamenti ilə dostluq qrupunun üzvü, senator Samuel Kabançik və Argentinanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfirinin müavini Qabriel Alexandro Xorquera ilə görüşüb. Görüşdə Azərbaycanla Argentina arasındakı münasibətlər, parlamentlərarası əlaqələr və gələcək əməkdaşlıq istiqamətləri müzakirə edilib. Asim Mollazadə qonaqlara ölkədə və regionda gedən proseslər, DİP-in fəaliyyəti barədə ətraflı məlumat verib.

❑ Vüqar MURAD



# Sevinc Babayevanın 40 yaşı tamam oldu

## Oğlu və nəvəsi onun məzarına baş çəkdi

**Oktyabrın 6-da "mandat alveri" qalmaqalının mərhum qəhrəmanı, 2012-ci ilin 26 dekabrında dünyasını dəyişən Sevinc Babayevanın ad günü idi. Onu doğulduğu gündə məzarı başında oğlu və nəvəsi ziyarət edib. Bu barədə oğlu Ayxan Məmmədov "Yeni Müsavat"a açıqlamasında bildirdi. Müsahibimiz dedi ki, bu gün onlar üçün çox dəyərlidir:**

"Biz artıq ikinci ildir ki, anamın ad gününü onsuz keçiririk. Bu gün də nəvəsi, mənim oğlum Hüseyn nənəsini təbrik etmək üçün məzarı başına getdi. Anam çox istəyirdi nəvə görsün. Amma nəvəsi onu məzarında gördü. İnşallah, gələcəkdə qızım olsa adını Sevinc qoyacam".

Xatırladaq ki, S.Babayeva 1964-cü ilin 6 oktyabr tarixində Bakıda dünyaya gəlib. Yaşasaydı, bu il 40 yaşını qeyd edəcəkdi. Uzun illər Sabir adına kitabxanada müdir işləyib. Atası Telman Babayev "Xeyir və Şər" qəzetinin baş redaktoru olub. S.Babayeva da həmin qəzetin parlament müxbiri kimi fəaliyyət göstərib. Cəmiyyət onu 2012-ci ilin 26 sentyabrında "Mandat alveri" videosunun qəhrəmanı kimi tanıyıb. Videonun yayılacağı gün Bakıdan İstanbula qaçan S.Babayeva 4 ay sonra 26 dekabr 2012-ci ildə ürək çatışmazlığı diaqnozu ilə İstanbulda dünyasını dəyişib. Məlum qalmaqalın detalları, gizlinləri hələ də cəmiyyət üçün sirr olaraq qalır.

Oğlu Ayxan Məmmədov isə anasının ölümündən sonra ailə həyatı qurub. Hüseyn adında 1 oğlu var.

❑ SEVİNC

# Fizika üzrə Nobel mükafatı yaponiyalı alimlərə verilib

**Bu il fizika üzrə Nobel mükafatı yaponiyalı alimlər İsamu Akasaki, Hiroşi Amano və Suji Nakamuraya verilib.**

APA - nın məlumatına görə, alimlər bu mükafata "effektiv və səmərəli mavi işıq saçan diodların ixtirasına görə" layiq görülüblər.

İsamu Akasaki 1929-cu ildə Yaponiyada doğulub. Naqoya Universitetinin professorudur. Hiroşi Amano 1960-cı ildə doğulub, 1989-cu ildən Naqoya Universitetində çalışır, universitetin professorudur.

Suji Nakamura isə 1954-cü ildə anadan olub, Amerika vətəndaşıdır. O, hazırda Kaliforniya Universitetinin professorudur.

YENİ MÜSAVAT
N 248 (5957) 8 oktyabr 2014



# Tofiq Yaqublu Əli İnsanovun olduğu həbsxanada saxlanır

## Qaradağdakı 13 saylı cəzaçəkmə müəssisəsində olan müsavatçıya sovqat aparılıb; İlqar Məmmədovun isə 10 gündən sonra Binədəki 2 saylı həbsxanada olduğu bilindi

**İsmayıllı hadisələrinə görə həbs olunan siyasətçilər Şəki təcridxanasından Bakıya gətirilsə də, bir həftə ərzində onların harda saxlanması barədə Penitensiar Xidmət rəsmi açıqlama vermədi. Yalnız ötən həftə sonu Müsavat başqanının müavini Tofiq Yaqublunun Qaradağ rayonu, Puta qəsəbəsində yerləşən 13 saylı cəzaçəkmə müəssisəsinə köçürüldüyü məlum oldu.**

***

Müsavat rəsmisinin qızı Nigar Yaqublu "Yeni Müsavat"a bildirdi ki, atası 12 gün karantin müddətini keçəcək. Onun sözlərinə görə, T.Yaqubluya sovqat aparılıb: "Sovqatı da çox çətinliklə qəbul etdilər, götürmürdülər. Vəkili ilə hələ görüşə bilməyib".

Onu da deyək ki, 13 saylı cəzaçəkmə müəssisəsində bir sıra siyasi məhbuslar saxlanıblar. Onların arasında sabiq səhiyyə naziri Əli İnsanov da var. "Yeni Müsavat"ın baş redaktoru Rauf Arifoğlu da burada saxlanıb.

Baş yazarın dediyinə görə, 13 saylı CM siyahı üzrə ölkədə üç ən pis şəraiti olan yerlərdən biridir. Ancaq 10 gündən çoxdur ki, REAL hərəkatının lideri İlqar Məmmədovun harda saxlanması barədə məlumat verilmir. Sentyabrın 24-də Şəki Apelyasiya Məhkəməsi onun barəsində hökmü qüvvədə saxlayıb.

Ertəsi gün İ.Məmmədov Şəki təcridxanasına aparılıb. "Biz İlqara görə çox narahatıq. Onunla bağlı bizə, hətta vəkillərə də məlumat verilmir. Bu, həm ailəyə, həm də İlqarın özünə mənəvi əzab verir", - İ.Məmmədovun həyat yoldaşı Vəfa Məmmədova "Turan"a bildirib.V.Məmmədova İlqarın Şüvəlan təcridxanasında olduğunu güman edərək ötən həftə oraya gedib, lakin bağlama qəbul etməyiblər.

***

**İ.Məmmədovun həyat yoldaşı isə oktyabrın 6-da həyat yoldaşının aqibəti haqqında narahatlığını ifadə edərək müraciət yayıb. İ.Məmmədovun bloqunda dərc olunmuş müraciətdə deyilir:** "Qondarma ittihamlarla, siyasi baxışlarına görə qanunsuz olaraq məhkum olunmuş İlqar Məmmədov barəsində 10 gündən artıqdır ki, Cəzaların İcrası Məcəlləsinin tələblərinə zidd olaraq harada saxlanılması barədə ailəsinə heç bir məlumat verilmir.

10 gün əvvəl bizə İlqar Məmmədovun Şəki İstintaq Təcridxanasından 3 saylı İstintaq Təcridxanasına köçürülməsi barədə məlumat verilmiş, bundan sonra isə hər hansı məlumat qəti olaraq verilməsindən imtina edilir. Həmçinin onunla görüşə, sovqat qəbuluna imkan verilmir.

Şəkidə olarkən sonuncu telefon danışığı zamanı ona əfv ərizəsi yazılması üçün ciddi təzyiqlərin olmasını bildirdiyindən və bu qədər müddətdə ondan məlumatsız olmağımız ona işgəncə verilməsi ehtimallarını artırır.

İnsan Hüquqları Üzrə Ombudsman, Qırmızı Xaç Komitəsindən təcili olaraq İlqar Məmmədovla görüşməni, həmçinin onun yeri barədə ailəsinə məlumat verilməsinin təmin edilməsində köməklik göstərilməsini xahiş edirik".

**Nəhayət, günün ikinci yarısında, məlum olub ki, İlqar Məmmədov Bakının Binə qəsəbəsindəki 2 saylı cəzaçəkmə müəssisəsinə köçürülüb. Bu barədə REAL Hərəkatından Azər Qasımlı oktyabrın 7-də facebook səhifəsində yazıb:**

"İlqar Məmmədovun həyat yoldaşına bir az əvvəl zəng edilib. Onun 2 saylı cəzaçəkmə müəssisəsinə köçürüldüyü bildirilib və əlavə edilib ki, İlqar bəy bir neçə gün karantində qalacaq. Yalnız bundan sonra onunla görüşüb sovqat vermək mümkün olacaqmış. Bundan artıq heç bir məlumat verilməyib. Buna baxmayaraq narahatlığımız hələ də davam edir".

A.Qasımlının sözlərinə görə, İlqar Məmmədovun vəkilləri ilə görüşə icazə verilmədiyindən bu məlumatın nə qədər həqiqətə uyğun olduğu bilinmir. Qeyd edək ki, "Amnesty International" İ.Məmmədovu və T.Yaqublunu "vicdan məhbusu" kimi tanıyıb.

❑ **Emil SALAMOĞLU**

# Azərbaycandakı siyasi məhbuslara beynəlxalq mükafat verildi



**Norveç Helsinki Komitəsi 2014-cü il üçün Andrey Saxarov Azadlıq Mükafatını Azərbaycandakı siyasi məhbuslara verib. Xəbəri oktyabrın 6-da azadliq.info yayıb.**

Məlumata görə, Norveç Helsinki Komitəsinin baş katibi Börn Engesland nominantları belə təqdim edib: "Onlar böyük cəsarət göstərir, ölkələrində ləyaqət, demokratik dəyərlər, insan haqlarının irəli aparılması üçün böyük işlər görürlər. Bu mükafat bütün siyasi məhbuslara verilir. Kədərli haldır ki, onların hamısının adını burada qeyd etmək mümkün deyil".

**Norveç Helsinki Komitəsinin açıqlamasında qeyd olunur ki, Azərbaycan hakimiyyəti illər boyu tənqidçilərini qondarma cinayətlər, uzunmüddətli həbs cəzaları ilə susdurub:** "Yerli insan haqları müdafiəçiləri Avropa Şurasının kriteriyalarına dayanaraq ölkədə 98 siyasi məhbus adını müəyyənləşdirib. Bu məhbuslar arasında ən bilikli, təcrübəli insan haqları müdafiəçiləri, jurnalistlər, gənc fəallar və müxalif siyasətçilər var".

Mükafat noyabrın 13-də Oslonun "Bristol" hotelində təqdim olunacaq. 1980-ci ildə təsis olunmuş mükafat ilk dəfə 1984-cü ildə verilib.

# "AXCP-yə daha odun daxması da verməyəcəm"

## Cəbhəçilər Azər Əsgərova hücuma keçiblər; mülk sahibi Əli Kərimlini ittiham edir

**AXCP-nin məlum hadisələrdən sonra sökülən mülkünün sahibi Azər Əsgərovun partiya əleyhinə səsləndirdiyi fikirlər ətrafında yaranan narazılıq səngimək bilmir. Mülk sahibinin sosial şəbəkələrdə bu barədə yazdığı statuslarda AXCP fəalları ona qarşı açıq şəkildə hücuma keçiblər.**



**Azər Əsgərov** baş verənlərlə bağlı musavat.com-a bunları deyib: "Dəyişən heç nə yoxdur. Köhnə hamam, köhnə tas. Sanki məsələni unutdurmaq istəyirlər. "Yeni Müsavat"a verdiyim müsahibədən sonra cəbhəçilər açıq-aşkar üzərimə hücuma keçiblər. Ağızlarına nə gəlirsə, ünvanıma səsləndirirlər. Hələ yazdıqlarının çoxunu silirlər. Kəmalə Bənəniyarlı deyəndən sonra. Hələ utanmadan hakimiyyətə gəlmək istəyirlər. Bunlar hakimiyyətə gəlsələr, sonumuz necə olar? Hamımızı güllələyərlər. AXCP rəhbərliyindən heç kəs mənimlə maraqlanmır. Mülkümü AXCP-yə verdiyim üçün çox peşman olmuşam. Vaxtında hərəkət etməliydim. Mənə hakimiyyət tərəfindən deyilən zaman onları mülkümdən çıxarmalıydım. Səhv özümdədir. Əli Kərimli ilə hələ də görüşməmişəm. Gözəl Bayramlıya deyirdim. Onun da çatdırıb-çatdırmadığını bilmirəm. Mən də məcburiyyət qarşısında qalıb, facebookda yazıram ki, mənə cavab ver. Sonuncu dəfə avqustun 6-da Gözəl xanıma demişəm. O da haqlı olduğumu deyib. Ondan sonra Gözəl xanımdan da xəbər yoxdur".

**Azər Əsgərov mülkü dağıdılan zaman səsləndirdiyi "yeni bir mülk alıb, AXCP-yə hədiyyə verəcəm" fikirlərində səhv etdiyini də qeyd edib:** "Səhv etmişəm o fikirləri səsləndirməkdə. Artıq onlara əl, odun damı da verməyəcəm. Mən onlardan mənəvi dəstək gözləyirdim. Amma indiyə qədər onlar mənim üçün heç nə etməyiblər. Hansı Avropa təşkilatına müraciət edib deyiblər ki, bu adamın mülkünü bizə görə dağıdıblar, kompensasiya ödəmirlər. İki ay bundan qabaq Kəmalə Bənəniyarlı mənə zəng vurub demişdi ki, ikimizin adını Avropa Məhkəməsinə göndərmək üçün hesabata salıblar. Zərərçəkmiş kimi. Mən də gözlədim. Həyat yoldaşım Türkiyədən bütün təşkilatlara müraciət edir. Amma AXCP susur".

**Mülk sahibi bundan sonra kömək üçün AXCP-yə heç zaman müraciət etməyəcəyini də bildirdi:** "Onlardan artıq heç bir kömək gözləmirəm. Müraciət etmək fikrimdə yoxdur. Qanuni yolla hüquqlarımı özüm müdafiə edəcəm. Yuxarı dairələr yolumu əngəlləyirlər. Cəbhəçilər isə tərbiyəsiz sözlər yazmaqdan utanmırlar. Mənə "satqın", "xain", "hakimiyyətə satılmısan" kimi sözlər deyirlər. Bunlar AXCP rəhbərliyinin tapşırığı ilə həyata keçirilir. Bu söyüşlərlə hakimiyyətə gəlsəniz nə edərsiniz?"

Onu da qeyd edək ki, Azər Əsgərova qarşı sosial şəbəkələrdə tənqidi status və rəylər yazanlar təkcə AXCP fəalları deyil. Partiya funksionerləri də bu prosesdə fəal görünür. Onların bəzilərinin mülk sahibinə qarşı yazdığı fikirləri təqdim edirik.

**AXCP sədrinin mətbuat katibi Natiq Ədilov:** "AXCP ev, mülk davası aparmır, Azər bəy, millət davası aparır. Nə olub sizə? Mülkdü də. Sabah demokratik hakimiyyət qurular, ondan da yaxşısına sahib olarsınız. Bizim heç çoxumuzun, içi mən qarışıq evimiz yoxdur . Sizcə o qədər fərasətsizik?"

**AXCP sədrinin müavini Nureddin Məmmədli:** "Olmuşları danmaq, xeyirxahlığı dəyərləndirməmək aldığın borcu qaytarmamaq qədər ağır günahdır. Biz bütün beynəlxalq tədbirlərdə sizə qarşı ədalətsizliyi hamıya çatdırır, kömək istəyirik. Sizin narazılığınızın səbəbi bizdən bacarmadıqlarımızı istəməyinizdir".

Xatırladaq ki, Azər Əsgərovun AXCP-yə kirayə olaraq verdiyi qərargah bu ilin martında baş verən partlayışdan sonra sökülüb. Bu müddət ərzində mülk sahibinə kompensasiya ödənilməyib.

❑ **Cavanşir ABBASLI**

YENİ MÜSAVAT
N 248 (5957) 8 oktyabr 2014

# Əfv niyə olmadı?

**Qurban bayramı münasibətilə gözlənilən əfv verilmədi. Halbuki bayramdan qısa müddət öncə NİDA Vətəndaş Hərəkatının həbsdə olan üzvlərinin prezidentə müraciət etməsi bu gözləntiləri möhkəmləndirmişdi. Xüsusən Qərb təsisatlarının İlham Əliyev hakimiyyətinə son zamanlar artan hücumlarının fonunda əfv fərmanının iqtidar üçün "nəfəslik" olacağını düşünənlər isə yanıldı. Məlum oldu ki, heç də əfv ərizəsinin sayının artması, siyasi məhbusların, onların ailə üzvlərinin bu məsələdə göstərdiyi mövqe həlledici rol oynamır. Eyni zamanda bəzi hüquq müdafiəçilərinin bayramdan öncə əfvin olacağı ilə bağlı sanki dəqiqləşdirilmiş proqnozlarının yanıldıcı olduğu bir daha təsdiqləndi.**

Bütün bunlarla yanaşı, məlum sualın cavabı da maraqlıdır: əfv fərmanı niyə verilmədi? Bunca hazırlıq, ictimai rəyin bu istiqamətdə yönləndirilməsi nəyə lazım idi?

**Hüquq müdafiəçisi Novella Cəfəroğlu** xatırlatdı ki, daha öncədən əfv fərmanının veriləcəyinə ümid etdiyini deyib. Onun sözlərinə görə, amma yenə də proqnozlar Avropa Şurasının payız parlamentindən dekabra qədər olan müddətdə əfvin imzalanacağı istiqamətində idi: "Amma son olanlar bir daha göstərdi ki, bu hökumət Azərbaycan haqda fikirləşmir. Öz ambisiyaları haqda düşünür. Azərbaycanın ünvanına nə qədər təzyiqlər gəlir. Amma bunlarda budur - nə vaxt istəyirlər, onda buraxacaqlar. Mən hər dəfə oxuyanda ki, Azərbaycan dövlətinə sanksiyalar, təzyiqlər başlayır, narahat olurdum. Son günlər həbsdəkilərə Saxarov mükafatının verilməsi xəbərinə çox sevinirdim. Düşünürdüm ki, bu, Azərbaycan dövlətinə pis təsir edə bilər. Amma görürəm ki, bu, məmurların vecinə də deyil. Vəziyyət nə qədər pisdirsə, onlara o qədər yaxşıdır. Halbuki oturub bir fikirləşsələr, siyasi məhbusların hamısını birdən buraxarlar. Nəticə isə tərsinədir: xaricdən nə qədər çox təzyiqlər çox olur, onlar daha çox inadkarlıq edirlər".

**"Şərq Qərb" Araşdırmalar Mərkəzinin rəhbəri Ərəstun Oruclu hesab edir ki, bu məsələdə maraqlı bir məqam dinamika ilə bağlıdır. Onun sözlərinə görə, son illərdə Azərbaycan hökuməti Avropa İnsan haqları üzrə Avropa Məhkəməsinin müvafiq qərarları ilə hesablaşmayıb:** "Hakimiyyət bununla həm beynəlxalq aləmə, həm ölkə daxilinə mesaj verir ki, hər şeyi öz istəyinə uyğun həll edəcək. Bu gün ərizələrin yazılması, müraciətlərin imzalanması, amma onun ardınca əfv fərmanının imzalanmaması birinci hal deyil. Diqqət yetirmisizsə, həmişə ssenari eynidir. Əfv ərizəsi yazılmazdan əvvəl hansısa hüquq müdafiəçilərini atırlar ortaya. Onlar da cəmiyyətə dezinformasiya ötürür ki, əfv fərmanı hazırlanır. Bundan sonra kimlərsə əfv ərizəsi yazır. Son nəticədə isə əfv fərmanı verilmir. Və ya fərman verildiyi halda siyasilər həmin fərmana daxil edilmir. Səbəb odur ki, hakimiyyət cəmiyyətə göstərmək istəyir ki, o, hətta müraciət edənlərin əfv olunub-olunmaması hüququnu özündə saxlayır. Mesaj verir ki, "çalışın ki, həbsxanaya düşməyin. Hansısa hərəkət etsəz, sizi həbsxanaya salacağıq, ardınca sizi sındıracaq və nüfuzdan salacağıq. Özümüz də istədiyimiz vaxt əfv fərmanı ilə azadlığa buraxacağıq"".



**Novella Cəfəroğlu:**
"Bu hökumət Azərbaycan haqda yox, öz ambisiyaları haqda düşünür"



**Ərəstun Oruclu:**
"Hökumət mesaj verir ki, çalışın həbsə düşməyin, düşsəz..."

**Ə.Oruclunun sözlərinə görə, hazırda cəmiyyətdə belə bir tendensiya var. Müsahibimiz hesab edir ki, hakimiyyətin hazırkı davranışı cəmiyyətə, ictimai-siyasi kəsimə bir mesajdır:** "Həmin mesajın detallarından daha biri odur ki, onlar davranışlarının getdikcə ağırlaşdığına işarə vururlar. Bu hadisə hakimiyyətdaxili manipulyasiya predmetinə çevrilib. Bu predmetə ictimai rəyə təsir göstərmək də aiddir. Əminəm ki, bundan sonra hamı daha ehtiyatlı olacaq. Bu dezinformasiyanı cəmiyyətə ötürənlər də. Bəzi media orqanlarına yenə tapşırıq verəcəklər, onlar da yaxın zamanda əfv olacağı ilə bağlı yazacaqlar. Amma bu hadisə həmin "instrumentləri" - hüquq müdafiəçilərini, medianı cəmiyyətdə etimaddan salacaq. Bu hadisə nə qədər davam edəcəksə, hakimiyyətə etimadsızlıq bir o qədər artacaq. Bu, əslində hakimiyyət-cəmiyyət qarşıdurmasının dərinləşməsi deməkdir".

**"Yeni Müsavat" isə xatırladır ki, əfv gözləntilərinin artdığı ərəfədə Prezident Yanında Əfv Komissiyasının üzvü, deputat Elmira Axundova bu məsələyə aydınlıq gətirmişdi. O, aktual.az-a açıqlamasında bildirmişdi ki, Əfv Komissiyasının əsasnaməsinə görə, qanunla məhkumlar cəzalarının yarı hissəsini çəkdikdən sonra komissiya onların işinə baxa bilər:** "Qaldı bu məsələdə istisnalar da var. Cənab prezident səlahiyyətlərindən istifadə edərək, hətta məhkumluğunun az hissəsini çəkmiş məhkumları belə, əfv etmək hüququna malikdir. Ona görə də bu gənclərin prezidentə müraciətinə müsbət yanaşıram. Çünki kimlərsə onlardan öz siyasi oyunlarında istifadə edib və bundan yararlanıb. Bu cavanlar da əməllərindən peşman olub müraciət ediblərsə və cənab prezident də bu istiqamətdə hər hansı bir müsbət qərar veribsə, biz onu dəstəkləməyə hazırıq".

**E.Axundova deyib ki, adətən Əfv Komissiyası sənədləri əvvəlcədən hazırlayır və cənab prezidentə təqdim edir:** "Biz ildə iki dəfə yığışaraq müəyyən siyahılar tərtib edirik. Məsələn, 500-600 ərizədən 50-ni seçib, prezidentə təqdim edirik. Onunçün Əfv Komissiyasında müzakirələr gedir - məhkumların xasiyyətnamələri, cəzaçəkmə müddətində məhkumun özünü necə aparması, onun ailə vəziyyəti öyrənilir, səbəblərə baxılır və yekdil qərar qəbul olunaraq prezidentə təqdim edilir. Amma belə hallar da var ki, prezidentimiz bu və ya digər insanı özü də əfv edə bilər. Onunçün bizim yığışmağımız vacib deyil. Amma cənab prezident demokratik insan kimi, adətən Əfv Komissiyası üzvlərinin də mövqeyini öyrənir, bizimlə məsləhətləşir. Hərdən də elə olur ki, cənab prezident hər hansı ərizəni bizə göndərir, amma biz əfv üçün əsasların olmadığını görüb, onu qəbul etmirik. İstənilən halda cənab prezident bizimlə məsləhətləşir".

❑ **Sevinc TELMANQIZI**

---

## Moskvanın Bakıya artan reveranslarının ilginc səbəbi



# Kremlin Ermənistanı Azərbaycan hesabına xilas planı

### Gürcüstanın tamamən əldən çıxması Rusiyanı öz forpostu ilə yalnız Azərbaycan vasitəsilə quru əlaqəsi yaratmaq zorunda qoyub; işğalçı ölkənin Avrasiya layihələrinə qoşulması ilə bu yöndə Bakıya təzyiqlər pik həddə çata bilər; şimal qonşumuz son həmləyə hazırlaşır?..

**Qarabağ məsələsi ətrafında Rusiya tərəfdən maraqlı, eyni zamanda ehtiyatlı bir hərəkətlilik müşahidə edilməkdədir. Bu hərəkətlilik özünü əsasən moskvalı politoloqların dilindən problemin həllinə dair səslənən fikirlərin üst-üstə düşməsində göstərməkdədir. Belə rəylərin ortaq rezümesi kimi rusiyalı ekspert Sergey Markovun ötən həftə verdiyi müsahibəni göstərmək olar.**

Tanınmış politoloq Azərbaycan, Rusiya və Ermənistan diplomatları arasında Qarabağla bağlı hansısa danışıqların getdiyini, ilkin mərhələdə Azərbaycanın işğal altındakı 7 rayonun boşaldılması müqabilində Ermənistanın iqtisadi və kommunikasiya blokadasının götürülə biləcəyini söyləmişdi. Təqribən eyni vaxtda belə bir versiya da səslənmişdi ki, rayonları almağın qarşılığında Azərbaycan bağlı yolları açacaq və Rusiya öz forpostu ilə Gürcüstana girmədən quru əlaqəsi yarada biləcək. Bəzi təhlilçilərin qənaətincə, Markovun məhz bu planı nəzərdə tutduğu istisna deyil.

Təbii ki, bu plan kağız üzərində olsa belə, bəlli məsələdir ki, danışıqlarda müstəsna olaraq iki tərəf iştirak edir - Bakı və Moskva. Ona görə ki, İrəvan çoxdan Rusiyanın "cibindədir və bu cür müzakirələrdə o, ciddi söz sahibliyindən məhrumdur. Ermənistan rəhbərliyi Kremlin "bir sözünü iki edə bilməz".

Bəs bu qəbildən söz-söhbətlər nədən dövriyyəyə buraxılıb və ümumiyyətlə, Ermənistanın Azərbaycan hesabına blokadadan məhz indi çıxarılması Moskvanın hansı maraqlarından qaynaqlanır? Suala cavab verməyə çalışaq.

Bir sıra iqtisadçı analitiklər hesab edir ki, işğalçı ölkə Avrasiya layihələrinə qoşulduqdan sonra kommunikasiya baxımından ciddi maneələrlə üzləşəcək. Çünki Rusiya ilə Ermənistan arasında nəinki quru sərhədi, heç düz-əməlli kommunikasiya da yoxdur. Hazırda yalnız Gürcüstan vasitəsilə bir quru yolu mövcuddur, onu da etibarlı saymaq qeyri-mümkündür. Səbəb təkcə, coğrafi, iqlim amilləri ilə bağlı deyil, həm də Avropa Birliyi və NATO-ya üz tutan Gürcüstanın siyasi mövqeyi ilə əlaqədardır.

Məsələ ondadır ki, Moskvanın Gürcüstanda özünə loyal yeni hakimiyyət formalaşdırmaq və regionun bu mühüm ölkəsini öz ağuşuna qaytarmaq planları artıq fiasko olub - gürcülər və onların təzə rəhbərliyi Kremlin planlarına heç bir şans saxlamayaraq Avrointeqrasiya kursuna davam qərarı verib. Bunun nəticəsidir ki, rəsmi Tiflis Rusiyanı Ermənistanla birləşdirən Abxaziya dəmir yolunun Moskvanın şərtləri əsasında açılmasına da razılıq verməyib.

Demək, təcili şəkildə Rusiyadan Ermənistana başqa bir yolun açılması haqda fikirləşmək lazımdır. Belə bir yol isə əlbəttə ki, Azərbaycandan keçir. Siyasi şərhçilər güman edir ki, axır vaxtlar Moskvadan Bakıya ünvanlı reveransların artmasının mühüm bir səbəbi də öncəliklə elə budur. Hərgah, Bakıda buna elə də sevinmirlər. Niyə?

Erməni mənbələri iddia edir ki, Azərbaycan tərəfi hansısa səbəbdən *(məsələn, rəsmi İrəvan daxildəki etirazları əsas götürərək son anda azad ediləcək rayonlarla bağlı fikrini dəyişsə)* yolu və kommunikasiyaları açmasa, Kreml özü Azərbaycan vasitəsilə "de-blokada"ya girişmək zorunda qala bilər.

Qeyd edilir ki, Gürcüstan variantı Moskva üçün artıq risklidir, ona görə ki, bu ölkə Avropa Birliyinə assosiativ üzv olandan, ABŞ-ın hərbi müttəfiqi statusu qazanandan və NATO-nun son sammitindən sonra alyansın "qızıl siyahısı"nda-dır. Üstəlik, məlumatlar var ki, Gürcüstanda alyansın mərkəzi açılacaq. Azərbaycanı isə heç kim ciddi müdafiə etməyə borclu olmayıb, yeganə Türkiyədir ki, onun da başı bu dəqiqə daha çox ayrı problemlərə qarışıb. Hər halda, bu da bir yanaşmadır.

Qərbə gəlincə, son zamanlar, Avropa və ABŞ-dan rəsmi Bakının ünvanına insan haqları ilə bağlı müstəsna olaraq tənqid seli axır. Bakının demokratiya paytaxtları ilə münasibətlərinin qəliz bir dövr yaşadığının növbəti, ən isti sübutu isə ABŞ və Avropa tərəfindən bir sıra Azərbaycan məmurlarına qarşı sanksiya tətbiq ediləcəyi ilə bağlı yayılan xəbəri göstərmək olar.

Bu barədə NATO Əməkdaşlıq İnstitutunun rəhbəri, hazırda Almaniyada olan Fərrux Məmmədli bildirib. Avropanın məlumatlı mənbələri ilə yaxın münasibətdə olan ekspert açıq şəkildə bildirib ki, Azərbaycan hakimiyyətinə Qərbin verdiyi möhlət bitmək üzrədir və yekunda dəyişiklik olmasa, bunun ardınca bir sıra azərbaycanlı məmurlara sanksiya tətbiq ediləcək. Məmmədov onun əlində bu məmurların ilkin siyahısının olduğunu da söyləyir.

***

Göründüyü kimi, Qərblə heç də isti olmayan münasibətlər Bakını Kremlin təzyiq və şantajlarına xeyli həssas edib. Belə vəziyyətdə, Kreml Qarabağ məsələsində stavkanı, plankanı aşağı da sala bilər. Niyə də salmasın, əgər qarşımızda Azərbaycanı hər vəchlə öz siyasi-hərbi təsir zonasına salmağa çalışan imperialist və qəzəbli Rusiya dayanıbsa. Onu da yaddan çıxarma olmaz ki, Kreml Azərbaycanın şimal sərhədi boyunca, ilk növbədə də Dağıstanda xeyli miqdarda canlı hərbi qüvvə və texnika cəmləşdirib.

❑ **Siyasət şöbəsi**

# Müsavat Partiyasına heç kim vaxt qoya bilməz”

## Arif Hacılı: “Partiyada nizam-intizam qaydalarına da əməl olunması zəruridir”

**Müsavat Partiyasının başqanı Arif Hacılının və sabiq başqan İsa Qəmbərin Polşanın paytaxtı Varşava şəhərinə səfəri başa çatıb. Səfərlə bağlı və Müsavat Partiyasının qurultayından indiyə qədər keçən müddətdə partiya daxilindəki proseslərlə əlaqədar suallarımızı Arif Hacılıya ünvanladıq. İlk sualımız Polşa səfəri ilə bağlı oldu.**

- Oktyabr ayının 2-dən 5-dək Varşava şəhərində beynəlxalq konfransda iştirak etdik. Konfrans “1989-91-ci illər inqilablarının 25 illiyi: nəticələr və perspektivlər” mövzusunda idi. Beynəlxalq konfransda postsovet və postsosialist məkanından olan siyasi, ictimai xadimlər, dövlət xadimləri, jurnalistlər iştirak edirdi. Şərqi Avropa ölkələrində 1989-1991-ci illərdə inqilabi proseslərə rəhbərlik etmiş adamlar, əvvəllər və indi öz ölkələrinin parlamentlərinin üzvü olan, Avropa Parlamentinin üzvü olan, öz ölkələrində dövlət rəhbərliyində təmsil olunmuş şəxslər toplaşmışdı. Kifayət qədər nüfuzlu beynəlxalq konfrans idi. Bu konfransda Azərbaycanı İsa Qəmbərlə birlikdə təmsil etdik. Hər ikimizin ayrıca məruzəmiz var idi. Etdiyimiz məruzələr də konfrans iştirakçıları tərəfindən maraqla qarşılandı.

***- Müsavat başqanı kimi ilk xarici səfəriniz idi. Varşava konfransında iştirak edən şəxslər Müsavat Partiyasının başqanının dəyişdiyini bilirdilər, yoxsa orada bildilər ki, yeni başqan seçilib? Müsavata sizin başqan seçilmənizlə bağlı münasibətləri necə oldu?***

- Konfransda iştirak edənlərin bir çoxu ilə əvvəllər də əlaqələrim və münasibətlərim var idi. Onların bəziləri ilə hətta dostluq münasibətlərimiz var. Təbii ki, Azərbaycanda gedən proseslər bütün dünyanın diqqət mərkəzindədir. Müsavat Partiyasının qurultayı barədə, qurultayda baş verən başqan dəyişikliyi haqda əvvəlcədən məlumatlı idilər. Maraqlı hadisələrdən biri də o oldu ki, axşamlardan birində mənim Müsavat Partiyasının başqanı seçilməyim xüsusi qeyd olundu. Bu münasibətlə Müsavat Partiyasının adı yazılan xüsusi tort hazırlanmışdı, bu mövzuda xüsusi təbrik çıxışları edildi. Bu qeyri-rəsmi görüşdə Litvanın keçmiş prezidenti Vitautas Landsberqis, Krım tatar xalqının lideri, Ukrayna Ali Radasının üzvü Mustafa Cemiloğlu, Estoniya Xalq Hərəkatı liderlərindən olan, müxtəlif dövrlərdə Estoniyada və Avropa Parlamentinin rəhbərliyində təmsil olunmuş Tunne Kelam, Belarus Xalq Cəbhəsinin sədri Vinçuk Viaçorka,Gürcüstan Milli Təhlükəsizlik Şurası sədrinin müavini İvlian Hayndrava və başqa görkəmli şəxsiyyətlər iştirak edirdi.

***- Müsavatın qurultayından keçən müddətdə qurultayın səhərisi “Yeni Müsavat”a geniş müsahibədən başqa demək olar ki, geniş mövqe nümayiş etdirməmisiniz. Sanki bir gözləmə mövqeyindəsiniz. Bu 10 gün ərzində gedən prosesə qiymətiniz necədir. Hansı nəticəyə gəlmisiniz?***

- Ümumilikdə normal proses gedir. Alternativli qaydada, bərabərhüquqlu rəqabət şəraitində keçirilən şəffaf seçkilərdən sonra müəyyən fərqli fikirlərin, narazılıqların ortalığa çıxması təbii haldır. Təəssüf ki, bəzi dostlarımız Müsavat Partiyasının Nizamnaməsinə, məramlarına uyğun olmayan addımlar atır, fikirlər səsləndirir. Amma hesab edirəm ki, bu prosesin müəyyən fəsadları olsa da müsbət cəhətləri daha çoxdur. İnsanlar öz fikirlərini azad şəkildə ifadə edir, məsələlər müzakirə olunur, haqlı, ya haqsız fikirlər irəli sürülür, polemika gedir. Gedən prosesi plüralizm nümunəsi kimi dəyərləndirirəm. Ona görə də imkan daxilində bu prosesə müdaxilə etməməyə çalışıram.

***- Siz plüralizm hesab edirsiniz. Amma irəli sürülən fikirlər sırasında elələri də var sizə elə gəlmir ki, Müsavat Partiyasının nüfuzuna zərbə vurur. Müsavatı, partiyanın rəhbərliyini, İsa Qəmbəri saxtakarlıqda ittiham edirlər. Keçmiş rəqiblərinizdən birinin oktyabrın 6-da keçirdiyi toplantıda belə ittihamlar irəli sürülüb. Sizcə, bu ittihamlara konkret münasibət bildirilməli deyilmi? Bu cür ittihamlara partiyanın MNTK-sının münasibət bildirməsi zərurəti yaranmayıbmı ki, ciddi tədbirlər görülsün?***

- Müsavat Partiyası demokratik bir təşkilatdır. Burada müxtəlif cür düşünən insanlar fəaliyyət göstərir. Müsavat Azərbaycanda yeganə partiyadır ki, hətta qərarlar qəbul edildikdən sonra belə o qərarlara qarşı çıxış etmək partiya nizamnaməsinin pozulması sayılmır. Lakin Müsavat Partiyasının qərarlarını şübhə altına almaq, Müsavat Partiyası üzvlərinin iradəsi ilə hesablaşmamaq təbii ki, partiyanın nizamnaməsinə uyğun olmayan bir hərəkətdir. Müsavat Partiyasının qurultayının qəbul etdiyi qərarları tanımadığını bildirən adamlarla bağlı yəqin ki, Müsavat Partiyasının müvafiq strukturlarında müzakirələr aparıla bilər. O ki qaldı seçkilərin keçirilməsi ilə bağlı fikirlərə, Müsavatda seçkilər çox şəffaf, demokratik keçirilib. Səslənən bir çox iradları ədalətsiz hesab edirəm. Məsələn, 3 il qabaq seçilən qurultay nümayəndələrinin seçilməsini indi qurultaydan sonra müzakirəyə çıxarmaq təbii ki, həm yersizdir, həm də ədalətsizdir. Bircə o faktı xatırlatmaq istəyirəm ki, Müsavat Partiyasının qurultay nümayəndələrinin 90 faizindən çoxunun seçildiyi konfranslar zamanı mən həbsxanada olmuşam. Qurultayda paritet əsaslarla seçki komissiyası yaradılıb. Qurultay keçirilməzdən əvvəl təşkilat komitəsinin toplantılarında qərarlar bir qayda olaraq konsensus yolu ilə qəbul olunub və hər bir mübahisəli məsələyə nəticədə mən konsensus vermişəm, mən güzəştə getmişəm. İstər seçki komissiyalarının formalaşması məsələsində, istər qurultayın ssenarisinin müəyyənləşməsində, istər çıxışların edilməsi ardıcıllığı məsələsində mübahisələr yarandıqda həmişə güzəştə getmişəm. Bunun nəticəsində konsensusun alınması mümkün olub. Qurultaydan əvvəl digər namizədlər yalnız öz seçki kampaniyası ilə məşğul olduğu dövrdə də qurultaya hazırlıq üzrə təşkilat komitəsinin üzvü kimi qurultaya hazırlıq işləri ilə məşğul olmuşam. Mənim seçki



**“Müsavat Partiyasının qərarlarını şübhə altına almaq, üzvlərinin iradəsi ilə hesablaşmamaq təbii ki, partiyanın nizamnaməsinə uyğun olmayan bir hərəkətdir”**

kampaniyamı təşkil edən şəxslər başda mənim seçki qərargahımın rəhbəri Gülağa Aslanlı olmaqla, hər birimiz öz seçki kampaniyamızdan daha çox qurultayın təşkilati, texniki hazırlıq işləri ilə məşğul olmuşuq. Ona görə də hesab edirəm ki, yol verilmiş bəzi qüsurlarla bağlı haqlı iradlarla yanaşı, ədalətsiz və həqiqəti əks etdirməyən iddialar da var. Amma proses yenə də şəffafdır, partiya üzvləri baş verənləri müşahidə edir, hər kəs yaranmış vəziyyətdə kimin haqlı, kimin haqsız olduğuna qiymət vermək imkanına malikdir.

***- Baş verənlərlə bağlı İsa Qəmbərlə müzakirəniz olubmu? Çünki qurultaya hazırlıq üzrə təşkilat komitəsinin sədri İsa bəydir və 6 oktyabrda Qubad İbadoğlunun keçirdiyi toplantıda bir sıra çıxışçılar günahkar kimi birbaşa İsa Qəmbəri ittiham ediblər. Qurultaydan bir -iki gün sonra “Yeni başqanın legitimliyi şübhə altındadır” formasında açıqlamalar artıq o həddə çatıb ki, “Arif Hacılı istefa verməlidir, yoxsa partiya parçalanacaq” xəbərdarlığını etməkdən çəkinmirlər. İstefa tələbinə münasibətinizi də bilmək istərdik. Bu cür tələblərdə bulunanlarla bağlı başqan kimi qərar qəbul edə bilərsinizmi?***

- Müsavat Partiyasının qurultayı aşkar, şəffaf keçirilib, seçkilər azad və ədalətli olub. Partiyanın başqanlığına keçirilən seçkilər videokameraların, jurnalistlərin gözü qarşısında keçirilib. Azərbaycan tarixində keçirilən nadir seçkilərdəndir ki, səslər bilavasitə canlı yayımda internet televiziyası vasitəsilə translyasiya edilib. Paritet əsaslarla formalaşmış seçki komissiyası seçkilərin nəticələrini yekdil olaraq qəbul edib və yekun protokolu imzalayıb. Müsavat Partiyasının ali orqanı olan qurultay seçkilərin nəticələri barədə qərar qəbul edib. Müsavat Partiyasının qurultayının qərarı Müsavat Partiyası üçün ən ali qərardır. Müsavat Partiyası qurultayının qərarı Müsavatın hər bir üzvünün iradəsini ifadə edir. İrəli sürülən ittihamlarla bağlı müəyyən müzakirələr aparılır. Oktyabrın 6-da keçirilən toplantıda da bir sıra həqiqətə uyğun olmayan fikirlər səsləndirilib. Bu məsələlərlə əlaqədar da müzakirələr aparılacaq. Müsavat demokratik təşkiltdır. Biz daim pülralizmə şərait yaratmışıq, bundan sonra da belə olacaq. Ancaq Müsavat Partiyasında nizam-intizam qaydalarına da əməl olunması üçün konkret tədbirlər görmək niyyətindəyik. Hesab edirəm ki, Müsavat Partiyası ölkənin ən demokratik, ən plüralist partiyası olmaqla yanaşı, həm də ən nizam-intizamlı partiyalardan birinə çevriləcək.

***- Qubad İbadoğlunun keçirdiyi 6 oktyabr toplantısından sonra “Müsavat Partiyasının işinin yenidən qurulması və fəaliyyətinin gücləndirilməsinə dair” 5 bənddən ibarət təkliflərini yazılı şəkildə təqdim ediblər. Onlar həmin təkliflərin həyata keçirilməsi üçün partiyanın rəhbərliyinə 3 ay vaxt da verdiklərini bəyan ediblər. Həmin təkliflərə münasibətiniz necədir?***

- Təkliflərlə tanış deyiləm. Müsavat Partiyasına təkbaşına heç kim vaxt qoya bilməz. Müsavat Partiyasında hesabatlarla bağlı vaxtı Müsavat Partiyasının qurultayı müəyyənləşdirir. Müsavat Partiyasının müvafiq seçkili orqanları var. Qurultaylararası dövrdə partiyanın ali orqanı Məclis, Məclislərarası dövrdə isə ali orqan partiyanın Divanıdır. Biz qurultayın, Məclisin və Divanın qərarlarına uyğun olaraq fəaliyyət göstərəcəyik. Hər bir Müsavat Partiyası üzvünün də məhz Müsavat Partiyasının Nizamnaməsinə uyğun olaraq, qurultayın, Məclisin və Divanın qərarlarına uyğun fəaliyyət göstərməsini təmin edəcəyik.

***- Məclisdən söz düşmüşkən, təkliflərdən biri Məclisə seçkilərin oktyabrın 11-də yox, 18-də keçirilməsidir. Məclisə seçkilərin vaxtı dəyişdirilə bilərmi? Qubad İbadoğlunu müdafiə edən bir sıra tanınmış simalar var ki, Məclisə namizədliklərini irəli sürməyiblər. İradlarından biri isə budur ki, Məclisə nə üçün bu cür ziyalılar seçilməyiblər. Namizədliyini irəli sürməyib, bu cür ittihamlar irəli sürməyi necə dəyərləndirirsiniz?***

- Təəssüf ki, belə yanlışlıqlar var. Müsavat Partiyasının üzvləri bu cür hallara qiymət vermək imkanına malikdir. Məclisin vaxtı məsələsinə gəlincə, Müsavat Partiyasının ilk Məclisinin çağırılması səlahiyyəti nizamnaməyə görə Müsavat Partiyasının başqanına məxsusdur. Mən Müsavat Partiyasının önəmli şəxsləri ilə məsləhətləşdikdən sonra oktyabrın 11-də Məclisin keçirilməsi barədə qərar vermişəm. Məclis oktyabrın 11-də keçiriləcək.

***- Məclis üzvlüyünə boş qalan yerlərə namizədlər irəli sürülübmü? Məndə olan informasiyaya başqan seçkilərində rəqiblərinizdən biri olan Tural Abbaslı Məclis üzvlüyünə və seçildiyi halda isə sədrliyinə namizədliyini vermək istəyir. Bu cür addımlar atılacağı halda necə qarşılayacaqsınız?***

- Müsavat Partiyasının hər bir üzvünün seçkili orqanlara namizədliyini irəli sürmək hüququ var. Seçkilər gizli keçirilir. Biz Məclisi qurultaydan dərhal sonraya yox, ayın 11-nə ona görə təyin etdik ki, hər kəsin götür-qoy etmək, namizədliyini irəli sürmək üçün vaxtı, təbliğat aparmaq üçün imkanı olsun. Mənə verilən məlumata görə, artıq 10-larla partiya üzvü həm Məclis üzvlüyünə, həm MNTK-ya öz namizədliyini irəli sürüb. Ayın 11-də boş qalan yerlərə seçkilər keçiriləcək. Oktyabrın sonuna Divan üzvlərinin və Məclisin sədrinin seçilməsi ilə əlaqədar Məclisin daha bir toplantısının çağırılmasını təklif etmək niyyətindəyik. Bu müddət ərzində Divan üzvü və Məclis sədri olmaq istəyən şəxslər öz namizədliklərini irəli sürüb seçki kampaniyası aparmaq imkanına malik olacaqlar. Yəqin ki, Müsavat Partiyasının strukturlarının formalaşması prosesi oktyabrın sonunda başa çatacaq. Noyabrın 1-dən etibarən Müsavat Partiyası yeni seçkili orqanları, yeni Məclis, Divan və İcra Aparatı ilə öz fəaliyyətinin yeni mərhələsinə başlayacaq.

***- İndiyə qədər üç müavini təyin etmisiniz. Yeni təyinatlar nəzərdə tutulur?***

- Nəzərdə tutulur. Müsavat başqanının müşavirlərinin təyinatları bugünlərdə də davam etdiriləcək. Müavinləri Divan üzvləri seçkilərindən sonra təyin etmək niyyətindəyəm. Mən partiya rəhbərliyində çalışma bacarığı, həvəsi və vaxtı olan heç kəsin bu prosesdən kənarda qalmasını istəmirəm. Ona görə də müavinlərin təyinatını Divan üzvləri seçkilərindən sonraya saxlamaq niyyətindəyəm. Yəqin ki, ayın sonunadək Müsavat Partiyasının Mərkəzi İcra Aparatının tərkibi də elan olunacaq.

***- Təyinatlarda başqan seçkisində rəqiblərinizi müdafiə etmiş şəxslərdən də istifadə ediləcək?***

- Mənim üçün Müsavatda Arif Hacılını və ya bir başqa namizədi müdafiə etmiş kimi kateqoriyaya bölünən müsavatçılar yoxdur. Mən bütün Müsavat Partiyasının başqanıyam. Səlahiyyətlərimdən istifadə edərək, Müsavat Partiyasının müxtəlif kateqoriyalara bölünməsi istiqamətində atılan addımların qarşısını almaq və Müsavatın vahid bir komanda kimi fəaliyyətini təmin etmək niyyətindəyəm. Yaxın aylarda hər kəs bu siyasətin nəticələrini görəcək.

***- Partiyada parçalanma ehtimalı varmı?***

- Müsavatın parçalanacağı ehtimalları, bu barədə proqnozlar heç vaxt doğrulmayıb. Qurultaydan sonra əlamətdar hadisələrdən biri də odur ki, hələlik yalnız bir nəfərdən başqa heç kəs Müsavatdan çıxdığını elan etməyib. Bu partiya üzvlərinin partiyaya sədaqətini bir daha təsdiq edir.

❑ **Etibar SEYİDAĞA**



## Azərbaycan prezidenti Putinə zəng etdi

Prezident İlham Əliyev rusiyalı həmkarı Vladimir Putini ad günü münasibətilə təbrik edib

**Azərbaycan prezidenti İlham Əliyev Rusiya Federasiyasının prezidenti Vladimir Putinə telefonla zəng edib. APA-nın president.az saytına istinadən verdiyi məlumata görə, dövlət başçısı Rusiya prezidentini ad günü münasibətilə təbrik edib, ona prezidentlik fəaliyyətində yeni-yeni uğurlar və möhkəm cansağlığı arzulayıb.**

V. Putin göstərilən diqqətə və təbrikə görə prezident İlham Əliyevə minnətdarlığını bildirib.

Dövlət başçıları ölkələr arasında ikitərəfli münasibətlərin bütün sahələrdə uğurla inkişaf etdiyini vurğulayıb, yüksək səviyyədə görüşlərin əməkdaşlığın genişləndirilməsi baxımından önəmini qeyd edib, əlaqələrin bundan sonra da möhkəmlənəcəyinə əminliklərini bildiriblər.

## "Qazprom": Azərbaycan qazı Avropanı xilas etməyəcək


Aleksey Miller

**Rusiyanın "Qazprom" şirkətinin rəhbəri Aleksey Miller Avropanın qaz mənbələrini diversifikasiya etmək səylərinin iflasa uğradığını bəyan edib. Virtualaz.org saytı xəbər verir ki, Sankt-Peterburqda keçirilən IV beynəlxalq qaz forumunda çıxışı zamanı A.Miller Avropa qaz bazarında yeni qiymətlərin formalaşacağını bildirib.**

A.Millerin sözlərinə görə, Avropa bərpaolunan enerji mənbələrinə 400 milyard dollardan çox vəsait xərcləsə də atmosferə atılan karbondioksid qazının həcmi azalmayıb. Hansı ki, bərpaolunan enerji mənbələri hesabına bu həcmi azaltmaq nəzərdə tutulurdu.

"Qazprom" rəhbərinin sözlərinə görə, Avropa qaz təchizatı mənbələrini şaxələndirməyə çalışsa da bu səyləri iflasa uğrayıb.

"Bu səylərdən hələlik ancaq Azərbaycandan ildə 10 milyard kubmetr qaz nəql etməyə imkan verən "Cənub qaz dəhlizi" layihəsi uğurla baş tutub. Ancaq biz hamımız bilirik ki, Avropanın tələbatı ilə müqayisədə bu, nə dərəcədə kiçik həcmdir" - deyə A.Miller bildirib.

## Suriyada daha bir azərbaycanlı öldürüldü



**Suriyaya döyüşməyə gedən daha bir azərbaycanlı öldürülüb. Virtualaz.org saytı xəbər verir ki, bu barədə məlumatı Suriyada döyüşən mücahidlər sosial şəbəkələrdə paylaşıblar.**

Öldürülənin mücahidin ləqəbi Əbu Muaz Azəridir. Bu, videogörüntüdəki şəxslərin söhbətindən də məlum olur. Onlardan biri ölən şəxsin kimliyini soruşur. Digəri isə cavab olaraq "mücahid Əbu Muaz Azəri" deyir.

Həmin şəxsin bir neçə gün əvvəl öldürüldüyü haqda məlumat yayılsa da onun konkret hansı şəhərdə qətlə yetirildiyi haqda məlumat verilmir.

# "Azərbaycan Dəmir Yolları"nda bələdçi üsyanı

**"Azəbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin (QSC) 195 bələdçisi qurum rəhbərliyini məhkəməyə verib. Bununla bağlı vəkilin hazırladığı iddia ərizəsi artıq Nəsimi Rayon Məhkəməsinə təqdim olunub.**
**Məsələ ilə bağlı "Yeni Müsavat"a adının açıqlanmasını istəməyən bələdçi məlumat verib. Onun dediyinə görə, illərdir qanunla onlara verilməli olan çörək pullarının geri qaytarılmasına nail ola bilmədikləri üçün məhkəməyə üz tutmağa vadar olublar.**



# 195 işçisi Arif Əsgərovu məhkəməyə verdi

### Dəmiryolçular Nəsimi Rayon Məhkəməsi qarşısında iddia qaldırıb; işçilər illərdir mənimsənilən əmək haqlarının, ezamiyyə xərclərinin və çörək pullarının ödənilməsini tələb edir; onların hüquqlarını məhkəmədə Aslan İsmayılov müdafiə edəcək, ortada müdhiş yeyinti faktları var

Mənbəmiz dedi ki, 2000-ci ildə dəmir yolunda çalışan hər bələdçiyə əlavə olaraq aylıq 15 manat çörək pulu verilməsi barədə prezident sərəncamı olub. Nazirlər Kabineti isə məsələnin icraya yönəldilməsi barədə 2001-ci ildə qərar verib. 2008-ci ilədək bu məbləğ 15 manat olsa da, sonrakı üç il ərzində məbləğ 5 manat azaldılıb. 2011-ci ildən sonra isə çörək pulu üçün yenidən 10 manat ödənilməsi barədə qərar verilib. Ancaq qərara baxmayaraq, bu məbləğin yalnız 5 manatı işçilərə ödənilib. Yalnız son vaxtlar - dəmiryolçuların hay-küyündən sonra çörək pulları tam olaraq ödənilsə də, əvvəllər mənimsənilən məbləğ ödənilməyib qalıb. Bu səbəbdən də işçilər "qiyam" qaldırmağa vadar olub. İddia ərizəsində işçilərin ödənilməyən, mənimsənilən əmək haqlarının, ezamiyyə haqlarının və çörək pullarının ödənilməsi tələb edilib. "Tələbimiz odur ki, qanuni şəkildə yoxlanılsın, nə qədər vəsait yeyilibsə, geri qaytarılsın".

**Mənbəmiz deyir ki, vaxtilə dəmir yolunda 2500 kişi bələdçi olub. Ancaq indi cəmi 200 kişi bələdçi çalışır, işə götürülən qadınların sayı isə 400 nəfərdən çoxdur:** "Özü də qadınlarla kişilərin aldığı əmək haqqı da fərqlənir. Əvvəllər qadınlar 400-500 manat maaş alırdısa, biz 100-120 manat alırdıq. İndi dəqiq rəqəm məlum deyil. Keçən il mən 139 manat maaş almışam, bununla ailəmi saxlamaq olar? Ölkə içərisində işləyirik, tutaq ki, sutka yarıma burdan Astaraya gedib-gəlirik, bizə 10 manat verirlər. Ayda 5 dəfə gedirəm, 50 manatla ailəmi saxlamaq olar? Maaş azlığının səbəbini soruşanda da deyirlər iş günün, saatın azdır. Deyirəm ki, mənim günahım deyil, az iş verirsən, iş saatını da doldura bilmirəm".

**Bələdçi deyir ki, ölkənin bütün instansiyalarına şikayət ediblər:** "Son 9 ay ərzində prezidentə, nəqliyyat naziri Ziya Məmmədova, Nazirlər Kabineti, Milli Məclisə, Baş Prokurorluğa, Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə, digər qurumlara üst-üstə 200 məktub yazılıb, 200 teleqram vurulub, ancaq heç bir nəticəsi yoxdur. Bütün məktubları sərnişindaşımanın rəhbəri Elyar Muradovun üstünə göndərirlər. Biz elə bunlardan şikayət edirik, mənim şikayətimi onların üstünə göndərirlər ki, baxın, cavab verin".

**Mənbəmiz bildirdi ki, özü 20 ilə yaxındır dəmir yolunda çalışır və böyük miqdarda pulu mənimsənilib:** "Ən müxtəlif miqdarda təzminat tələbləri var-20 mindən 50 minə qədər. Mən 50 min tələb etmişəm. 2500 nəfər keçmiş və indiki dəmiryolçulara ödənilsə, bu, böyük miqdarda vəsait edir. Son vaxtlar işləyənlərlə bərabər işdən çıxanlara da günü 5 manatdan çörəkpulu ödənilir. Ortaya sual çıxır, yaxşı bu pulları yeməmişdinizsə, niyə ödəyirsiniz? Ya həmin pulları yemişdinsə, niyə cəmi 5 manatını qaytarırsan və hansı maliyyə mənbələrindən qaytarırsan? Məhkəmə araşdırsa, Hesablama Palatası qanuni yoxlamalar aparsa, görər ki, yüz milyonlarla vəsait mənimsənilib".


Arif Əsgərov

**Bələdçinin sözlərinə görə, Nəsimi Rayon Məhkəməsi işə ədalətli baxmasa, apelyasiya şikayəti verəcəklər:** "Hələ hazırlıq iclasının vaxtı məlum deyil, amma iddiamız təmin olunmasa, Ali Məhkəməyədək gedəcəyik". **Uzun illər aşağı əmək haqqı ilə necə yaşadıqlarını soruşduqda həmsöhbətimiz etiraf etdi ki, o vaxt biletsiz sərnişinlər aparmaqla vəziyyətdən çıxırmışlar:** "Açığı, haqq da verirdik və bunu görməzliyə vururdular ki, "gedin işləyin". Amma artıq bunun qarşısı alınıb, hamı bir nəfər kimi biletlə gedib-gəlir. İndi gəl bununla dolan. Açığını deyim ki, o zaman dövlətdən oğurluq edirdik, ancaq məcbur idik, deyirdilər gedin işləyin".

**Onu da öyrəndik ki, bələdçilərin hüquqlarını tanınmış vəkil, "Viza" Hüquq Firmasının rəhbəri Aslan İsmayılov qoruyur. A.İsmayılov "Yeni Müsavat"a açıqlamasında faktı təsdiqləyərək bildirdi ki, "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinə qarşı qaldırılan iddia ərizəsi məhkəməyə təqdim olunub. Ancaq hələlik ilk iclasın tarixi məlum deyil:** "İddia ərizəsi çoxsaylı dəmiryolçunun iddiası əsasında bizim "Viza" Hüquq Firmasının işçiləri tərəfindən hazırlanıb". Vəkil hələlik bu barədə detallı məlumat verə bilməyəcəyini qeyd etməklə kifayətləndi.

Avqust ayında dəmiryolçular çörək pullarının mənimsənilməsinə etiraz əlaməti olaraq aclıq aksiyasına başladıqlarını bəyan etmişdilər. Onlar "əgər bizim başımıza nəsə gəlsə, bunun günahkarı Əlirza Süleymanov, Əlyar Muradov, Arif Əsgərov, Ziya Məmmədovdur"-deyə, bəyan etmişdilər.

Ümumiyyətlə, 2014-cü il Azərbaycan dəmiryolçuları üçün məşəqqətli bir il olub. Bu ilin əvvəllərindən bir qrup qatar bələdçisi Prezident Administrasiyası və "Azəbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin qarşısında davamlı etiraz aksiyası keçirib. Onlar xəttə buraxılan yeni qatarlarda kişi bələdçilərin işləməsinə icazə verilməməsi və maaşlarının azlığına etiraz edib. "Azəbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin mətbuat xidmətinin rəisi Nadir Əzməmmədov isə demişdi ki, heç bir kişi bələdçi işdən çıxarılmayıb. Sadəcə, onların təyinatı Bakı-Xarkov qatarından çıxarılaraq daxili qatarlara verilib və buna görə etiraz edirlər. **QSC-nin Sərnişindaşıma İstehsalat Birliyinin rəisi Elyar Muradov isə bildirib ki, etiraz edən bələdçilərin işlə bağlı heç bir problemləri yoxdur:** "Əmək haqları isə az deyil. Əksinə, artırılıb. Əvvəllər 100-150 manat əmək haqqı alırdılarsa, bu gün daxili reyslərdə çalışır və 300 manata qədər əmək haqqı alırlar". **Kişi bələdçilərlə qadın bələdçilərlə əvəz edilməsinə gəlincə, E.Muradova görə, bunun səbəbi onların daha yaxşı xidmət göstərməsidir:** "Xanım bələdçilər həm vaqonun sanitar vəziyyətinə, yuyulub-təmizlənməsinə əməl edirlər, həm də sərnişinlərə yüksək xidmət göstərirlər. Ona görə də xarici reyslərdə xanım bələdçilərə üstünlük veririk".

Görünən budur ki, indi də dəmiryolçular çörək pullarının geri qaytarılması uğrunda mübarizəyə başlayıblar, özü də kütləvi aksiyalar şəklində yox, məhkəmə yolu ilə.

İş günü olmadığından qurumdan məsələyə və bu barədə iddialara münasibət öyrənə bilmədik. Qarşı tərəfin mövqeyini dərc etməyə hazırıq.

**M.HÜSEYNLİ**



# Qubad İbadoğlu tərəfdarlarını toplayıb Müsavata şərt qoydu

## Başqanlığa sabiq namizəd Müsavata üç ay vaxt verdi, tərəfdarları isə yeni başqanın istefasını tələb etdi

**Oktyabrın 6-da Müsavat Partiyasının keçmiş başqanlığa namizədi Qubad İbadoğlu öz tərəfdarları ilə görüş keçirib. Musavat.com-un tədbirdə iştirak edən əməkdaşının verdiyi xəbərə görə, uzun müddət maraqla gözlənilən və Müsavat Partiyasının qərargahında keçirilən görüşdə yüzdən artıq müsavatçı iştirak edib.**

**“Müsavat bir nəfərin, bir ailənin partiyası deyil”**

Qubad İbadoğlu çıxışında bildirib ki, Müsavat bir nəfərin, bir ailənin partiyası deyil. “Məqsədimiz partiyanın güclənməsidir. Seçkiyə qatılmağımızın da səbəbi bu idi” deyən, Q.İbadoğlunun sözlərinə görə, onların mübarizəsi vəzifə uğrunda deyil: “Bizim mübarizəmiz haqq-ədalət mübarizəsidir, bunu davam etdirəcəyik. Haqqımızı, ədalətimizi kimlərinsə tapdamasına imkan da verməyəcəyik”.

Q.İbadoğlu deyib ki, təkcə seçki günü deyil, bundan əvvəl də prosesə haram qatanlar olub. O, partiyanın güclənməsi üçün bir neçə təklif irəli sürüb və bunu tərəfdarları ilə bölüşüb.

**Qubad İbadoğlu partiya rəhbərliyinə üç ay vaxt verdi**

Keçmiş namizəd Müsavatın yenidən qurulmasına dair təkliflərini açıqlayıb. Bu təkliflər Müsavat Partiyasında işlərin yenidən qurulması barədədir. “Müsavat Partiyasının işinin yenidən qurulması və fəaliyyətinin gücləndirilməsinə dair təkliflər”də irəli sürülənlər bunlardır:

*- Partiya üzvlərinin yenidən siyahıya alınmasına başlanılsın. Onların cins, yaş tərkibi, sosial statusuna görə qruplaşdırılması həyata keçirilsin.*

*- Partiyanın Məclisinin işi təkmilləşdirilsin və aşağıdakı istiqamətlər üzrə yenidən qurulsun;*

*- Məclisin nəzdində analitik mərkəz yaradılsın. Analitik mərkəz tərəfindən Müsavat Partiyasının 2015-2018-ci illər üçün strateji inkişaf planı hazırlansın və Məclisin bu ilin sonuna planlaşdırılan növbəti iclasından əvvəl həmin sənəd partiya strukturlarında müzakirəyə çıxarılaraq Məclisdə qəbul edilsin;*

*- Məclisin nəzdində" Müsavat irsi" ideoloji məktəb yaradılsın. Məktəbin müsavatçılıq ideologiyasına həsr olunan aylıq tematik seminarları təşkil olunsun. Məktəbin tam kursunu bitirən məzunlara sertifikatlar və ideloji sahədə təbliğatçı statusu verilsin, onların cəmiyyətdəki fəaliyyəti stimullaşdırılsın;*

*- Məclisin Qarabağ münaqişəsi, gənclərlə iş, regionlarla iş, təhlükəsizlik məsələləri, avro-inteqrasiya siyasəti, insan haqları və azadlıqlar, iqtisadi siyasət, sosial siyasət, təhsil siyasəti, səhiyyə siyasəti, mədəniyyət siyasəti və s üzrə komissiyaları formlaşadırılsın. Komissiyaların 2015-ci il üçün iş planı Məclisin bu ilin sonuna planlaşdırılan növbəti iclasında qəbul edilsin;*



*- Müsavat Partiyasının 2015-2018-ci illər üçün strateji inkişaf planı və komissiyaların iş planları əsasən Məclisin 2015-ci il üçün fəaliyyət proqramı qəbul edilsin;*

*- İcra strukturlarının işi təkmilləşdirilsin və aşağıdakı istiqamətlər üzrə hesabatlılığı artırılsın;*

*- İcra Aparatının müvafiq şöbələrinin (təşkilatı və maliyyə istisna olmaqla) Məclis qarşısında illik hesabatlılığı təmin edilsin;*

*- Partiyanın icra aparatının təşkilat və maliyyə şöbələrinin Məclis qarşısında rüblük hesabatlılığı təmin edilsin;*

*- Maliyyə mənbələri, gəlirlər və xərclərə dair aylıq hesabatlar hazırlansın və həmin hesabata Məclis üzvlərinin çıxışı təmin edilsin;*

*- Xaricdən yayımlanan telekanalların birində partiyanın idarəçiliyində olan və dövrü olaraq fəaliyyət göstərən efir vaxtının alınmasına nail olunsun;*

*- Partiya Məclisinə seçkilər oktyabrın 18-nə təxirə salınsın.*

*Bu təkliflərin həyata keçirilməsi üçün 2015-ci il yanvarın 1-dək müddət ayrılsın.*

Beləliklə, Q.İbadoğlu bildirib ki, irəli sürülən təkliflərin 2015-ci il yanvarın 1-nə qədər yerinə yetirilməsi üçün vaxt verirlər.

**“Müsavatın seçkisinə haram qatanlar olub və bu faktlar araşdırılmalıdır”**

**Q.İbadoğlunun tərəfdarı Vurğun Əyyub isə çıxışında bildirib ki, başqanlıq seçkisi ilə bağlı narazılıqlar və qanunsuzluqlar kifayət qədərdir:** “Seçki günü də müəyyən narazılıq və qüsurlar bizim gözümüzün qarşısında olub və həmin gün bunları bildirmişik”.

**O, partiyadaşları tərəfindən kəskin tənqid və təhqirlərə məruz qaldığını da vurğulayıb:** “Heç vaxt düşünməzdim ki, partiyada tərbiyədən və əxlaqdan kənar fikirlər danışan adamlar peyda ola bilər. YAP-çılardan eşitmədiyim təhqir və böhtanları bunlardan eşitdim. Deyirlər ki, 2003-də Vurğun Əyyub qaçıb gizlənibmiş”.

**V.Əyyub həmçinin yeni başqan Arif Hacılının qardaşı Vaqif Hacıbəylini də Müsavatın işlərinə qarışmaqda günahlandırıb:** “Əhrar Partiyasının sədri Müsavatda "nadzor" olmaq niyyətindədir". O deyib ki, Müsavatın seçkisinə haram qatanlar olub və bu faktlar araşdırılmalıdır.

**“Haqqımızı, ədalətimizi kimlərinsə tapdamasına imkan da verməyəcəyik”**

**“Seçki prosesi videoya alınıb, çoxlu qanunsuzluqlar var”**

Daha sonra Q.İbadoğlu tədbirdə seçki günü baş verən qanun pozuntuları çəkilmiş videoları yayımlayıb. O bildirib ki, baş verən qanunsuzluqlar videoya çəkilib və bunlar partiya rəhbərliyinə təqdim ediləcək. “Videolarda görünür ki, səsvermənin gizliliyi pozulub, insanlar qrup şəklində səs verirlər, zalda bülletenləri qaralayan şəxslər bir-biri ilə məsləhətləşir və sair”.



Q.İbadoğlunun tərəfdarı Ələvsət Talışxanlı isə çıxışında bildirib ki, seçkiyə qədər hər şey həll olunmuşdu. O, seçkiyə ən çox müdaxilə edən şəxsin köhnə başqan İsa Qəmbər olduğunu vurğulayıb. O öz hərəkətləri ilə A.Hacılının seçilməsinə şərait yaradıb.

Sonra seçki pozuntuları barədə hazırlanan arayış təqdim edilib. Sadalanan pozuntuların arasında onadək rayon təşkilatlarının seçkili orqanlarının Divan tərəfindən buraxılması, bəzi rayon təşkilatlarında qurultay nümayəndələrinin seçim kvotası süni olaraq artırılması, bəzilərində isə məqsədli şəkildə aşağı salınması sadalanıb. Həmçinin bildirilib ki, bəzi rayon təşkilatlarında qurultay nümayəndələri konfrans və ya ümumi yığıncaq keçirilmədən müəyyənləşdirilib. Bir rayonda isə qurultay nümayəndəsi qurultaya bir neçə gün qalmış partiyadan qovulub. Bəzi rayonlarda siyahıya sonradan dəyişiklik edilib. Bəzi rayonlarda isə yığıncaqlar zamanı kvorum olmayıb, səsvermə düzgün aparılmayıb və sair.

**“Qurultayın nəticələri ləğv olunmalıdır”**

Hazırlanan arayışda qurultay nümayəndələrinin seçkisi dövründə, Qurultaya Hazırlıq üzrə Təşkilat Komitəsinin formalaşdırılması və onun fəaliyyəti dövründə, seçki kampaniyası zamanı təbliğat dövründə, seçki prosesi dövründə və qurultayın işində baş verən qanunsuzluqlar göstərilib və sadalanıb. Ə.Talışxanlı vurğulayıb ki, qurultayın nəticələri ləğv olunmalıdır.

**Q.İbadoğlu isə bildirib ki, arayış və sadalanan faktlar seçki komissiyasına təqdim ediləcək:** “Seçki komissiyasına müraciət edəcəyik. Pozuntular araşdırılıb bir ay müddətinə bizə izahatlar verilməlidir və günahı olan partiya üzvləri cəzalandırılmalıdır. ”Biz Müsavat daxilində demokratiyanın inkişafında maraqlıyıq" deyə, Q.İbadoğlu qeyd edib.

Partiyanın Məclis üzvü Hikmət Hacızadə isə çıxışında sadalanan qanun pozuntularının araşdırılmasını və faktlarla bağlı tədbir görülməsini tələb edib. O həmçinin narazı müsavatçıları yola davam etməyə səsləyib.

Arif Hacılının tərəfdarı Səxavət Soltanlı çıxış edib və narazılıqlarla və narazılarla razılaşmadığını bildirib. Onun çıxışı zaldakıların narazılığına səbəb olub. S.Soltanlı fikrini arqumentlərlə əsaslandırmağa çalışsa da, alınmayıb və bu da əlavə gərginliyə səbəb olub. Sonda S.Soltanlı bildirib ki, qurultayda baş verən təhqirlərə görə hər bir tərəfin tərəfdarını bağışlamaq lazımdır.

**“Müsavatı qapalı səhmdar cəmiyyətə çevirmək istəyirlər”**

**Müsavatın Qadınlar Təşkilatının sədri Ellada Məmmədli** də başqanlıq seçkisinin qanunsuzluqlarla təşkilində İsa Qəmbəri günahlandırıb. O, seçki qanunsuzluğu ilə bağlı bir neçə fakt sadalayıb və partiya rəhbərliyini bu şikayətlərə hörmətlə yanaşmağa səsləyib.

**Qocaman müsavatçı Ələvsət Sadıqlı** çıxış edərək bildirib ki, Məclisə namizədliyini versə də, bülletendə ümumiyyətlə adı olmayıb. O, bununla bağlı şikayətini say komissiyasına rəsmi şəkildə təqdim edib.

Narazı müsavatçılardan Vaqif Mustafaoğlu isə müsavatçıları sözlərini deyə bilməməkdə, çəkingənlikdə günahlandırıb. O bildirib ki, bir neçə il əvvəl də müsavatçılar başqan İsa Qəmbərdən, onun fəaliyyətindən narazı idilər, ancaq fikirlərini açıq şəkildə demirdilər: “İsa bəyin istefasını bir neçə il öncə tələb etmək lazım idi”.

O həmçinin Müsavat daxilində son illər baş verənlərin acınacaqlı hal olduğunu vurğulayıb və deyib ki, Müsavatda əqidə pozğunluğu var. “Əgər siz bunu bağışlasanız, bu, Müsavatın sonu deməkdir” deyə, o, narazıları seçki qanunsuzluqlarına göz yummamağa səsləyib. Digər çıxış edənlər də başqanlıq seçkisindən narazılıqlarını bildiriblər və yeni seçkilərin keçirilməsini tələb ediblər.

**Sonda Q.İbadoğlu deyib ki, Müsavatı kimlərsə qapalı səhmdar cəmiyyətə çevirmək istəyirlər və buna yol vermək olmaz: “Biz buna yol verməyəcəyik”.**

**❑ Röya RƏFİYEVA**
**Fotolar müəllifindir**









# Toro körpüsü

Zamin HACI
zaminhaci@gmail.com

**Gec də olsa Henri Devid Toro-nun “Uolden, yaxud meşədə həyat” əsərini oxuyuram. Heyfsilənirəm ki, bu cür gözəl əsər hələ dilimizə çevrilməyib (Ancaq son illərin bir çox bərbad tərcümələrini yadıma salanda “çevrilməsə yaxşıdır” düşüncəsi də var). Toro Amerika Birləşmiş Ştatlarında 19-cu əsrdə yaşamış yazıçı, filosof, maarifçi bir adamdır. Xeyli dərəcədə bizim Həsən bəy Zərdabiyə bənzəyir. Dünən Toro-nun kitabında oxuduğum bir hissəni sizlərlə bölüşmək ehtiyacı duydum.**

Yazır: “Yeni İngiltərə *(ABŞ-ın şimal-şərq hissəsində ölkənin əsasını qoyanların koloniyalarına o vaxt belə deyirdilər - Z.H.)* özünə müəllimliyə, öyrətmənliyə dünyanın hər yerindən müdrik insanları dəvət etməlidir, onları ictimai himayəyə almalıdır - o zaman ölkəmiz əyalət sayılmayacaq. Belə qeyri-adi məktəblər bizə lazımdır. Hansısa ağalardansa qoy bizim maariflənmiş adamlarımız olsun, belə öyrənmiş insanların bütöv yaşayış məskənləri yaransın”.

Heyrətamizdir. İndiki ABŞ-ın təhsil, elm siyasəti sanki bu sözlərdə açılır. Ölkədə nə qədər dövlət maliyyəli fondlar var, onlar qrantlar verir, bütün planetdən ağıllı insanları pulla, var-dövlətlə, elmi araşdırma üçün lüks şərait və laboratoriyalarla özlərinə cəlb edirlər. Nəticədə həmin adamlar ABŞ-ı fövqəldövlətə çevirirlər. ABŞ-ın universitet şəhərcikləri, elmi mərkəzləri sanki Toro-nun yazdığı həmin “maarif məskənləri”dir.

Ancaq mətndə tək bunlar olsaydı bəlkə heç sizinlə bölüşməzdim. Deyən gərək, 1854-cü ildə okeanın o tayında yazılan mətndən bizə nə, biz heç eyni ildə Axundovun burda yazdığı pyeslərdən bir nəticə çıxartmadıq. O zaman sitatın ardını oxuyun. Toro bunu sırf bizim üçün yazıb: “Əgər lazımdırsa hansısa çayda körpünün birini tikməyək, yolu dolanıb gedək, təki bizi əhatə edən cəhalət girdabının üzərindən salacağımız körpüdə bir tağ artıq tikilsin”.

Qızıl sözlərdir. İroniya olsun deyə bunun yanına bizdəki rəhbərin “Körpü yolun bir hissəsidir” müdrik fikrini qoya bilərsiniz, sərbəstlikdir.

Doğrudan da üstündən adam keçməyən körpülərə sərf olunan pullarla nə qədər təhsil, elm layihəsi yaratmaq olardı, xaricdə nüfuzlu universitetlərdə minlərlə tələbə oxutdura bilərdik. Elə bizim özümüzdə “pulsuz dövlət təhsili” adlanan, əslində isə 70 faizi ödənişli olan dövlət universitetlərində tələbələrdən təhsil haqqı yığılmasını dayandırmaq mümkün idi. Universitetlərə Toro-nun yazdığı kimi, dünyanın hər yerindən ağıllı alimlər, müəllimlər gətirmək olardı.

Gətirmək demişkən... Bunlar da gətirirlər. Məsələn, təzəlikcə “Bakı Beynəlxalq Humanitar Forumu” adlanan karikatur tədbir düzənlədilər, Azərbaycanın nə qədər pulunu orda-burda müftə yemək axtaran keçmiş siyasətçilərə xərclədilər. Mən bu mövzuda təzəlikcə yazmışdım, sadəcə, indiki qonaqların siyahısını bilmirdim. İndi bilirəm. Əslində köhnə siyahıdır, Avropanın, Asiyanın bəzi keçmiş prezidentləri-filan... Siyahının yeniliyi də var idi və bu bir az kənd uşaqlarının “Brus Linin əmisi oğlu mənəm” zarafatına oxşayırdı. Yapistlərin foruma çağırdığı qonaqlar arasında Yuri Qaqarinin qızı, Lermontovun uzaq qohumu kimi şəxslər vardı. Yapist KİV “Qaqarinin qızı Bakıya gəldi” tipli başlıqları elə forsla qoymuşdular deyərdin orbitə çıxanda Qaqarinin qucağında elə bu qız olubdur. Sanki kosmonavtika da nəsillikcə, bunların sevimli üslubunda yazsaq, “varislik ənənələrinə uyğun” olurmuş.

Bu mənada Anar Məmmədov varisliyə zidd gedir. “National Geographic Azərbaycan” adlı jurnal buraxır və onun üz qabığına spinozavr adlı dinozavrın şəklini qoyur. Halbuki atasının nəqliyyat müfəttişlərinin - taksozavr və avtobusoraptor cinsli qorxunc varlıqların fotosunu qoymalı idi.

Toro ilə başlayıb Bakı avtovağzalı ilə yazını bitirmək də bizim faciəmizdir. Anlayan üçün...

---

# ABŞ və Avropa Azərbaycan iqtidarına sanksiya verəcəkmi? - ipucu

**“Qərb demokratik islahatlara mane olduqları üçün Azərbaycanın bir sıra məmurlarına sanksiyalar tətbiq etməyə hazırlaşır”. Bu sözləri “Yeni Müsavat”a açıqlamasında NATO Əməkdaşlıq İnstitutunun rəhbəri, Almaniyada yaşayan Fərrux Məmmədli deyib. F. Məmmədlinin sözlərinə görə, sanksiyalarla üzləşəcək şəxslər sırasında Prezident Administrasiyası rəsmilərinin, prokurorluq orqanları işçilərinin, bir sıra hakimlərin, Penitensiar Xidmət əməkdaşlarının adı olacağı ehtimalı yüksəkdir.**

“Əgər Azərbaycan öz geosiyasi seçimini Kremlin, Avrasiya İttifaqının xeyrinə etsə, eyni zamanda Qərbdən üz döndərsə, öz strateji kursunu dəyişsə, o zaman sanksiyalar tətbiq edilə bilər”

F.Məmmədli bildirir ki, Avropa Birliyinin və ABŞ-ın Azərbaycana demokratik islahatlara başlamaq üçün verdiyi vaxt bitsə də rəsmi Bakının addımları bu sahədəki durumu daha da pisləşdirib. Bu səbəbdən Qərb dünyası Azərbaycanı üzərinə götürdüyü öhdəlikləri yerinə yetirməyə vadar etmək üçün indiyə qədərki yumşaq davranışlarını dəyişməyə qərar verib.

Yada salaq ki, Qərb indiyə qədər Belarusa, Rusiyaya və Ukraynadakı Yanukoviç iqtidarının bir sıra məmurlarına sanksiyalar tətbiq edib. Söhbət adı sanksiya siyahısına düşən məmurların ABŞ və Avropa Birliyi ölkələrinə girişinə qadağa qoyulmasından, onların bank hesablarının dondurulmasından, Qərbdəki daşınmaz əmlaklarına həbs tətbiq edilməsindən gedir. İndiyə qədər Qərbin sanksiya cəzası ilə üzləşən dövlət rəsmiləri də var. Belarus prezidenti Aleksandr Lukaşenko insan haqları sahəsində sərt addımlarına görə bir neçə dəfə Qərbin sanksiyaları ilə üzləşib.

Bu yaxınlarda isə Rusiya və Ukraynanın daha 12 vətəndaşı Avropa İttifaqının (Aİ) sanksiya siyahısına daxil edilib. Rusiya baş nazirinin müavini Dmitri Roqozin, Rusiya prezidentinin müşaviri Sergey Qlazyev, Federasiya Şurasının sədri Valentina Matviyenko, Dövlət Dumasının spikeri Sergey Narışkin, deputat Yelena Mizulina, Rusiya prezidentinin köməkçisi Vladislav Surkov və “Rusiya Bu Gün” beynəlxalq informasiya agentliyinin baş direktoru Dmitri Kiselyov da bu siyahıdadır.

**Politoloq Zəfər Quliyev “Yeni Müsavat”a açıqlamasında da deyib ki, Qərbin Azərbaycana sanksiyalar tətbiq etməsi reallaşa bilər, bu, istisna deyil. Ancaq bu sanksiyalar yalnız insan haqlarının pozulması ilə bağlı olmayacaq:** “Aydındır ki, əsas səbəb kimi son dövrlərdəki həbslər göstərilir. Bundan başqa, demokratiya, söz azadlığı, insan haqlarının pozulması sahəsində Azərbaycanın geriləməsi vurğulanır. Əgər yaxın zamanlarda Qərbin sanksiya tətbiq etmək qərarı qətiləşsə, səbəblər sırasında bütün bunlar qeyd olunacaq”.

**Zəfər Quliyev deyir ki, bütünlükdə götürəndə Qərbin Azərbaycana sanksiya tətbiq edib-etməməsi geosiyasi proseslərdən asılıdır:** “Əgər Qərb anlasa ki, Azərbaycan öz geosiyasi seçimini Kremlin, Avrasiya İttifaqının xeyrinə edib, eyni zamanda Qərbdən üz döndərməyə çalışır, öz strateji kursunu dəyişmək istəyir, o zaman sanksiyalar tətbiq edilə bilər. Hələlik mən hesab edirəm ki, bu, o qədər də real görünmür. Çünki Azərbaycan hakimiyyəti dediyimiz geosiyasi seçimdən maksimal dərəcədə yayınmağa çalışır. Öz seçimini birmənalı formada nə Qərbin, nə Rusiyanın xeyrinə etmir. İqtidar iki güc mərkəzi arasında konyuktur balansı tapmaq, saxlamaq üçün ciddi səylər göstərir”.

Zəfər Quliyev deyir ki, belə bir durumda Qərbin sanksiyalar hətta əks nəticələr də verə bilər. Ona görə də Qərb tələskənlik edərək öz maraqlarını təhlükə altına qoymaqdan çəkinir. Bu səbəbən Zəfər Quliyev sanksiyaların tətbiqini o qədər də real saymır.

**“Turan” İnformasiya Agentliyinin direktoru Mehman Əliyev isə düşünür ki, Azərbaycanla Qərb arasında bu gərgin informasiya axınının hansısa ciddi danışıqlar ərəfəsi olduğunun göstəricisidir:** “Hər iki tərəf danışıqlar ərəfəsində özü üçün daha əlverişli şərtlər əldə etmək istəyir. Qərb Azərbaycandan daha çox demokratiya, Azərbaycan isə tələb olunandan daha az vermək istəyir. Ona görə də biz ortada bir gərilmə havası hiss edirik. Ancaq proseslər istənilən halda bir danışığa, uzlaşmaya aparır. İndi gündəmdə siyasi məhbuslarla bağlı məsələnin daha qabarıq olduğu görünür. Hakimiyyətin basqısı ilə onlara müraciət yazdırılması da əbəs yerə deyil. Bizdə olan informasiyaya görə Tofiq Yaqublu ilə İlqar Məmmədova da əfv ərizəsi yazmaları üçün basqı göstərilir. Azərbaycanda siyasi məhbuslarla bağlı prinsip belədir - onlar mütləq nəsə yazmalıdırlar. Fikrimcə, Azərbaycan siyasi məhbuslar məsələsində güzəştlərə getməyə məcbur ediləcək. Azərbaycan iqtidarının belə bir güzəştə gedəcəyi də hiss olunur”.



Fərrux Məmmədli

**“Azərbaycan hakimiyyəti güzəştlərə məcburdur - qüvvələr nisbəti bərabər deyil”( Mehman Əliyev); “Qərb tələskənlik edərək öz maraqlarını zərbə altında qoymaz” (Zəfər Quliyev); “Siyahıda PA, Penitensiar Xidmət əməkdaşlarının, hakimlərin, prokurorluq orqanları işçilərini adları ola bilər” (Fərrux Məmmədli)**

**Mehman Əliyev bildirir ki, Azərbaycan hakimiyyəti Qərbin daha qlobal məsələlərlə bağlı basqıları ilə üzləşməmək üçün insan haqları ilə bağlı problemləri qəsdən artırır:** “İstər Şərq Tərəfdaşlığı Proqramı çərçivəsində, istər ATƏT, Avropa Şurası çərçivəsində Azərbaycanın üzərinə götürdüyü çoxsaylı öhdəliklər var. Azərbaycan iqtidarı bu məsələlərin arxa plana keçməsini istədiyi üçün basqı təhlükəsi hiss elədiyi məqamda insan haqları ilə bağlı durumu kritik həddə çatdırır. Azərbaycanın bu məsələdən süni şəkildə istifadə etdiyi gün kimi aydındır. Buna görə də Azərbaycanda real demokratiya məsələləri arxa planda qalır. Bu dəfə Qərbin nə qədər israrlı olub-olmayacağını demək isə çətindir. Azərbaycan iqtidarı bu məsələdə sadəcə vaxtı uzatmağı bacara bilər. Tələblər gec-tez yerinə yetirilməlidir. Artıq Avropa Birliyi ilə imzalanacaq Strateji Saziş layihəsi hazırdır. Yaxın zamanlarda sənədin imzalanacağı gözlənilir. Gələn il Azərbaycanda parlament seçkiləri, Avropa Oyunları keçirilməlidir. Bütünlükdə Azərbaycan xeyli gecikir. Qərbi narahat edən məsələlərdən biri də Azərbaycanda neftin azalması, neftin qiymətinin enməsi ilə bağlı problemdir. Getdikcə ciddi problemlər yarana bilər. Bu da ölkədə sabitliyin zəifləməsinə gətirib çıxarır. Azərbaycanda gündəmdə olan qeyri-neft sektorunun qurulmasıdır. Bunu hamı başa düşür. Sağlam iqtisadiyyatın qurulması azad rəqabət, azad iqtisadiyyat, qanunun aliliyi, məhkəmələrin azadlığı, investisiyaların təminatlılığı və demokratiyanın tələb etdiyi digər məsələlərlə mümkündür. Biz dəyişikliklərin qaçılmaz olduğu mərhələyə gəlib çıxmışıq. Hakimiyyət də bunu başa düşür. Hesab edirəm ki, proseslər demokratiya baxımından müsbətə doğru irəliləyəcək. Çünki geriyə yol yoxdur. Azərbaycan tərəf olaraq güzəştə getməlidir. Mən hesab etmirəm ki, hakimiyyət ciddi şəkildə direniş göstərəcək, iqtidar bu dəyişikliklərə getməli olduğunu bilir”.

**Mehman Əliyevin sözlərinə görə, qüvvələr nisbəti bərabər deyil. Heç bir halda kiçik Azərbaycan Qərbə, ABŞ-a güc göstərmək iqtidarında ola bilməz.**

**“Biz dəyişikliklərin qaçılmaz olduğu mərhələyə gəlib çıxmışıq. Hakimiyyət də bunu başa düşür. Hesab edirəm ki, proseslər demokratiya baxımından müsbətə doğru irəliləyəcək. Çünki geriyə yol yoxdur”**

❑ Aygün MURADXANLI



**Oktyabrın 10-da Belarusun paytaxtı Minsk şəhərində MDB Dövlət Başçıları Şurasının iclası keçiriləcək. İclasın gündəliyində təhlükəsizlik, humanitar və digər sahələrdə dövlətlərarası əməkdaşlığın gələcək inkişafına istiqamətlənmiş 17 sənəd layihəsi yer alır.**

# Minskdə MDB sammiti: Ermənistanın yerinə İŞİD...

## Ermənistanın Gömrük və Avrasiya İttifaqına üzvlüyü növbəti dəfə baş tutmaya bilər; "İslam dövləti" təhlükəsinin müzakirə ediləcəyi toplantıda Azərbaycanı kim təmsil edəcək?

Oktyabrın 9-da isə Belarus Milli Kitabxanasında MDB ölkələri Xarici İşlər Nazirləri Şurasının iclası keçiriləcək. İclasa Belarusun xarici işlər naziri Vladimir Makey rəhbərlik edəcək. MDB xarici siyasət idarələrinin rəhbərləri MDB Dövlət Başçıları Şurasının iclasının gündəliyinə çıxarılacaq sənədləri müzakirə edəcəklər. Rusiya Təhlükəsizlik Şurasının katibi Nikolay Patruşev ayın əvvəlində Moskvada MDB Təhlükəsizlik Şurası katiblərinin ikinci görüşündə bildirib ki, Minskdə MDB ölkələrinin sammitində beynəlxalq əməkdaşlıq məsələləri müzakirə olunacaq. Əsasən də MDB ölkələrinin təhlükəsizliyinin təmin olunması sahəsində əməkdaşlığa diqqət ediləcək. Sammitdə müzakirə olunacaq məsələlər arasında İŞİD təhlükəsi ilə bağlı MDB dövlət başçılarının mövqelərinin açıqlanması da var.

***

Bu sammitdə Azərbaycan üçün ən maraqlı məsələ Ermənistanın Avrasiya İttifaqına üzvlüyünün nəhayət baş verəcəyinin gözlənilməsidir. Hələ bir müddət əvvəl Rusiya prezidenti Vladimir Putin bəyan etmişdi ki, Ermənistanın üzvlüyünə dair qərar Minskdə veriləcək. Lakin bu yaxınlarda məlum olub ki, Qazaxıstan hələ Ermənistanın ittifaqa üzvlüyünə dair rəsmi mövqeyini formalaşdırmayıb və oktyabrın 10-da prezident Nazarbayev Minskdə bu məsələyə dair qərar verməyə hazır deyil. Bu da o deməkdir ki, Ermənistanın Gömrük İttifaqına və Avrasiya İttifaqına üzvlüyünün növbəti dəfə baş tutmaya da bilər.

Maraqlıdır ki, bu sammit ərəfəsində Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Belarusa səfər edib. İddialara görə, bu səfərin Avrasiya İqtisadi İttifaqının Minskdə oktyabrın 10-da keçiriləcək toplantısı ərəfəsində baş tutması təsadüf deyil. Bu, rəsmi Bakının Ermənistanın Avrasiya İttifaqına üzvlüyü məsələsində Azərbaycanın milli maraqlarını qorumağa yönəlmiş diplomatik gedişlərindən biri kimi dəyərləndirilir.

Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Belarusa rəsmi səfəri çərçivəsində ölkənin xarici işlər naziri Vladimir Makey ilə də görüşüb.



Virtualaz.org-un XİN-in mətbuat xidmətinə istinadən məlumatına görə, görüşdə ölkələrimiz arasındakı səmimi dostluq münasibətləri əsasında dinamik surətdə inkişaf edən ikitərəfli siyasi-iqtisadi əlaqələrin mövcud səviyyəsindən məmnunluq ifadə olunub.

Görüşdən sonra Elmar Məmmədyarov və Vladimir Makey birgə mətbuat konfransı keçiriblər.

"Belarus 24" telekanalının məlumatına görə, Vladimir Makey bildirib ki, Minsk və Bakı arasında münasibətlər strateji xarakter alıb və nazirlər Azərbaycan prezidenti İlham Əliyevin gələn il Belarusa səfərinin təşkili imkanlarını müzakirə ediblər.

Belarusun xarici işlər nazirinin açıqlamasından isə belə çıxır ki, İlham Əliyev bu tədbirə getməyəcək.

Qeyd edək ki, Elmar Məmmədyarov bu ölkənin prezidenti Aleksandr Lukaşenko ilə də görüşüb.

Görüşdə Belarusla Azərbaycan arasında qarşılıqlı ticarətin bütün mümkün yollarla artırılmasının vacibliyi haqda danışılıb. "Bizim 300 milyon dollar, hətta 500 milyon dollarlıq mal dövriyyəsinə malik olmağımız? Bu haqda danışmaq belə ayıbdır" deyə, Lukaşenko bildirib.

"Biz Azərbaycanı bir çox malların istehsalı üçün dayaq bazasına çevirməli, bu ərazidə birgə istehsal edilən məhsulu regiona satmalıyıq" deyə, Belarus prezidenti əlavə edib. Lukaşenkonun sözlərinə görə, bu, həm də ona görə vacibdir ki, Azərbaycan şirkətləri həmişə belə layihələri maliyyələşdirir: **"Bu, böyük işdir. Harasa getmək, kredit xahiş etmək lazım gəlmir. Bu, belə layihələri maliyyələşdirən banklara da sərfəlidir, xüsusən də istehsalçılara sərfəlidir".**

Belarus prezidenti bildirib ki, iki ölkə arasında bütün istiqamətlərdə əməkdaşlıq inkişaf edir. Onun sözlərinə görə, Belarusla Azərbaycan arasında qapalı mövzu yoxdur. **"Biz heç vaxt kiməsə qarşı dostluq və ya əməkdaşlığı qarşıya məqsəd qoymamışıq. Əgər bizim münasibətlərimizi iki sözlə xarakterizə etsək, o zaman demək olar ki, Allah hamıya belə münasibətlər qismət etsin"** deyə, Lukaşenko əlavə edib.

Belarus prezidenti qeyd edib ki, onun Azərbaycan prezidenti ilə gözəl şəxsi münasibətləri var: **"Bu münasibətlər dostluqdan da ötədir, biz bir-birimizə tamamilə etibar edirik. Və bu şəxs münasibətlər dövlətlərarası səviyyəyə keçirilib, bizim çox gözəl dövlətlərarası münasibətlərimiz mövcuddur".**

Lukaşenko qeyd edib ki, Belarus xalqı ona edilən yaxşılığı heç vaxt unutmur: **"Siz heç vaxt bizi darda qoymamısınız, çətin vaxtlarda həmişə bizə dəstək vermisiniz və kömək etmisiniz. Biz bunu yadda saxlayırıq. Ona görə də kiminsə bizim Azərbaycanla çox sıx münasibətlərimiz barədə sualı varsa, cavabı budur ki, başqa cür ola bilməz. Bütün imkanlarımız çərçivəsində və xaricində biz də Azərbaycanı dəstəkləyirik və bundan sonra da belə edəcəyik".**

Azərbaycan XİN rəhbəri isə qeyd edib ki, ikitərəfli münasibətlər haqda bu qiymətləndirmələrə tamamilə şərikdir: **"Biz da ona çalışırıq ki, mal dövriyyəsini artıraq. Çünki siyasi baxımdan bizim beynəlxalq tematikanın bütün məsələlərinə dair mövqelərimiz üst-üstə düşür".**

***

Azərbaycanın dövlət başçısının Minskə gedib-getməyəcəyi barədə rəsmi məlumat hələ ki yoxdur. Güman ki, bayram tətilindən sonra, yəni bu gün məsələyə aydınlıq gələcək. Dünyanın gündəmində olan İŞİD-lə bağlı məsələnin müzakirə ediləcəyi bir toplantıda Azərbaycanın yüksək səviyyədə təmsilçiliyi vacibdir, bunu rəsmi Bakı da yaxşı anlayır. Çünki İŞİD-in Azərbaycana ciddi təhlükə törədəcəyi, hətta hakimiyyəti dəyişə biləcəyi barədə son vaxtlar bir neçə sensasion xəbərdarlıq yayılıb. Azərbaycana İŞİD təhlükəsi ilə bağlı ABŞ kəşfiyyatına yaxınlığı ilə tanın "Stratfor" beyin mərkəzi də xəbərdarlıq etmişdi. "Stratfor"un hesabatında deyilirdi ki, Azərbaycanın müsəlman əhalisi arasında da radikal dini qruplara meyli olanlar var və bu, gələcəkdə Bakının başağrısına çevriləcək: **"İŞİD-in xilafət elanı indiyə qədər "öz yuvalarında gizlənən" cihada meylli insanları ruhlandırır. "Onlar "yuvalarından" çıxa və eyni şeyi öz ölkələrində də istəyə bilərlər. Bu isə potensial təhlükə deməkdir".** Onu da yada salaq ki, İŞİD-in ələ keçirdiyi və şəriət qanunlarını tətbiq edəcəyi ölkələrin "xəyali xəritələrində" Azərbaycan ərazisi də var.

Yeri gəlmişkən, oktyabrın 6-da Rusiya prezidenti Vladimir Putin də Rusiya Təhlükəsizlik Şurasının daimi üzvlərini toplayaraq İŞİD terror qruplaşması ilə bağlı müzakirə aparıb.

Bu səbəblərdən Ermənistanın Gömrük İttifaqına qoşulacağı ilə bağlı məsələ ertələndiyi üçün çox güman ki, prezident bu sammitə qatılacaq. Qeyd edək ki, Ermənistanın özündə də bu ittifaqa qoşulmağın ciddi əleyhdarları var. Belə ki, Ermənistan parlamentində təmsil olunan üç müxalifət partiyası - "Çiçəklənən Ermənistan", Erməni Milli Konqresi və "İrs" oktyabrın 10-da etiraz aksiyası keçirməyi planlaşdırırlar.

❑ **Xəbər xidməti**

# "Sərt ittihamlar", "ağır cavablar"



**Xalid KAZIMLI**

**Bu sətirləri yazarkən hansı ölkədə olduğumu, necə bir siyasi auditoriyaya müraciət etdiyimi dəqiq bilirəm. Bu o ölkədir ki, burda sinnindən asılı olmayaraq ortaya çıxıb arbitrlik, Dədə Qorqudluq etmək istəyənlərin özünü biabır, rüsvay edirlər.**

Ancaq elə şeylər var ki, adam gərək onları öz vicdanının rahatlığı üçün desin, yazsın və hücumlara hədəf olmaqdan qorxmasın.

Hələ Müsavat Partiyasının 8-ci qurultayından əvvəl başqan seçkiləri ilə bağlı namizədlərin tərəfdarları arasında başlayan "dedim-dedi" rədifli dilləşməyə yad dillərin qarışması, kənar gözlərin tuşlanması yaxşı perspektivdən xəbər vermirdi.

Bu, fırtına əlamətiydi. Ölkəmizin siyasi arenası, media sektoru dava-qırğın düşəcək məkanı öncədən təxmin etmək qabiliyyətinə malikdir. Bu, bizimkilərin ən yaxşı bacardığı işdir.

Bu dəfə də elə oldu, qurultay bitdi, söz-söhbət bitmədi. Əksinə, daha da qızışdı. Bir çoxları get-gedə gərginliyin səngiyəcəyini gözlədiyi halda qarşılıqlı ittihamlar yağışı daha da gücləndi.

Hazırda mediada "Filankəsdən filankəsə sərt ittihamlar", "Filankəs filankəsin ittihamına sərt cavab verdi" başlıqlı yazılar bollaşıb. O deyir, bu deyir. Biri deyir, o biri cavab verir.

Əlbəttə, 20-25 ildən bəri birlikdə yol gələn adamların bir-birinə qarşı irəli sürəcəyi ittihamlar çox ola bilər. Zarafat deyil, insanlar ömürlərinin yarısını birlikdə tükədiblər və zaman-zaman hər cür sınaqlara, məhrumiyyətlərə dözüblər, müxtəlif dönəmlərdə özlərini müxtəlif cür aparıblar.

İllərlə davam edən siyasi uğursuzluqlar onların hər birinin daxilində müəyyən neqativ hisslər birikdirib. İndi o mənfi yüklü hisslər vulkan püskürməsi dəstiri ilə meydana çıxır və lavası mediaya axır.

Yenə ciddi bir polemika olsaydı, dərd yarıydı. Amma qarşı duran tərəflərin ayrı-ayrı təmsilçiləri artıq söhbətlərini şəxsi müstəviyə keçiriblər, biri o birinə xəstə deyir, o biri bu birini kabinet düşkünü olmaqda, qorxaqlıqda ittiham edir.

Ayıb bir mənzərə yaranıb. Həm də söz-sözə gələnlər elə nüfuzlu, hörmətli, ağsaqqal adamlardır ki, onlara "bəsdir" demək üçün daha sözükeçər biri olmaq lazımdır.

Onları durdura biləcək şəxslər isə ya bu sayaq əttökən deyişməyə qarışıb tərəfə çevrilmək istəmirlər, ya da sözlərinin yerə düşəcəyindən çəkinirlər.

Ortada isə əslində çox da ciddi bir "nifaq alması" yoxdur. Arada olan umu-küsü və narazılıqları zamanla həll etmək, emosiyaları soyutmaq mümkündür. Yetər ki, yanar ocağın üstünə benzinlə gələn üçüncü, beşinci adamlar olmasın.

Polemika aparanlar da mübahisə mədəniyyətini gözləməlidirlər. Onlar bir-birinə daha ağır cavab verməli deyillər, əksinə, daha ağırtaxtalı, ağayana cavab verməlidirlər. O zaman qarşı tərəf daha sanballı olmağa çalışacaq.

Belə söz-söhbətlərin üzündəndir ki, Müsavatı istəyənlər də, istəməyənlər də partiyanın ikiyə parçalanacağını proqnozlaşdırırlar. Hətta parçalanmanın artıq baş verdiyini, sadəcə bunun yaxın müddətdə rəsmiləşəcəyini arın-arxayın şəkildə yazanlar da var.

Onları qınamalı deyil. Görüntü budur. Müsavatda parçalanma olacağını gözləyənlər belə görüblər, görə-görə gəliblər. Bundan əvvəl parçalanan partiyalarda dağıdıcı proseslər məhz bu atmosferdə və məhz bu ritorika ilə başlayıb, davam edib, onları durduran olmayıb və proses parçalanma ilə yekunlaşıb.

Müsavatçılar da bu xalqın materialındadır deyə indilikdə gözləntilər pessimist ovqatlıdır. Hamı daha ciddi qovğa, ixtilaf və ayrılıq gözləyir. Müsavatın iqtidarda və müxalifətdə olan rəqibləri əllərini bir-birinə sürtə-sürtə olaylara tamaşa edirlər. Bitərəf təəssübkeşlər (ənənəvi elektorat) ordusunun daha fəal kəsimi həmişə olduğu kimi, bu dəfə də ölkənin ən böyük müxalifət partiyasında gedən prosesi narahatlıqla izləyir və bu cür davam edərsə, ondan üz döndərəcəyini bəyan edir.

Nəhayət, söz demək, ortaya iradə qoymaq növbəsi partiyanın lideri, sabiq başqanı İsa Qəmbərə yetişib. O, öz iradəsini ortaya qoyaraq, hamını sakitliyə dəvət edə, hay-küyü yatırda bilər. Yoxsa, bu xəmir çox su aparacaq.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**



YENİ MÜSAVAT
N 248 (5957) 8 oktyabr 2014



# Rusiya Xəzərin əvəzinə 7 rayonu qaytarır?

**Xəzəryanı dövlət başçılarının Həştərxan sammitində Xəzər dənizinin hüquqi statusu haqqında konvensiyanın əsas məsələləri üzrə razılaşmaların əldə olunması yeni müzakirələrə rəvac verib. Azərbaycan xarici işlər nazirinin müavini Xələf Xələfov sammitin nəticələrini Azərbaycan üçün uğurlu sayaraq müzakirələrin keyfiyyətcə yeni mərhələyə keçmək üçün əsas verdiyini desə də, ortaya çıxan suallar razılaşma prosesinin tezliklə həllini tapmayacağını deməyə əsaslar yaradır.**

Rəsmi Bakının izahatına görə, Xəzərin dibinin bölünməsi üzrə ortaq mövqeyə gəlinib ki, bu da Konvensiyanın 80-90%-nin razılaşdırılmasına təkan verib. Eyni zamanda sammitin yekunlarına görə, birgə bəyannamə qəbul edilib. Ancaq növbəti sammit iki il sonra Qazaxıstanda keçiriləcək. Prezidentlər işçi qruplara həmin vaxta qədər Konvensiya layihəsi üzərində işi yekunlaşdırmaq tapşırığı veriblər.

X.Xələfov da deyib ki, Rusiya, Qazaxıstan və Azərbaycan Xəzərin dibinin bölgüsünü öz aralarında tamamilə yekunlaşdırıblar. İran və Türkmənistanla isə iş davam etdirilir. İndiyədək beştərəfli konvensiya ilə bağlı fikir ayrılıqları var idi. Son sammitdə isə vahid prinsiplər və normalar müəyyən olunub. Belə ki, dəniz akvatoriyası 15 millik milli zonaya və əlavə olaraq 10 millik balıqçılıq zonasına bölünür. Dənizin qalan hissəsi ortaq istifadədə olacaq. Razılaşmaya əsasən, bu zaman ərazi bütövlüyünə, suverenliyə hörmət olunacaq, güc tətbiqinə və daxili işlərə müdaxiləyə yol verilməyəcək.

Bu arada rusiyalı politoloq Qriqori Trofimçuk Xəzərin bütün ölkələrinin müharibə təhlükəsindən siğortalanmadığını bildirib (axar.az). "Rusiyanı ağıllı şəkildə Krım və digər situasiyalara cəlb etdilər. Hansı ki, o, buradan çıxa bilmədi və işğalda günahlandırıldı. İndi çoxları, həmçinin, Azərbaycandakı müəyyən təbəqələr Moskvanın eyni cür revanş addımını Xəzərdə də atacağını gözləyirlər. "Bir şeyi də anlamaq lazımdır ki, Xəzərə edilən təhdid hər hansı neft yataqlarına-filan təhlükə deyil. Bu, birbaşa Azərbaycan, Rusiya, Qazaxıstan, İran və Türkmənistan üçün real təhdiddir. İlk növbədə sahilyanı ərazilərdə yaşayan şəxslər üçün təhdiddir. Bundan sonra isə həmin ölkələrin daxili regionlarında yaşayan şəxslər üçün təhlükədir"-deyə, rus politoloq bildirib. Xatırladaq ki, Rusiya Müdafiə Nazirliyi dünən Xəzərdə donanma arsenalını daha da gücləndirəcəklərini bəyan edib.

Yada salaq ki, Xəzər razılaşmasına Vaşinqtondan sərt etiraz gəlmişdi. Belə ki, ABŞ Dövlət Departamentinin sözçüsü Cen Psaki "Biz "Xəzər beşliyi"nin birgə bəyanatında qeyd olunmuş başqa müddəalarla yanaşı, Xəzər dənizində sahil ölkəsi olmayan dövlətlərin silahlı qüvvələrinin mövcudluğunun yolverilməzliyi barədə müddəanı da görmüşük" deyə, bəyan etsə də, qarşı tərəf bunu sükutla qarşıladı. "ABŞ düşünmür ki, "Xəzər beşliyi"nin birgə bəyanatı ABŞ-Azərbaycan əməkdaşlığına xələl gətirəcək".

Hesab olunur ki, Xəzər razılaşması Azərbaycanın ərazi bütövlüyünü təhdid edir. Konstitusiyamızın 11-ci maddəsində bəyan olunur: **1.** Azərbaycan Respublikasının ərazisi vahiddir, toxunulmazdır və bölünməzdir. **2.** Azərbaycan Respublikasının daxili suları, Xəzər dənizinin (gölünün) Azərbaycan Respublikasına mənsub olan bölməsi, Azərbaycan Respublikasının üzərindəki hava məkanı Azərbaycan Respublikası ərazisinin tərkib hissəsidir. **3.** Azərbaycan Respublikasının ərazisi özgəninkiləşdirilə bilməz. Azərbaycan Respublikası öz ərazisinin heç bir hissəsini heç bir şəkildə kimsəyə vermir; yalnız Azərbaycan Respublikası Milli Məclisinin qərarı ilə Azərbaycanın bütün əhalisi arasında referendum keçirmək yolu ilə Azərbaycan xalqının iradəsi əsasında dövlət sərhədləri dəyişdirilə bilər.

X.Xələfov da "Bakının Xəzər akvatoriyasının 25 millik zonaya bölünməsinə razılıq verməsi Azərbaycan Konstitusiyasının 11-ci maddəsinə zidd deyilmi" sualına cavabda deyib ki, əldə edilmiş razılaşmalar Azərbaycan qanunvericiliyinə və beynəlxalq normalara zidd deyil. Xatırladaq ki, ölkə konstitusiyasına əsasən, dənizin Azərbaycan sektoru - onun dibi, səthi və hava məkanı ölkənin ərazisi hesab olunur. Milli sektor 25 millik zonadan xeyli çox sahəni əhatə edir.

Bəzi mənbələr Xəzərlə bağlı razılaşmanı Azərbaycanın dənizin statusu ilə bağlı 20 illik dəyişməz mövqeyinin Rusiyaya təslim edilməsi kimi yozur. Ancaq digər qaynağımız hesab edir ki, rəsmi Bakı Qərblə bütün danışıqlarında Qarabağ məsələsini prioritet olaraq təqdim etdiyi kimi, Xəzər məsələsində də işğal altındakı ərazilər məsələsini əsas şərt olaraq önə çəkməmiş deyil. Bu mənada güman olunur ki, Rusiya Xəzərlə bağlı Bakının razılığını almağının əvəzinə işğal altındakı 7 rayonun geri qaytarılması üçün Ermənistana sərt təzyiqlərə başlaya bilər. Yeri gəlmişkən, bugünlərdə erməni mənbələri işğal altındakı ərazilərin geri qaytarılma sxemi və yaxud Rusiyanın Qarabağı Bakıya qaytaracağı haqda materiallar dərc edib.



**Vəfa Quluzadə:** "Azərbaycan üçün Xəzərdən imtina müstəqillikdən imtina demək olardı"



**İqbal Ağazadə:** "Qarabağ məsələsi xeyrimizə həll olunan kimi Ermənistan Rusiyanın yanında olmayacaq"



**Hikmət Hacıyev:** "Ərazi bütövlüyümüz hər hansı bir sövdələşmə obyekti deyil, ola da bilməz"

**Sabiq dövlət müşaviri, politoloq Vəfa Quluzadə hesab edir ki, istənilən halda Azərbaycan Xəzərin özünə aid sektorundan imtina edə bilməz:** "Bu, tamamilə reallığa uyğun olmayan məsələdir. Azərbaycan Xəzərdən imtina edərsə, belə çıxır özündən, müstəqilliyindən imtina edir. Mümkün deyil ki, Qazaxıstan, Türkmənistan, ya İranın Xəzərdə sektoru olsun, amma Azərbaycanın yox. Onda gərək Azərbaycan Rusiyanın bir hissəsinə çevrilsin. Xəzərin müqabilində Qarabağın geri qaytarılması da inandırıcı deyil. Belə olan halda əslində nəinki Qarabağ, bütün Azərbaycan işğal altına düşmüş olur".

**V.Quluzadə deyir ki, hazırda NATO ilə Rusiya arasında döyüş gedir. Bu döyüşün nəticələri dünyada ab-havanı təyin edəcək:** "Bu məsələlərdə Qarabağın yanından belə keçən heç bir şey yoxdur. Qarabağ məsələsində balaca tərpəniş olsa, bu, o dəqiqə dünyaya sensasiya kimi yayılacaq. İmperiya qarşısına məqsəd qoyub ki, bütün Cənubi Qafqazı öz nəzarətində saxlasın. Qarabağ müharibəsi nəticəsində Rusiya həm Ermənistan, həm də Azərbaycana nəzarət edir. Azərbaycan da Rusiyanın nəyi çatmırsa, verir. Necə ki, 1920-ci ildə Zəngəzuru Ermənistana calaşdırdılar, sonra da bütün Azərbaycanı işğal etdilər, indi də Qarabağ məsələsini bu şəkildə saxlayıb Azərbaycanı Rusiyaya calamaq istəyirlər. Rusiya istəyir ki, Azərbaycan, Gürcüstan, Ermənistan Rusiyanın tərkibinə qayıtsın. Görək NATO bu imperiyanı yerinə oturdacaqmı?"

**"Rusiyanın Xəzərdə donanma personalını artırması və hərbi dəniz arsenalını gücləndirməsi digər dörd Xəzəryanı dövlət üçün təhlükə mənbəyidir". Bunu isə hafta.az-a açıqlamasında hərbi ekspert Azad İsazadə deyib. Onun sözlərinə görə, Azərbaycan, Türkmənistan, Qazaxıstan və İranın, Həştərxan müqaviləsinə əsasən, öz ərazilərində saxladığı hərbi donanma öz daxili sularında təhlükəsizliyin qorunmasına hesablanıb:** "Rusiyadan başqa digər 4 Xəzəryanı dövlət öz ərazilərini mühafizə etmək üçün donanma saxlayır və heç bir qonşu dövlətin maraqlarına zərbə vurmaq üçün deyil".

**A.İsazadə həmçinin bildirib ki, Rusiyanın Xəzər dənizində donanmasını get-gedə gücləndirməsi digər Xəzər payı olan ölkələr üçün təhlükəyə çevrilə bilər:** "Rusiyanın Xəzərdə donanma personalını artırması və hərbi dəniz arsenalını gücləndirməsi digər dörd Xəzəryanı dövlət üçün təhlükə mənbəyidir. Bunun nəticəsində müharibə gözlənilməsə də, hərbi şantaj gözlənilir".

**Ümid Partiyasının sədri, deputat İqbal Ağazadənin fikrincə, Xəzərdə 25 mil məsafədən sonra Xəzər sularının statusunun saxlanılması bugünkü statusa uyğun deyil və Azərbaycanın mənafeyinə ziddir:** "Azərbaycan hökuməti də çox güman ki, bu məsələ ilə bağlı 20 illik siyasətinin birdən-birə dəyişməsinin səbəblərini ortaya qoymalıdır. Yəni 20 il aparılan danışıqlarda Azərbaycan öz mövqeyindən bir addım da geri çəkilməyib. Məhz bugünkü mövqeyə gəlinməsi yəqin ki, Rusiyanın təhdidləri və Azərbaycan üzərinə gəlməsi ilə bağlıdır. Amma güman etmirəm ki, bu bəyanat müqavilələr şəklinə keçəcək və Milli Məclisdə ratifikasiya olunacaq. Ümid edək ki, bu proses uzanacaq və baş verməyəcək. Amma bu, Azərbaycanın mənafeyinə qəti şəkildə zidd mövqedir, heç bir halda bunu bölüşmürəm".

**İ.Ağazadə Xəzərlə bağlı yumşalmanın Qarabağla əlaqəli olduğunu düşünmür:** "Mən güman etmirəm ki, Rusiya Cənubi Qafqazda əlində ən böyük imkan kimi saxladığı Qarabağdan belə vaz keçə bilər. Qarabağ onun üçün həyati vacib məsələdir. Çünki bu məsələ Azərbaycanın xeyrinə həll olunan artıq Ermənistan Rusiyanın yanında olmayacaq və Azərbaycanda da hansı hakimiyyət olur-olsun, Rusiyanın yanında olmayacaq. Odur ki, Rusiya bu kartı əlindən verməz".

**XİN-in mətbuat katibi Hikmət Hacıyev bildirdi ki, Azərbaycanın ərazi məsələsində mövqeyi qətidir:** "Azərbaycanın ərazi bütövlüyü məsələsi heç zaman sövdələşmə predmeti ola bilməz. Bu, Azərbaycan Respublikasının Konstitusiyasında da təsbit olunub. Xəzərə gəldikdə, burada mövqelər artıq aydındır. Tədbirdən sonra nazir müavini Xələf Xələfov da məsələyə tam aydınlıq gətirdi. Xəzərin yekun statusunun müəyyən olunması ilə əlaqədar danışıqlar prosesi davam edir, müəyyən ilkin pozitiv məqamlar var. Amma statusla bağlı konvensiyanın üzərində iş davam edir, yekun qərarın qəbul etdirilməsi üçün də səylər davam etdirilir".

**XİN rəsmisi Xəzərlə Qarabağ arasında əlaqələndirmənin aparılmasını düzgün saymır:** "Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqlar ATƏT-in Minsk Qrupu çərçivəsində, onların vasitəçiliyi ilə gedir, Xəzərlə bağlı isə işçi qrupu fəaliyyət göstərir, hətta prezidentlər səviyyəsində sammit keçirilir. Ümumiyyətlə, Azərbaycanın ərazi bütövlüyü konstitusiyamızda təsbit olunub, bu, ölkəmizin siyasətidir. Ərazi bütövlüyümüz hər hansı bir sövdələşmə obyekti deyil, ola da bilməz".

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

**Xəbər verildiyi kimi, Demokratik Qüvvələrin Milli Şurası oktyabrın 12-si saat 15:00-da Yasamal rayonu ərazisində yerləşən "Məhsul" stadionunda mitinq keçirməyi planlaşdırır. Aksiyaya yer ayrılması ilə bağlı BŞİH-ə müraciət ünvanlanıb.**
**Etiraz aksiyasının əsas tələbləri repressiyaların dayandırılması və siyasi məhbusların azad edilməsi olacaq.**



# Meriya Milli Şuranın mitinq müraciətinə hələ də cavab verməyib

## Müsavatdan aksiyaya dəstək gəldi; ADP sədri isə...

**Milli Şuranın mətbuat xidmətinin rəhbəri Oqtay Gülalıyev** BŞİH-ə ünvanladıqları müraciətə hələ də cavab verilmədiyini qeyd etdi: "Keçirəcəyimiz mitinqə yer ayrılması ilə bağlı artıq aidiyyəti orqan olan BŞİH-ə müraciətimizi etmişik. Amma hələ cavab verilməyib. Ola bilsin ki, bayram günləri ilə əlaqədar cavab gecikdirilir. Hesab edirik ki, aksiyaya razılıq verilməlidir".

Qeyd edək ki, Milli Şura ilə eyni gün, saat və məkanda Müasir Müsavat Partiyasının sədri Hafiz Hacıyev də mitinq təyin edib. Partiya bu barədə BŞİH-ə müraciətdə ünvanlayıb.

**Oqtay Gülalıyev yaranan situasiya ilə bağlı da suallarımızı cavablandırdı:** "Bu, Milli Şuranın nəzərdə tutduğu mitinqi əngəlləmək, mane olmaq üçün atılmış növbəti təxribat planlarından biridir".

Milli Şuranın keçirəcəyi mitinqə siyasi partiyaların dəstək verib-verməyəcəyi sual altındadır.

**Müsavat funksioneri Mustafa Hacıbəyli siyasi məhbuslara azadlıq tələb olunan istənilən aksiyada iştirak etməyə hazır olduqlarını bəyan etdi:** "Müsavat olaraq, bu mitinqdə iştirak etməyə qətiyyətli idik. Şəxsən özüm Milli Şura tərəfindən Müsavata müraciət olub-olmayacağını gözləyirəm. Ümid edirəm ki, Milli Şura bu aksiyanın daha sanballı, kütləvi keçməsi üçün tədbirlər görəcək. Özüm də bu məsələdə Milli Şuraya dəstək verməyə hazıram. Partiyamızın 5 üzvü həbsdədir. Arzulayardım ki, mitinqin təşəbbüskarları əvvəlcədən aksiyanın günü, vaxtı ilə bağlı Müsavatla məsləhətləşərdilər. Təki aksiya uğurlu olsun. İnanıram ki, Milli Şura Müsavata müraciət etməsə belə, müsavatçılar aksiyada iştirak edəcəklər. Şəxsən özüm aksiyaya Tofiq Yaqublunun portreti ilə çıxmaq niyyətindəyəm ".

**Ümid Partiyasının sədri İqbal Ağazadə mitinqlə bağlı Milli Şuranın onlara müraciət etmədiyini bildirdi:** "Müraciət olmadığına görə aksiyada üzvlərimizin fərdi iştirakı belə olmayacaq".

**ADP sədri Sərdar Cəlaloğlu hazırkı vəziyyətdə mitinq keçirməyin doğru olmadığını qeyd etdi:** "Partiyamız və təmsil olunduğumuz İnsan Hüquqları Mərkəzi belə hesab edir ki, hazırda mitinq keçirilməsi aktual deyil. Çünki baş verən hadisələr ölkəmizdə sabitliyin olmasını tələb edir. Milli Şura yarandığı zamanlar Rusiya ilə olan əlaqələrini nəzərə almaq lazımdır. Ola bilsin ki, indiki vəziyyətdə aksiya keçirmək o qüvvələrin maraqlarına xidmət edə bilər. Hesab edirik ki, dövlətçiliyimizi qorumaq lazımdır. Bununla belə, "Siyasi partiyalar haqqında" Qanunda göstərilib ki, partiya öz üzvlərinin hüquqlarını məhdudlaşdıra bilməz. Bu baxımdan üzvlərimizin aksiyada iştirakına mane ola bilmərik".

**Siyasi partiyalardan AMİP artıq mitinqdə iştirakla bağlı qərar verib. Bu barədə qurumun baş katibi A.Əlizadə modern.az-a açıqlamasında məlumat verib:** "Partiya üzvlərinə mitinqdə iştirakla bağlı heç bir qadağa qoyulmayıb. Növbəti mitinq də ölkədə qiymət artımı ilə əlaqədardır. AMİP-in üzvləri də həmin mitinqdə iştirak edə bilərlər".

❑ **Cavanşir ABBASLI**




# İslam Partiyası da etiraz aksiyalarına hazırlaşır

**Azərbaycan İslam Partiyası İdarə Heyətinin toplantısı keçirilib. Yığıncaqda partiya lideri Mövsüm Səmədovun 12 saylı cəzaçəkmə müəssisəsindən Qobustandakı qapalı həbsxanaya köçürülməsi ilə bağlı oktyabrın 9-da başlayacaq məhkəmə prosesi müzakirə olunub.**

Partiyadan "mediaforum" saytına verilən məlumata görə, iclasda xatırladılıb ki, Mövsüm Səmədov sentyabrın 18-də cəza çəkdiyi 11 saylı müəssisədən 12 saylı müəssisəyə köçürülüb və ona cərimə rejimi təyin edilib. Toplantı iştirakçılarının fikrincə, Mövsüm Səmədov nizam-intizamı pozmayıb və ona qarşı təzyiqlərin səbəbi əqidəsindən dönməməsi, istər ictimai həyatda, istər də həbsxanalarda qanunsuzluqlarla barışmamasıdır.

İdarə Heyətinin iclasında bəyanat qəbul olunub. Bəyanatda Mövsüm Səmədova və digər məhbus islamçılara neqativ münasibətin aradan qaldırılması tələbi yer alır. İslamçılar haqsızlığa susmayacaqlarını vurğulayır və kütləvi etiraz aksiyalarına hazırlıq işlərinə başlamaq qərarı qəbul etdiklərini bildirirlər.

Mövsüm Səmədov 1965-ci ildə Quba şəhərində anadan olub. Azərbaycan Tibb Universitetini və İran İslam Respublikasının Qum şəhərindəki Ali İslam Universitetini bitirib. Siyasətə 1993-cü ildə qoşulub. Azərbaycan İslam Partiyasının Quba komitəsinin sədri olub. 2007-ci ildə partiya sədri seçilib.

Mövsüm Səmədov 2011-ci ilin yanvarından həbsdədir. O, hakimiyyəti zorla ələ keçirmə cəhdi və başqa ağır cinayətlərdə təqsirli bilinərək 12 il müddətinə azadlıqdan məhrum olunub.

Partiya lideri sentyabrın 18-də 11 saylı cəzaçəkmə müəssisəsindən 12 saylı müəssisəyə köçürülüb. Həmin gün ona 5, daha sonra 7 sutkalıq karser cəzası verilib.

# Ermənilər kütləvi qətl törətdilər, Minvod qarışdı

## "Yevgeniya" restoranında başlayan əlbəyaxa dava 31 yaşlı rusun həyatına son qoydu

**Minvod xəstəxanasında ermənilərin milliyyətcə rus olan 31 yaşlı Anatoli Larionovu öldürməsi xəstəxananın baş həkimindən sonra şəhərin baş milis idarəsinin rəisinin istefasına səbəb olub. Yada salaq ki, sentyabrın 21-də şəhərdə yaşayan ermənilər xəstəxanada A.Larionova kütləvi şəkildə hücum edərək, onu ölümcül döyüb, bir nəfəri ağır yaralayıblar.**

"İnterfaks" yazır ki, xuliqanlıq, qəsdən adamöldürmə maddələri ilə qaldırılan cinayət işi üzrə 35 nəfər saxlanılıb. Saxlananlardan çoxu ermənilərdir. Fakt üzrə daxili işlər orqanları xüsusi qərargah yaradıb. Digər şübhəlilərin axtarışı davam etdirilir.

Olay baş verən gündən şəhərdə qarşıdurmalar, iğtişaşlar bitmək bilmir. Bir neçə dəfə küçə yürüşü keçirən rus əhali hökuməti ermənilərin özbaşınalıqlarının qarşısını almaq üçün sərt tədbirlər görməyə çağırıb. Milis vətəndaşların etiraz aksiyasını zorakılıqla yatırıb, xəsarət alanlar var.

Kütləvi davanın videogörüntüsünü ilk olaraq blogger Oksana Velva öz səhifəsində yayıb. Görüntülərdə 40 nəfərin eyni anda xəstəxanaya gəldiyi və Anatoli Larionovun başına şüşə butulka ilə zərbə vurduqdan sonra onu təpikləməyə başladığı aydın görünür.

Vilayət milisinin apardığı araşdırmalar isə ortaya çıxarıb ki, olayın təşkilatçısı Andronik Sakanyandır. Artıq onun haqqında 2 aylıq həbs-qətimkan tədbiri seçilib. Samvel Manuçaryan da qətlin əsas iştirakçılarından sayılır. Minvod məhkəməsinin qərarı ilə S.Manuçaryana da 2 aylıq həbs cəzası kəsilib.

Minvodlular üçün ən gözlənilməzi isə kazak alayının yerli rəhbəri ataman Yevgeni Smirnovun həbsidir. İlkin istintaq materiallarında onun adı olayın əsas iştirakçıları arasında çəkilir.

Maraqlıdır ki, Yevgeni Smirnov 31 yaşlı Larionovun öldürülməsi ilə bağlı keçirilən ilk etiraz aksiyasında çıxış edərək olayı pisləyib. İstintaq materiallarında yazılıb ki, özünü qeyri-rəsmi olaraq şəhərdə rusların keşikçisi elan edən kazak lider şəhərdə iğtişaş yaradaraq, nəzarətində olan qanunsuz silahlı dəstələrin yardımı ilə çeşidli qruplar arasında yaranan mübahisələri çözürmüş...

**Olay "Yevgeniya" kafesində başlayıb. Obyektin adının çəkilməsini istəməyən sahibi bildirib ki, Cakanyan, Smirnov və daha bir neçə nəfərin əyləşdiyi masaya bir nəfər *(böyük ehtimalla Larionov)* yaxınlaşıb və birlikdə içməyi təklif edib:** "Həmin masada ciddi söhbət gedirdi. Hansısa torpaq məsələsi müzakirə edilirdi. Masadakılar həmin şəxsdən uzaqlaşmasını istədilər. Bu isə onun xoşuna gəlmədi və dedi ki, siz məni saymırsız, hörmət etmirsiz. Söz çəkişməsindən sonra əlbəyaxa dava başlandı. Masadakılar onun başına butulka ilə bir neçə zərbə endirdilər. Sonra kimsə yaralını xəstəxanaya apardı. Bu arada Sakanyan telefonla dostlarına zəng edib, onlardan xəstəxanaya gəlmələrini istədi. Sonra özləri də kafedən getdi".

Sakanyanın dəvət etdiyi şəxslər Larionovu xəstəxananın girişində "qarşılayıb" ölənə qədər döyüblər. Həkimlərin verdiyi ölüm aktında yazılıb ki, Larionovun kəllə sümüyü iki yerdən qırılıb, daxili orqanları zədələnib və daxili qanaxma baş verib.

Larionovun dəfni izdihamlı keçib. Milisin gücləndirilmiş mühafizəsi altında davam edən mərasimə ruslar, noqaylar, azərbaycanlılar, ermənilər, qaraçılar gəlib.

**Mərhumun atası Vladimir Larionov deyib ki, oğlu heç zaman milli qarşıdurmaların iştirakçısı olmayıb:** "Hüquq-mühafizə orqanlarından oğlumun qatillərinin tapılaraq cəzalandırılmasını tələb edirəm. Anatolinin adından istifadə edərək milli münaqişə yaradılmamasını Minvod sakinlərindən xahiş edirəm. Önəmli olan caninin tapılmasıdır. Caninin isə milliyyəti olmur".

Minvod milisi olay baş verən gündən gücləndirilmiş iş rejiminə keçib. Şəhərdə hər gün qarşıdurmalar, küçə yürüşləri, etiraz aksiyaları keçirilir. Öldürülən şəxsin yaxınları ilə bərabər həbs edilənlərin yaxınları və tərəfdarları da küçələrə çıxır. Hakmiyyət binalarının mühafizəsi də gücləndirilib. Şəhərə OMON-çuların əlavə qüvvəsi gətirilib.



### Kazak atamanı ermənilərlə əlbir olmaqda şübhəli bilinərək, həbs edildi

**Mineralnıye Vodı rayonu yerli hakimiyyət orqanının rəhbəri Konstantin Qomayunov "İnterfaks"a açıqlamasında deyib ki, bir sıra qüvvələr olayları milli zəmində qarşıdurmaya çevirmək üçün təxribatlar hazırlayırlar:** "Ancaq bu, milli zəmində baş verən qarşıdurma deyil. Kütləvi davada 5 millətin təmsilçiləri olub".

Şəhər sakinlərini ən çox narahat edən məqam xəstəxanaların, məktəblərin mühafizəsinin zəif təşkılidir. "İnterfaks"a müsahibə verən minvodlular deyiblər ki, bu, şəhər xəstəxanasına ilk hücum deyil. Kriminal avtoritetlərin təşkilatçılığı ilə xəstəxanaya dəfələrlə basqın olub, hətta müalicədə olan xəstələr oğurlanıb.

Sakinlər şəhərin son zamanlar daha da kriminallaşmasına hökumət qurumlarının yarıtmaz fəaliyyətinin səbəb olduğu düşüncəsindədir.

Ərazinin aid olduğu Stavropol vilayətinin erməni icması oktyabrın 5-də olayla bağlı bəyanat yayıb. Bəyanatda "kimlərinsə məişət zəminində baş verən kriminalı millətlərarası münaqişə kimi təqdim etmək cəhdi" pislənir.

Rusiya Erməniləri Birliyi də bu olaya səssiz qalmayıb. Qurum hüquq-mühafizə orqanlarını Şimali Qafqazda kriminogen duruma nəzarət etməyə, provokasiyaların qarşısını almağa çağırıb.

Bir sıra qaynaqlar xəbər verir ki, bazar günü Minvodun baş meydanında böyük mitinqin keçirilməsinə hazırlıqlar gedir.

❑ **Aygün MURADXANLI**

YENİ MÜSAVAT
N 248 (5957) 8 oktyabr 2014



# Bakı-Tiflis-Qars dəmir yolu xilas kəməri olacaqmı?

Azər RƏŞİDOĞLU

**Bu ildən başlayaraq, NATO qoşunlarının Əfqanıstandan tamamilə çıxarılması prosesi başlayıb. Bu proses ilk baxışdan sadə görünsə də, son dərəcə çətin mexanizmə malikdir. Ən azı ona görə ki, söhbət on minlərlə əsgərin, minlərlə ağır zirehli texnikanın və digər hərbi ləvazimatların daşınmasından gedir. Nəzərdə tutulur ki, hərbiçilərin önəmli hissəsi Bakı-Tiflis-Qars dəmir yolu vasitəsilə daşınacaq.**

Xatırladaq ki, Əfqanıstandan çıxarılacaq NATO qoşunlarının Bakı-Tiflis-Qars dəmir yolundan istifadəsi təklifini dekabrın 5-də NATO xarici işlər nazirlərinin Brüssel toplantısında Azərbaycan xarici işlər naziri Elmar Məmmədyarov vermişdi.

Hazırda Əfqanıstana daşınan hərbi yüklərin 35 faizi Azərbaycan üzərindən keçir. Rəsmi Bakı bu təklifi irəli sürməklə həm də yaxşı qazanc götürməyə çalışır. Çünki NATO qoşunlarının Əfqanıstandan çıxarılması prosesində həmin marşrutla yükdaşımanın həcmi kəskin arta, nəticədə Azərbaycan bu yolun tikintisinə qoyduğu investisiyanın ən azı bir neçə yüz milyon dollarını geri qaytara bilər.

Moskva hələ ki bu məsələyə açıq şəkildə öz mövqeyini bildirməyib.

Qeyd edək ki, Azərbaycan hazırda "Əfqanıstan marşrutu" üzrə əsas müstəvilərdən biridir. Əfqanıstana gedən və ya qayıdan minlərlə NATO əsgəri Azərbaycan üzərindən daşınması Bakının önəmini artırır.

Bakı-Tiflis-Qars dəmir yolunun istifadəyə verilməsi nəticəsində Asiyadan Avropaya Azərbaycan üzərindən mühüm quru dəhlizi açılacaq. Bu da Azərbaycanın regiondakı mövqelərini gücləndirə bilər. Belə görünür ki, rəsmi Bakı yeni dəhlizin geosiyasi əhəmiyyətini Qərb qarşısında qabartmağa çalışır. Əgər bu dəhlizdən hərbi yüklərin daşınması üçün istifadə məsələsi reallaşarsa, o zaman Qərbdən Azərbaycan hakimiyyətinə qarşı siyasi təzyiqləri də neytrallaşdırmaq üçün imkan yarana bilər.

Ukrayna böhranından sonra NATO qoşunlarının Rusiya marşrutu ilə çıxarılması mümkün deyil.

Alternativ yollar Yaxın Şərq və Azərbaycandır. Yaxın Şərq savaş içindədir və odur ki, hazırkı şəraitdə o qədər də uyğun marşrut hesab edilmir. Buna görə də Əfqanıstandan çıxarılan qoşunların Azərbaycan vasitəsilə daşınacağı daha real görünür. Bu bir daha Azərbaycanın regionda geosiyasi əhəmiyyətini göstərir.

Unutmaq olmaz ki, Azərbaycan təkcə geosiyasi əhəmiyyətə malik deyil, həm də təhlükəsizlik məsələsində, Qərb dünyasının müəyyən mənada gələcəyində əsas rol oynayır. Bütün bunlar Azərbaycanın əhəmiyyətini daha da artırır.

Sözügedən layihənin reallaşması Qərbə inteqrasiya xəttinin güclənməsinə səbəb ola bilər. Ukraynada baş verən proseslər postsovet ölkələri üçün təhlükəsizlik siqnalıdır. Bakı-Tiflis-Qars dəmir yolu xətti ilə NATO qoşunlarının daşınması isə Azərbaycanın Qərb üçün önəmini artıra bilər.

İlkin hesablamalara əsasən, bu il və gələn il boyunca hər ay 2 min 200 konteynerin Əfqanıstandan çıxarılması lazım olacaq. İlkin məlumatlara görə, təxminən 500 konteyner Orta Asiya vasitəsilə göndəriləcək. Onlardan 400-nün dəmir yolu ilə Özbəkistan, Qazaxıstan və Rusiya vasitəsilə daşınması planlaşdırılır. Qalan 100-nün isə Tacikistan, Qırğızıstan və Şimali Qafqaz ərazisindən avtomobil nəqliyyatı vasitəsilə daşınması nəzərdə tutulur.

Beləliklə, Azərbaycan geosiyasi baxımdan önəmli fiqura çevrilir. Nisbətən uzaq planda ABŞ-ın Azərbaycanda hərbi bazalara sahib olmasını zəruri edən planlar da mövcuddur. ABŞ üçün əsas maraq enerji daşıyıcılarına sahib çıxmaq, İran və Əfqanıstana nəzarəti ələ keçirməkdir. Lakin Bakı Moskvanın təhdidləri ilə üzləşməkdədir. Əgər Azərbaycan hakimiyyəti Kremlin şərtlərini qəbul edərsə, ABŞ-ın Əfqanıstandan çıxaracağı qoşunlarla bağlı planları alt-üst ola bilər. Bu isə Vaşinqtonun ciddi təzyiqlərinin başlanması deməkdir.

Hesablamalar onu deməyə əsas verir ki, yaxın zamanlar Azərbaycan diplomatiyası bir çox sınaqlarla üz-üzə qala bilər. Bakı-Tiflis-Qars dəmir yolu isə beynəlxalq təşkilatların sanksiyasından qurtulmaq yolunda Azərbaycan hakimiyyəti üçün bir xilas kəmərinə çevrilə bilər...

---

**İŞİD silahlılarının Suriyanın Türkiyə ilə sərhəddə yerləşən Kobani (Aynul Ərəb) şəhərinə hücumu davam edir. Oktyabrın 7-nə keçən gecə kürd PYD qruplaşması İŞİD güclərini şəhərin mərkəzində geri oturtsalar da, hazırda Kobaninin bir sıra ətraf bölgələri və 3 rayonu İŞİD-in nəzarətindədir. Artıq İŞİD Kobaninin şərq hissəsində yerləşən Kani Ərəb məhəlləsinə bayrağını asıb. BBC-nin məlumatına görə, hazırda Kobaninin şərq, qərb və cənub ərazilərində döyüşlər gedir. Beynəlxalq koalisiyaya aid hərbi təyyarələr Kobaniyə hücum edən İŞİD mövqelərini bombalamaqda davam edir.**



# Ankara üçün İŞİD imtahanı

## Türkiyə sərhədləri yaxınlığında döyüşlər davam edir, Ankara İŞİD-lə müharibə üçün şərt qoyur

İlk dəfə koalisiya qüvvələri gündüz vaxtı bombardmanlar həyata keçiriblər, qəsəbə üzərində uçuşlar davam edir. Kobaniyə hücum şəhərdən çoxlu sayda insanların qaçmasına səbəb olub. Son olaraq 2 min şəhər sakininin Türkiyəyə qaçdığı bildirilir, ancaq eyni zamanda İŞİD-in ələ keçirdiyi bölgələrdə xeyli sayda dinc sakinin qalması növbəti qətliamın baş verəcəyi ilə bağlı narahatlıq yaradıb. Belə ki, hazırda Kobanidə 3-4 min yerli sakinin olduğu bildirilir.

PYD rəsmiləri mətbuata açıqlama verərək Türkiyəni prosesə müdaxilə edərək hərbi qüvvə göndərməyə çağırıblar. Əks halda, şəhərdə böyük qətliamın ola biləcəyi haqda xəbərdarlıq ediblər.

Artıq neçə gündür ki, Türkiyədə və Avropada kürdlər davamlı aksiyalar keçirərək Kobaniyə müdaxilə tələb edirlər. Oktyabrın 7-də Türkiyənin Xalqların Demokratik Partiyası (HDP) vətəndaşlara müraciət edərək Kobaniyə dəstək üçün küçələrə çıxmağa çağırıb. Müraciətdə "Kobanidə durumun son dərəcə kritik olduğu" bildirilir və bu səbəbdən AKP hakimiyyətinin Kobaniyə embarqo tətbiq etməsinə etiraz olaraq insanları küçələrə çıxıb etiraz etməyə çağırırlar. Kürdlər Türkiyə ordusunun təcili olaraq hərəkətə keçib İŞİD-ə qarşı savaşmasını tələb etsə də, Ankara hələlik təmkinli davranır.

Türkiyənin baş naziri Əhməd Davudoğlu bəyan edib ki, ölkəsi bu əməliyyatlara yalnız bir halda qatıla bilər. CNN-ə müsahibəsində Davudoğlu Türkiyənin əsas şərtinin Suriyada uçuşa yasaq bölgə elan edilməsini və Əsəd rejiminə qarşı hərbi əməliyyatlara razılıq verilərsə İŞİD-ə qarşı hərbi əməliyyatlara başlaya biləcəklərini deyib. Baş nazirin sözlərinə görə, Suriyada zorakılığın artmasına və terrorçuların fəallaşmasına səbəb ölkə prezidenti Bəşər Əsədin başçılıq etdiyi rejimdir.

Ancaq Türkiyə hökuməti başçısının bu şərtinə ABŞ-dan cavab özünü çox gözlətməyib. ABŞ Dövlət Departamentinin sözçüsü Jen Psaki gündəlik brifinqdə bildirib ki, ölkəsinin mövqeyi dəyişməyib. J.Psaki bildirib ki, hazırda Amerikanın əsas hədəfi İŞİD-dir. Eyni zamanda o, deyib ki, Vaşinqton Suriya müxalifətini dəstəkləməkdə davam edəcək.

İraq hökuməti isə bəyan edib ki, Türkiyənin İŞİD-lə mübarizə adı altında İraq ərazilərinə ordu yeritməsinə qarşıdır. "Əl-Cəzirə" telekanalının məlumatına görə, belə bir mövqeyi **İraqın yeni baş naziri Heydər əl-İbadi** səsləndirib. Baş nazir bildirib ki, İraq ordusu və qəhrəman İraq xalqı İŞİD-ə qarşı savaşır, hazırda döyüş cəbhəsində üstünlüyü ələ alıblar. Eyni zamanda əl-İbadi əlavə edib ki, beynəlxalq koalisiyanın İraq ərazisindəki İŞİD mövqelərini bombalamasını dəstəkləsələr də, İraq ərazisinə ordu yeridilməsinə qarşıdırlar. Baş nazir bu barədə mövqelərini bir sıra ölkələrin rəhbərlərinə bildirdiklərini deyib.

Qeyd edək ki, İraqda ordu ilə yanaşı yenə könüllü hərbi birləşmələrin təsis olunması prosesi başlayıb. Amerika işğalı zamanı mövcud olmuş, ancaq sonradan fəaliyyətini dayandırmış bir sıra hərbi qruplaşmalar yenidən fəallaşıblar. Bayram günləri isə Kərbəla şəhərində könüllülərdən ibarət yeni "İmam Hüseyn" briqadası yaradılıb.

İran parlamentinin milli təhlükəsizlik və xarici siyasət komitəsinin sədri Həqiqət Bor Türkiyə parlamentinin orduya ölkə xaricində əməliyyat keçirmək hüququ verən qanun layihəsini qəbul etməsini "strateji xəta" adlandırıb. İranlı parlamentarinin sözlərinə görə, Ankaranın İraq və Suriya ərazisində hərbi əməliyyat keçirməsi onun özünə siyasi və iqtisadi zərbələrə səbəb olacaq.

İŞİD-in Türkiyə sərhədlərinə yaxınlaşması isə Ankarada narahatlığı artırıb. Kobanidə gedən döyüşlər zamanı bir neçə mərminin Türkiyə ərazisinə düşməsi və bir neçə nəfərin yaralanması xəbərindən sonra bu dəfə Türkiyədə terror törədilməsi təhlükəsi yaranıb. Hesab olunur ki, Türkiyənin İŞİD-ə qarşı hərbi əməliyyatlara qoşulmaq barədə qərar verməsi ilə bağlı olaraq terror qrupu qisas aksiyalarına başlayacaq və Türkiyənin sərhəd kənd və qəsəbələri üçün təhlükə yaradacaq. Bununla əlaqədar NATO-nun baş katibi Cens Stoltenberq bildirib ki, əgər belə bir təhlükə ciddiləşərsə, NATO öz nizamnaməsinin 5-ci maddəsinə uyğun olaraq vəziyyətə müdaxilə edəcək.

Yeri gəlmişkən, ötən gün Türkiyə mediasında İŞİD-in ölkədə terror hazırlaması ilə bağlı məlumatlar yayılıb. Ancaq Türkiyənin hələlik İŞİD-ə qarşı hərbi əməliyyatlar həyata keçirmədiyini nəzərə alsaq, terror təhdinin real olmadığını düşünmək olar. Çünki məlum olduğu kimi, hazırda Türkiyə hökuməti İŞİD-lə savaşa qatılmaq istəmir. Bunu baş nazir Davudoğlu da açıq şəkildə bəyan edib. Belə bir durumda İŞİD-in Türkiyədə terror törədib daha bir güclü düşmən qazanması inandırıcı görünmür. Ancaq perspektiv üçün bu təhlükə qalır və mütəxəssislərin hesablamalarına görə, İŞİD-ə qarşı mübarizə uzun illər davam edə bilər. Məsələn, hazırda İŞİD mövqeləri koalisiya qüvvələri tərəfindən bombalansa da, bir sıra müşahidəçilər bu bombardmanların təsirinin az olduğunu qeyd edir. Amerikanın "Wall Street Journal" qəzetinə danışan İŞİD komandanlarından biri bildirib ki, ABŞ hərbi hava qüvvələri daha çox İŞİD-in boşaldılmış düşərgələrini vurur. İŞİD-çi bildirib ki, Suriya hökumət qüvvələrinin bombardmanı daha böyük təsirə malik olur.

ABŞ-ın sabiq müdafiə naziri Leonel Panneta isə "USA Today" qəzetinə müsahibəsində bildirib ki, İŞİD-ə qarşı müharibə 30 il davam edə bilər. Panetta bunun əsas günahının ABŞ hökumətində olduğunu deyib. Müsahibəsində keçmiş müdafiə naziri deyib ki, Obamanın 2011-ci ildə ABŞ ordusunu İraqdan çıxarma qərarı ölkədə təhlükəsizlik "vakuumu" yaradıb. L.Panetta deyib ki, Obama 2012-ci ildə Hillari Klinton və kəşfiyyat xidməti rəisinin Suriya müxalifətini dəstəkləməklə bağlı tövsiyələrini nəzərə almayıb.

❑ KƏNAN

---

# İŞİD Orta Asiyada

## Özbəkistan İslam Hərəkatı İŞİD-ə qoşulduğunu bəyan edib, rəsmi Daşkənd hərəkətə keçib, təhlükəsizlik tədbirləri gücləndirilib

**Özbəkistan İslam Hərəkatı adlı qruplaşma İŞİD-ə qoşulduğunu bəyan edib. "Ria Novosti" agentliyinin Özbəkistan təhlükəsizlik xidməti nümayəndəsinə istinadən verdiyi məlumata görə, bu təşkilatın lideri Uzman Qozi bəyan edib.**

Kəşfiyyat xidmətindəki mənbə agentliyə bildirib ki, Özbəkistan İslam Hərəkatı adlı qruplaşma İŞİD-ə qoşularaq birgə əməliyyatlar keçirdiyinə dair əllərində səs yazısı və videogörüntülər var. Eyni zamanda bildirib ki, hazırda qruplaşma Əfqanıstanın Pakistanla sərhədində Pamir dağı ətəklərində ciddi fəaliyyət göstərərək yeni döyüşçülər cəlb edir və onlara burda təlim keçir.

O da bəlli olub ki, artıq Özbəkistan təhlükəsizlik orqanları, terrorla mübarizə idarələri İŞİD-in müttəfiqi olan təşkilatla bağlı təhlükəsizlik tədbirlərini artırıb. Qeyd edək ki, Özbəkistan İslam Hərəkatı adlı qruplaşma "əl-Qaidə" və Talibana bağlı təşkilat hesab olunur və ABŞ, Rusiya kimi ölkələr tərəfindən terror təşkilatı kimi tanınır. Özbəkistanda bu qruplaşmanın bir çox üzvləri həbs olunub.

❑ KƏNAN

YENİ MÜSAVAT
N 248 (5957) 8 oktyabr 2014

# Partiya sədri "nadzor" ittihamına cavab verdi

## Vaqif Hacıbəyli: "Budurmu sizin yeni təfəkkürünüz, yeni nəfəsiniz, yeni simanız?"

**Müsavat başqanlığına sabiq namizəd Qubad İbadoğlunun oktyabrın 6-da öz tərəfdarları ilə görüşündə Müsavatın sabiq Divan üzvü Vurğun Əyyub bir sıra müsavatçıları tərbiyəsiz adlandırmaqla yanaşı, Əhrar Partiyasının sədri Vaqif Hacıbəylini də kəskin tənqid edib.**

V.Əyyub Vaqif Hacıbəylini Müsavatın işlərinə qarışmaqda günahlandırıb və "nadzor" adlandırıb: "Əhrar Partiyasının sədri Müsavatda "nadzor" olmaq niyyətindədir".

Hazırda xaricdə müalicədə olan Vaqif Hacıbəyli isə özünün facebook səhifəsində Vurğun Əyyuba cavab yazıb. V.Hacıbəyli bildirib ki, bir neçə gün əvvəl onu tərbiyəsiz adlandıran "tərbiyəli" indi də "nadzor" adlandırıb: "Mənə ünvanlanan bu epitetlərin səbəbi aşağıdakı statusumdur: Tural bəy özünü yetkin siyasətçi və əsl müsavatçı kimi aparır, ondan daha təcrübəli, ziyalı, guya həmişə təmkinli olduğu deyilən və seçkilərdə də şəxsən mənim gözlədiyimdən də daha uğurlu nəticə qazanan digər namizəd isə yenə mənim gözləmədiyim halda məyusedici açıqlamalar verməkdə davam edir və bu halda açıq-aşkar faktları təhrif edir. Mən bütövlükdə Müsavat rəhbərliyinə qarşı mübarizədə uduzmuşam nə deməkdir? Vurğun Əyyub, Mehman Cavadoğlu, hətta Hikmət Hacızadə kimi məşhur Divan üzvləri səninlə bərabər görüşlərə getməyiblərmi? Onlar Müsavat rəhbərliyi deyilmi? İsa Qəmbərin guya gizlində kiməsə dəstək verməsi də absurddur, axı? İsa bəyin doğma qardaşı, ağsaqqal əmisi, başda dostum Vəzir olmaqla, mühafizəçiləri, Müsavatdakı qohumu Fəxrəddin Bağırov açıq şəkildə sənə dəstək veribsə, onda İsa bəy əl altından sənin əleyhinə nə iş görüb? Digər tərəfdən, İsa bəyin səs hüququnu kim əlindən alıb ki? O, müsavatçı deyil, bəyəm? Budurmu sizin yeni təfəkkürünüz, yeni nəfəsiniz, yeni simanız? Kənardan heç də yaxşı görünmür vallah". Bu statusa Qubad İbadoğlunun cavabı isə "onun danışmağa mənəvi və siyasi haqqı yoxdur" olmuşdu. Mən bu ittihamlara cavab olaraq heç kəsi təhqir etmədən mənəvi haqqımın onlardan az olmadığını və "Müsavatdakı xoşagəlməz proseslərin arxasında cəmiyyətdə müsbət imicə malik Vurğun Əyyubun olduğunu bildirəndə o, mənə küçə adamı səviyyəsində cavab verib. Mən də bu açıqlamaya cavab olaraq bildirmişəm ki, sizin açıqlamalarınız hansı səviyyənin və hansı mənəviyyatın sahibi olduğunuzu bariz nümayiş etdirir. Vəssalam. Nə yazılıbsa, hamısı səhifəmdə var, saytlar da paylaşıb. İndi bu olayda kim özünü YAP-çı kimi aparıb hər kəs özü üçün qiymətləndirsin".



Vaqif Hacıbəyli

Vurğun Əyyubun səsləndirdiyi fikirlərə Arif Hacılının qardaşı, partiyanın Məclis üzvü Mustafa Hacıbəyli sərt reaksiya verib.

**Mustafa Hacıbəyli aktual.az-a açıqlamasında deyib ki, Müsavatda olan bəzi adamların qardaşları Yeni Azərbaycan Partiyasının xidmətçiləridir:** "Qaldı Vaqif bəyə, o, proseslərə, ümumiyyətlə, müdaxilə etməyib. Amma seçki bitdikdən sonra da bəzi adamlar Arif Hacılıya o qədər qəzəblidirlər ki, ona olan qəzəblərini hətta partiyaya aidiyyəti olmayan yaxınlarından çıxmağa çalışırlar".

**O həmçinin deyib ki, ən çətin və həlledici məqamlarda Hacıbəyli qardaşları döyüşəndə Vurğun Əyyub ortada olmayıb:** "Demokratiya uğrunda mübarizə gedəndə, biz yenə öndə olmuşuq. Bu mübarizə qəzet səhifələrinə keçəndə biz əlimizdə qələmimizlə vuruşuruq, bu mübarizə meydanlarda aparılanda biz mitinqlərdə öndə oluruq. Bu mübarizə hansısa partiyalarda seçkilər olanda biz yenə öndə oluruq. Vurğun Əyyub kimi insanlar isə həmişə kölgədədirlər. Biz müxalifət mübarizəsinin həmişə cəfasını görmüşük, Vurğun Əyyub isə səfasını görüb. Şəxsən mən 20 ildən çoxdur hərəkatdayam - nə milli hökumət dövründə vəzifə tutmuşam, nə də sonrakı dönəmdə Müsavatda. Vurğun Əyyub isə hər iki dönəmdə yüksək vəzifələrə sahib olub. Müsavatda həmişə ən geniş kabinetlərdən biri ona məxsus olub. 2006-cı ildən sonra Vurğun Əyyub kabinetdən məhrum olan kimi partiyadan uzaqlaşdı. O illərdən sonra Vurğun Əyyubun partiyada heç bir fəaliyyəti olmayıb. İndi qurultay ərəfəsində o, yenidən peyda olub".

❑ **E.SEYİDAĞA**

# AYB üzvündən Lerikin icra başçısına 17 milyonluq ittiham

## Coşqun Lerikli: "Zuvand kəndi ərazisinə asfalt yol çəkilməsi adı ilə 17 milyon pulu mənimsəyiblər"

**"Prezidentin "Hər bir məmur xalqın xidmətçisi olmalıdır" deməsi onun məmurlara konkret tapşırığıdır. Çox təəssüf ki, təsadüfən vəzifə sahibi olanlar da var" - bu sözləri redaksiyamıza yolladığı məktubda Azərbaycan Yazıçılar Birliyinin üzvü Coşqun Lerikli yazır.**




Məktub müəllifi ucqar dağ rayonu, uzun ömürlülər diyarı kimi tanınan Lerikin problemlərinin çözülməmiş qalmasına diqqət çəkir: "Bu gün Lerik özünün "inkişaf dövrünü" yaşayır. Məmurlar vəzifədən sui-istifadə edərək yaxın qohumlarını bacarığı oldu-olmadı vəzifəyə gətirirlər. Təbii ki, belə hallar ölkə prezidentinin nəzarətindən qaçmır. Onlar layiq olduqları cəzanı alırlar. Belə cəzaya layiq olanlardan bu gün özünün dağıdıcı əməlləri ilə tanınan Lerik İcra Hakimiyyətinin başçısı Rövşən Bağırov, onun birinci müavini Cəlil Baxşıyev, "İnşaat" MMC-nin sədri Cavanşir Bağırov və onların havadarı, Milli Məclisin Lerik rayon üzrə deputatı İqbal Məmmədovdur. Cavanşir Bağırov Rövşən Bağırovun, Cəlil Baxışov isə İqbal Bağırovun yaxınlarıdır.

Adları çəkilən məmurlar biri-birinə arxa olub, təbii ki, üzdə qanuna dönüb belə baxmırlar. "İnşaat" MMC-nin sədri Cavanşir Bağırovun "fəaliyyətsizliyindən" istifadə edib, külli miqdarda dövlət pulunu mənimsəyiblər. Rayonun Zuvand kəndi ərazisinə asfalt yol çəkilməsi adı ilə 17 milyon pulu mənimsəyiblər".

**AYB üzvü yazır ki, Milli Məclisdə, aidiyyəti təşkilatlarda Lerik sakinlərinin problemini həll etməyə borclu olduğu halda, İqbal Məmmədov dövlətin camaata, onların sosial probleminə ayırdığı pulun mənimsənilməsində birbaşa yüksək "peşəkarlıq" göstərir:** "Belə adamların yerlərdə olan "sadiqləri" düşünmədən verilən tapşırıqları icra edir. Yerli camaatın dediyinə görə, Baxşıyevlər "sadiqlər" arasında xüsusi fərqlənirlər, insafla deyək gərək, İqbal Məmmədov da Baxşıyevlərə "qayğısını" əsirgəmir. Cəlil Baxşıyev Lerik Rayon İcra Hakimiyyətinin birinci müavini, Təhmasib Baxşıyev isə Cəlilabad Qaz İstismar İdarəsinin rəisidir. Yerli camaat ümumiyyətlə Baxşıyevlərin rayonda yaşamasının əleyhinədir. Rayon icra hakimiyyəti başçısının birinci müavini Cəlal Baxşıyev müəyyən qohum-əqrəbalarının xahişi ilə hələ ki rayonda yaşayır. Baxşıyev Təhmasib Cəlilabad Rayon Qaz İstismar İdarəsinin rəisi, bir qardaşları Biləsuvar rayonunda diş həkimi, Mərdan Baxşıyev isə Bakı şəhərində yaşayır".

❑ **E.HÜSEYNOV**

***P.S.** Yazıda adı hallanan hər bir kəsi dinləməyə, mövqeyini dərc etməyə hazırıq.*

# Pasternak, mən və bir də... payız...



**Hüseynbala SƏLİMOV**

**Canlı şəkildə Andrey Saxarovu cəmi bir dəfə görmüşdüm. 1987-ci ilin sonu idi. Akademik Yakov Zeldoviç vəfat etmişdi. Biz tələbələr akademiyanın həyətində toplaşmışdıq, cənazə akademiyanın zalında idi. Birdən pıçıltı ilə "Saxarov! Saxarov!"- dedilər. Mən də çevrilib deyilən tərəfə baxdım və ilk dəfə olaraq canlı Saxarovu gördüm...**

Sonradan, Qarabağ münaqişəsinin gərgin vaxtında o, Bakıya da gəlmişdi və açığı, özü haqqında bir o qədər də yaxşı təəssürat saxlamamışdı...

Daha bir dəfə isə onunla ABŞ-da "rastlaşdım". Vaşinqtonun küçələrində gəzişirdik. Birdən başımı qaldırıb tabloya baxdım. Tabloda "Saxarov küçəsi" yazılmışdı...

Bunları niyə xatırlayıram? İndi Saxarov mükafatları çoxdur. Və çox əlamətdardır ki, onları almağa azərbaycanlı siyasi məhbuslar da təqdim edilib.

Hətta bir mükafat - Norveçin təsis etdiyi Saxarov Azadlıq mükafatı bizim bütün siyasi məhbuslara verilib...

Onların 98 nəfər olduğu bildirilir. Bəlkə də daha çoxdur. Amma hüquq müdafiəçiləri 98 nəfərin üstündə dayanıblar.

Ən maraqlısı odur ki, Azərbaycan rəsmiləri hələ də siyasi məhbus meyarlarının müəyyən edilmədiyini və bu xüsusda yalnız Avropa Şurası öz meyarlarını müəyyən edəndən sonra danışa biləcəklərini deyirlər...

Amma yada salmaq istərdik ki, bu meyarlar hələ bir neçə il bundan əvvəl - hələ Heydər Əliyevin hakimiyyətdə olduğu vaxtlarda müəyyən edilmişdi. O vaxt səhv etmirəmsə, Avropa Şurası beş meyar müəyyən etmişdi...

Həmin vaxt bu meyarlar əsasında onlarla adam həbsdən azad olundu. İndi hakimiyyət deyir ki, biz Avropa İnsan Haqları Məhkəməsinin yurisdiksiyasını tanımışıq, narazı olanlar ora müraciət etsinlər...

Amma dərd ondadır ki, Avropa Məhkəməsi qərar qəbul edəndə min cür üsullarla ona əməl etməməyə, şikayətçi məhbusu azadlığa buraxmamağa cəhd edirlər...

Bu dəfə necə olacaq? Əminik ki, indiki siyasi məhbuslar da azadlığa çıxacaq.

Ən azı ona görə ki, beynəlxalq demokratiya institutlarının pressinqi böyükdür.

Amma bir məsələ var. Mükafat almaq təbii ki, çox böyük hadisədir. Özü də elə mükafatlardan söhbət gedir ki, onları almaqdan hər bir ictimai fəal yalnız qürur duyardı. Fəqət, ürəklərdə bir boşluq var. Biz belə mükafatların daha çox Belarus, İran və bunlara bənzər dövlətlərin fəallarına verilməsinə adət etmişik.

Ona görə də özümüzü bir sualı verməkdən saxlaya bilmirik: əcəba, bir gör, bu ölkə hansı bir vəziyyətə gəlib çatıb?..

Amma fərq etmir. Ölkə necədirsə, ona da adekvat qəbul olunur. Ona görə də bu gün hasarın o biri tərəfində olan dostların əvəzinə biz də sevinir, qürur hiss edirik. Başqa necə ola bilər ki?..

Bu payız günlərində axşamlar elə hey Boris Pasternakın bir şeirini xatırlayıram. Kiçik bir şeirdir. Amma o qədər ifadəlidir ki! Bu şeir bizə o biri tərəfdə - hasarın o biri tərəfində olanları duymağa kömək edir...

Burada Əzim Əzimzadənin bir karikaturası da yada düşür. Deməli, iki çarşablı qadın böyük bir həbsxananın önündən keçirlər. Qadınlardan biri o birisinə deyir ki, nə olardı, adamın belə "okoşka"lı evi olaydı...

Həqiqətən də kədərli detaldır. Ən dəhşətlisi odur ki, bu prosesin sonu da görünmür. Hələ neçə ictimai fəalın yolu hasarın o biri tərəfinə - həbsxanaya və ya qürbətə düşəcək? Bəlkə də çox adam düşünür ki, qürbətə getmək böyük bir qurtuluşdur. Amma belə hesab etmirik. İnsanlar yad ölkələrə çox çətin alışırlar. Bunu onların öz dilindən eşitmişik. Həm də yaşdan da çox şey asılıdır. Elə bir yaş dövrü gəlir ki, ömrünün qalan hissəsini sən yalnız Vətəndə yaşaya bilərsən...

Bəlkə Saxarov da ölkəni tərk edərdi. Onu buraxmadılar. O da axıra qədər SSRİ-də yaşamalı oldu. İndi nəyin necə olmasının elə bir əhəmiyyəti yoxdur.

Əsas odur ki, SSRİ-də şərəfli bir ömür yaşanmışdı...

Demirik ki, 98 nəfərin hamısı ideal mübarizdir. Yox, bir məşhur mahnıda deyildiyi kimi, bu yolda sınanlar da olacaq...

Kimə də olsa, bizə bunu izah etməyə ehtiyac yoxdur. Çox görmüşük. Amma bunu da təbii qəbul etmişik- bu, çox ağır, məşəqqətli yoldur, hamı onu axıra qədər gedə bilmir...

Ona görə də bu yolun heç olmasa bir hissəsini gedənlərə də sayğımız var...

YENİ MÜSAVAT
N 248 (5957) 8 oktyabr 2014




# Hesablarımızın oğurlanmasının qarşısını necə ala bilərik?

## Elxan Elmanoğlu: "Nəhəng haker qruplaşmalarının hədəfi iri şirkətlər və tanınmış şəxslər olur"

**Bu yaxınlarda hakerlər tərəfindən Hollivud ulduzlarının çılpaq fotoları yayılıb. Fotoşəkilləri yayılan Hollivud ulduzlarının vəkilləri Google şirkətindən 100 milyon məbləğində təzminat tələb edir. Milli.az-ın Rusiya mətbuatına istinadən verdiyi məlumata görə, onlar iddia edirlər ki, internet şirkəti həmin məşhurların fotolarını vaxtında silə bilməyib. Bu səbəbdən də milyonlarla pul qazanıb.**

Qeyd edək ki, hakerlər aktrisa Cennifer Lourens, model Keyt Apton, müğənni Rihanna və digər məşhurların intim görüntülərini yaymışdı. Ümumiyyətlə, məşhurlarla yanaşı bir sıra informasiya saytları da tez-tez haker hücumuna məruz qalır.

Həmçinin mobil telefonlarımız da hakerlərin hücumuna məruz qala bilir. Artıq telefonlardan şəxsi informasiyanı oğurlaya bilən xüsusi proqramlar fəaliyyət göstərir. Applikasiyalar, zərərsiz görünən oyunların da arxasında məqsəd dura bilər. Əgər telefonunuzun batareyası tez qurtarırsa, o zaman narahat olmalısınız. Bu göstərir ki, sizin telefonunuzdan informasiya oğurlana bilər. Bundan başqa, aylıq hesabınızda qəribə nömrələr görsəniz, bu, telefonunuzda arzuedilməz softverin olduğundan xəbər verə bilər.

Maraqlıdır, bunun qarşısını necə almaq olar? Necə olur ki, bizim sosial şəbəkələrimizin parolları sındırılır?

**İT mütəxəssisi Elxan Elmanoğlu bu kimi halların insanların diqqətsizliyi ucbatından baş verdiyini dedi:** "İnsanların Google+ da şəkillərinin yayılması öz diqqətsizliklərindən qaynaqlanır. Məsələn, diqqət etsək görərik ki, whatsapp ilə yanaşı, whatsapp+ yaradılıb. Diqqətsizlik edib bu proqramı yükləmək telefonunuza rahat müdaxilə edilməsinə şərait yaratmaqdır. Bu, adətən profesional hakerlər tərəfindən atılan, ağıllı, aldadıcı addımlar və manevrlərdir. Hədəf isə əsasən iri şirkətlər, holdinqlər və ya proqramlar olur. Öncə onu qeyd edim ki, hadisələrin hazırkı gedişatı sadə vətəndaşları elə də böyük təhlükə ilə üz-üzə qoymur. Bu prosesi başlayan nəhəng haker qruplaşmalarının hədəfi iri şirkətlər və tanınmış şəxslər olur. Onlar bu addımı adətən qara PR üçün atırlar. Onlar ən məşhur şəxsləri seçir, məlumatları oğurlayır və yayırlar. Bu yaxınlarda Hollivud ulduzlarının iCloud hesabları oğurlandı və bir neçə məşhur şəxsin məlumatları oğurlanaraq, yayıldı. Burada hədəf İcloud və İOS əməliyyat sistemi idi. Hakerlər öz hədəflərinə çatmaq üçün bir neçə məşhur şəxsi seçdilər. Bundan başqa, yaxınlarda Ukrayna inqilabının başlanğıcını qoyan Udar Partiyasının sədri Vitali Kliçkonun həyat yoldaşı ilə olan şəkilləri oğurlanaraq yayıldı. Bu addım da Kliçko və Ukrayna inqilabına qarşı atılmış addım idi.

Mənə elə gəlir ki, hazırda bizim üçün belə təhlükə yoxdur. Qaldı ki, bizim bunlardan necə sığortalanacağımıza, bu proqram, aplication, əməliyyat sistemi, sosial şəbəkədən asılı olaraq dəyişir. Bizim, yəni proqramistlərin görəcəyi xırda tədbirlər iri hücumların qarşısını ala bilmir. Bu kimi iri hücumların qarşısı ancaq hədəf seçilmiş şirkətlər, əməliyyat sistemləri və sairə tərəfindən alına bilər. Məsələn, əgər iCloud hesabına hücumlar olursa, onun qarşısını almaq üçün Apple şirkəti tədbirlər görməlidir. Apple müəyyən etməlidir ki, hücumlar hansı boşluqlardan istifadə olunaraq həyata keçirilib. Bu boşluqlar Apple şirkəti tərəfindən bağlanmalı və istifadəçilərinin tam güvənliliyini təmin etməlidir. Eyni zamanda gmail, facebook hesabımızda da bizim görəcəyimiz tədbirlər, hakerler üçün ciddi əhəmiyyət kəsb etmir. Əgər hücum edən həvəskar haker olarsa, məsləhət vermək olar ki, hesabınızı nömrənizlə əlaqələndirin. Belə edəcəyiniz təqdirdə hesabınıza hər daxil olmaq istəyəndə telefon nömrənizə kod gələcək. Yalnız o kodu daxil etdikdən sonra hesabınıza daxil olmaq mümkün olacaq. Bu daha güvənlidir. Həmçinin bu, facebook və gmail hesabınıza da aiddir. Yəni bu hesablarınızı da nömrənizlə əlaqələndirin. Əgər söhbət iCloud hesablarınızdan gedirsə, iCloud hesabı gmaillə əlaqəli olur. Buna görə də gmail hesabınızda bütün təhlükəsizlik tədbirlərini görmək lazımdır. Mümkündürsə, iCloud hesabınızda da geri qaytarılası fayl saxlamayın və silin".

❑ **Günel MANAFLI**

## Bayramın dəhşətli qəza statistikası: 8 ölü

**Qurban bayramı günlərində baş verən yol qəzalarının statistikası açıqlanıb.**

Baş Dövlət Yol Polisi İdarəsindən APA-ya verilən məlumata görə, oktyabrın 4-dən 7-dək olan müddətdə respublikanın avtomobil yollarında 46 yol-nəqliyyat hadisəsi baş verib. Nəticədə 8 nəfər ölüb, 55 nəfər isə müxtəlif xəsarətlər alıb.

## Ana məhkum oğluna "Nokia" çizburger" ötürmək istədi

**Naxçıvan sakini Səadət İsmayılova Ədliyyə Nazirliyinin Penitensiar Xidmətin 11 saylı cəzaçəkmə müəssisəsində cəza çəkən oğlu Əli Ərrəhman oğlu İsmayılova telefon ötürmək istəyib.**

Penitensiar Xidmətdən daxil olan məlumatda qeyd olunur ki, xidmət əməkdaşları axtarış-baxış tədbirləri nəticəsində Cinayət Məcəlləsinin 371-2.1 və 67.1 maddələrinə əsasən azadlıqdan məhrum edilmiş məhkum Ə.İsmayılovun yanına qısamüddətli görüşə gələn anası, Naxçıvan şəhəri, N.Naxçıvani küçəsi, döngə 4, ev 3 ünvanında yaşayan vətəndaş S.İsmayılovanın görüş otağında üzərinə və gətirdiyi sovqata baxış keçiriblər. Sovqatda olan holland pendirinin içərisində xüsusi üsulla gizlədilmiş 3 ədəd "Nokia" markalı mobil telefon aparatı aşkar edilərək götürülüb.

**Fakt üzrə araşdırma aparılır.**

❑ **E.MƏMMƏDƏLİYEV**


# Kişilər!!!

Xəstəliklərdən əzab çəkən adamlar üçün! Diqqət!
**İsrail təbabəti** tətbiq edilir! **Axırıncı şans!!!**
Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməsə və** Siz aşağıda **göstərilən xəstəliklərdən** həmişəlik qurtarmaq istəyirsinizsə, onda **yaxşı insanlara,** keyfiyyətli, qısa müddətdə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

---

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi (*enurez*)**
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Qadınlarda uşaqlıq boruların keçməməzliyi**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi** və **sızanaqlar**
* **Gərginlik, yuxusuzluq, yaddaşın azalması**

---

Həkim qəbulu və həkimə zəng etmək saat 11.00-dan sonra
**Tel: (012) 437-88-05; (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com "doktor Vaiz Səmədov".**



# Babasil xəstəliyinin ən müasir metodla MÜALİCƏSİ

*Almaniyanın məşhur "Karl Etorts" firmasının aparatı ilə Moskva şəhəri proktologiya ETM-də xüsusi hazırlıq keçmiş həkim tərəfindən qansız, ağrısız, yataq rejimi gıozləmədən - lateks həlqə qoyulması.*

**SƏLİMOV FƏRMAN**
Tel: (055) 776-70-34



# Beynəlxalq Təhsil Mərkəzi

***Biz sizi Ukraynanın, Belorusun, Rusiyanın və Gürcüstanın dövlət universitetlərində bakalavr və magistr dərəcələri üzrə əyani, qiyabi və ikinci ali təhsil almağa dəvət edirik.***

< *Kiyev Dövlət Texniki Universiteti*
< *Kompüter mühəndisliyi. Hüquq. İqtisadiyyat.*
< *Kremençuk Dövlət Universiteti*
< *Psixologiya. Jurnalistika. Hüquq. Filologiya*
< *Kiyev Dövlət Dəniz Akademiyası*
< *Gəmi sürmə. Dəniz və çay nəqliyyatı. Hüquq*
< *Tbilisi Dövlət Tibb Universiteti*
< *Müalicə işi. Stomatologiya. Əczaçılıq. Pediatria*
< *Minsk Dövlət Universiteti*
< *Beynəlxalq Münasibətlər. İqtisadiyyat. Jurnalistika*
< *Qrodno Dövlət Universiteti*
< *Hüquq. İqtisadiyyat. Pedoqoqika. Tərcüməçilik*
< *Volqoqrad Dövlət Aqrar Universiteti.*
< *Aqronom. Yerölçmə və Kadastr. Elektrik təchizatı.*

**Bizim bu ölkələrin yuxarıda adları sadalanan və bu siyahıda adları olmayan bir çox digər dövlət universitetləri ilə əməkdaşlıq və təmsilçilik haqqında rəsmi müqavilələrimiz var. Diqqət! Bəzi ixtisaslar üzrə pulsuz təhsil almaq şansınız var!**

**Ünvan: Bakı ş. Məmmədzadə k. 13A «Nərimanov» m-su**
**Tel: (050) 3319999; (077)3319999; (055)2522525; (012)4379980**










YENİ MÜSAVAT
N 248 (5957) 8 oktyabr 2014

**Son günlər Heydər Əliyev adına Hava Limanında ilginc "təhlükəsizlik" tədbirləri görülür. Bakıya gələn hər kəs bir neçə mərhələli yoxlama prosesindən keçirilir. Gömrükçülər yerli-xarici turist arasında fərq qoymadan ölkəyə girən hər kəsi təpədən-dırnağa, kəmərlərinin, ayaqqabılarının içinə qədər yoxlayır.**



# Bakı aeroportunda yoxlama biabırçılığı

Təyyarədən düşən, evinə gedən sərnişin üçün bu cür həssas yoxlama məntiqli görünmür. Sərnişinin təyyarəyə minmədən öncə bütün yoxlama prosedurlarından keçdiyini nəzərə alanda ikiqat-üçqat, təkrar yoxlamanın hansı səbəbdən yarandığı sual doğurur.

**Sözügedən mövzu ilə bağlı müşahidələrini "Yeni Müsavat" qəzetinin baş redaktoru Rauf Arifoğlu da sosial şəbəkədəki statusunda belə paylaşıb:** "Gömrükçülərimiz ovçu kimi marığa yatıblar... Başqa harada var, təyyarədən düşənləri *(əşyalarını və həm də özlərini)* yoxlayıb şəhərə buraxmaq? Bəzilərini iki dəfə aparatdan keçirib, sonra da əl detektoru ilə diqqətlə yoxlayırlar. Bakı da təyyarədir?"

**R.Arifoğlunun bu irad-statusuna sosial şəbəkədə münasibət bildirənlərdən biri də Azərbaycan Kültür Dərnəyi rəhbərlərindən biri olan İsa Yaşar Tezel olub. İ.Y.Tezel bu hadisə ilə bağlı öz başına gələnləri belə yazıb:** ""Azərbaycanın 1000 mahnısı" adlı kitab vardı əl çamadanımda. Polis soruşdu ki, sizdə kitab var. Dedim, hə. Dedi ki, görməliyəm. Çamadanı açıb göstərdim. Çoxbilmişlər kimi kitabı incələdi. Nə axtarırdı, bir mənə verə bilmədim. Sonra dedi ki, çamadanda daha nəsə var. "Bəli, bir şərab qədəhi hədiyyə veriblər" dedim. Onu da görməliyik dedilər. Açıb göstərdim. Dedilər ki, bu, əntiq əşyadı? Dedim, yox, etiketi də üstündədir, mağazadan alınıb *(Novella xanım hədiyyə etmişdi)*. Çox çətinliklə razı saldım. Bax belə. Deyirlər ki, Bakıdan alış-veriş etməyin. Xərcləmək üçün gətirdiyiniz pulları yenidən geri qaytarın. Və özümə söz verdim. Qismət olsa, Bakıya yenidən gəlsəm, burdan bir çöp də almayacağam. Heyf, çox heyf".



**Ədalət Əliyev:** "Belə ifrat yoxlamalar sərnişinlərin Azərbaycana uçmaqdan imtinası ilə nəticələnə bilər"



**İsa Yaşar Tezel:** "Bakıya yenidən gəlsəm, burdan bir çöp də almayacağam"

**AZAL-ın keçmiş prezidenti Ədalət Əliyev isə "Yeni Müsavat"a açıqlamasında dedi ki, təhlükəsizlik nöqteyi-nəzərdən yoxlamalar qaçılmazdır. Onun sözlərinə görə, İraqda, Türkiyənin cənub hissəsində olan hadisələr, onun Azərbaycanla bağlılığı kimi detallar təhlükəsizliyi gücləndirməyi vacib edir:** "Həmin yoxlamaları bu cür əsaslandırmaq olar. Amma bunlar etik nöqteyi-nəzərdən mədəni davranışla aparılmalıdır. Təkrar-təkrar yoxlamalar olmamalıdır. Bu prosedur elə peşəkar adamlar tərəfindən aparılmalıdır ki, problem çıxmasın. Bu, siyasi cəhətdən mənfi vəziyyət yaradır".

**Müsahibimiz iqtisadi baxımdan bu yoxlamaların açılışını da izah etdi. Dedi ki, iqtisadi nöqteyi-nəzərdən ölkəyə gətirilən malların nomenklaturası, qiyməti ciddi araşdırma predmeti sayılır:** "İnsan ölkədən 5 min dollarla çıxır, amma 50 min dollarlıq hədiyyə ilə gəlir. O zaman da suallar çıxır ortaya: niyə ödəməmisən o rüsumları? Bu hədiyyə sənə nəyə, hansı işinə görə verilib? Bunlar açıqlanmalıdır. Bu, ölkənin siyasi-iqtisadi təhlükəsizliyinə xələl gətirir. Çünki insanı belə şeylərlə şirnikləndirib, Azərbaycan dövlətinin əleyhinə yönəldirlər".

**AZAL-ın keçmiş prezidenti hesab edir ki, bütün bu suallara, narahatçılığa baxmayaraq təhlükəsizlik hamının birbaşa yoxlanması şəklində yox, seçim əsasında olmalıdır:** "Kimdən şübhələnirlər? Gömrük, polis orqanları, MTN elə effektiv işləməlidir ki, ancaq şübhəli bildikləri adamı yoxlamalıdırlar. Heç bir istisna qoymadan yoxlama aparmaq doğru deyil".

**Müsahibimiz xatırlatdı ki, sərhəd keçid məntəqəsində yaşıl koridor anlayışı var. Əşyalarında şübhəli heç nə olmadığından əmin olan şəxslər həmin koridor vasitəsilə keçirlər:** "Qırmızı koridordan keçənlər isə əşyalarının yoxlamadan keçirilməsinə razı olurlar. Bundan başqa, hava limanında avadanlıqlar var. O avadanlıq hər bir təhlükəli əşyanı ortaya çıxarır, onu monitorda göstərir. Bununla da üzə çıxarır ki, sərnişinin çantasında qorxulu bir şey var, ya yox. Hamının yoxlanması ciddi narazılıq yarada bilər və yaradır da".

**Ə.Əliyev əlavə elədi ki, hazırda texnikanın imkanları caniləri, qanunu pozan şəxsləri dərhal müəyyənləşdirməyə, insanın göz rəngindən tutmuş bəbəyinə qədər onun cinayətkar olub-olmadığını üzə çıxarmağa imkan verir:** "Amma bu cür ifrat yoxlamaların sistemləşməsi sərnişinlərin Azərbaycana uçmaqdan imtinası ilə nəticələnə bilər".

❑ **Sevinc TELMANQIZI**

# Daha bir nəfər Ziya Məmmədovun "qoçularının" qurbanı olub

**Bu yaxınlarda daha bir vətəndaş Nəqliyyat Nazirliyi "qoçuları"nın qurbanı olub.**



Mahmudov Xanların etatist.com-a ünvanladığı şikayət məktubunda bildirilir ki, ötən ayın 13-də NN-in işçiləri onun avtomobilindən 295 AZN pul, avtomobilin və özünün sənədlərini götürərək "yoxa çıxıblar".

X.Mahmudov qeyd edib ki, hadisə Qala qəsəbəsində olub: Nəqliyyat Nazirliyinin işçiləri seria nömrəsi 340 olan "Daewoo Nexia" avtomobili ilə məni saxladı. Heç bir sənəd istəmədən 60 manat pul tələb etdilər. Təbii ki, mən o pulu durduq yerdə vermək istəmədim. Bundan sonra biri avtomobilin çölündən əl-qolumu tutdu, o biri isə maşının içinə girib 295 manat pulumu, maşının açarını, sonra isə köynəyimin cibini cıraraq şəxsiyyət vəsiqəmi və maşının sənədlərini götürdü. Axırda çöldən əl-qolumu tutan şəxs yumruqla avtomobilin güzgüsünü sındırdı və hər ikisi öz avtomobillərinə oturub qaçdılar.

Hadisədən dərhal sonra Xəzər Rayon Polis İdarəsinin 1-ci bölməsinə şikayət ərizəsi yazdım. Onlar isə Xəzər Rayon Prokurorluğuna yönləndirdilər. Oktyabr ayının 3-də Nəqliyyat Nazirliyinin Binəqədi rayonunda yerləşən ekspedisiya şöbəsinin müdiri Emin müəllimin yanında oldum. O, kimliyimin və avtomobilimin texniki pasportunun onda olduğunu desə də, pulumun və avtomobilimin açarının onlarda olmasını dandı. Hazırda işə Xəzər Rayon Prokurorluğu baxır..."

# Paytaxt restoranlarında "kişi qadağası"

**Bir neçə müddət öncə paytaxtın məşhur "Oazis" restoranında baş verən kütləvi davadan sonra bəzi iaşə obyektlərində qadağaların tətbiqinə başlanılıb.**



Azvision.az-ın əldə etdiyi məlumata görə, xoşagəlməz olayların təkrarlanmaması üçün Bakının tanınmış restoranlarında kişilərin şou-proqramlara qrup halında qatılmasına icazə verilmir. Restoranlar şou-proqramlara yalnız ailəvi və cütlüklərin gəlməsinə razılıq verir.

Məşhur "Ay işığı" restoranında qadağaya belə aydınlıq gətirilib: "Bizdə ancaq ailəvi şənliklərin keçirilməsinə, kollektiv mərasimlərə icazə verilir. Artıq bir neçə vaxtdır biz bu prinsiplə işləyirik. Cütlüklər də bizim qonağımız ola bilərlər. Lakin müdriyyət tərəfindən kişilərin qrup şəklində hər hansı mərasim keçirməsinə icazə verilmir".

Bu qadağanın kişilərin spirtli içkilər qəbul edərək qonşu masalarda əyləşən qonaqlara, xüsusən də qarşı cinsin nümayəndələrinə söz atması, xoşagəlməz davranışlara yol verməsi ilə bağlı olduğu qeyd edilir.

Bundan əlavə, istirahət mərkəzlərində müştərilər arasında dava və s. bu kimi xoşagəlməz olayların qarşısını almaq üçün mühafizə xidməti gücləndirilib.

# Yas mərasimləri ilə bağlı daha bir yenilik

**Son zamanlar yas mərasimlərində açılan ehsan süfrələrindəki israfçılığın qarşısının alınması üçün görülən tədbirlər cəmiyyət tərəfindən müsbət qarşılanıb.**



Bu istiqamətdə aparılan işlərdən biri də dəfn üçün məzarların hazırlanmasına lazım olan məbləğin məlumat lövhəsinə yazılaraq qəbiristanlıqların giriş hissəsində qoyulmasıdır.

Kəpəz TV xəbər verir ki, cədvəldə dəfn yerinin hazırlanması zamanı lazım olan tikinti materiallarının sayı və miqdarı ilə yanaşı xidməthaqqının məbləği də göstərilib. Bu da, öz növbəsində, süni qiymət artımı problemlərini aradan qaldırır.

Qeyd edək ki, dəfn yerinin hazırlanması üçün tələb olunan məbləğ Nazirlər Kabineti tərəfindən müəyyən edilərək təsdiq edilir. (milli.az)

# Yol polisindən "yağış və yeni iş günü xəbərdarlığı"

**Bu gün Azərbaycanda rəsmi iş günlərinin başlaması ilə əlaqədar yol polisi sürücülərə xəbərdarlıq edib. Bakı Şəhər Dövlət Yol Polisi İdarəsinin (BŞDYPİ) İctimaiyyətlə əlaqələr bölməsinin rəisi, polis polkovnik-leytenantı Vaqif Əsədovun ANS PRESS-ə verdiyi məlumata görə, sürücülər bacardıqları qədər səbrli olmalıdırlar.**



"Lazımsız yerlərdə siqnallardan istifadə etmək olmaz. Sürət həddini keçmək böyük faciəyə gətirib çıxara bilər. Yollarda lazımsız yerə ötmə əməliyyatları keçirməsinlər. Xüsusən yağışlı havada diqqətli olsunlar. Yolda hərəkət edərkən suyu, palçığı piyadaların üstünə sıçratmasınlar. Əyləcdən qəfil istifadə etməsinlər" deyə, Vaqif Əsədov bildirib.

Yol polisi zabiti onu da əlavə edib ki, məktəblərin başlaması ilə əlaqədar yaradılan süni tıxacın da qarşısını almaq sürücülərin əlindədir: "Çalışıb təhsil müəssisələrinin qarşısında avtomobil saxlamaq olmaz. Məktəb qarşısında 5 dəqiqə maşın saxlamaqla, sürücü böyük tıxaca səbəb ola bilər".

Vaqif Əsədov sürücülərə qış mövsümünün gəlişi ilə əlaqədar da xəbərdarlıq etməyi unutmayıb. Onun sözlərinə görə, sürücülər qışa hazır olmalıdırlar: "Avtomobillərin təkərləri yenilənməlidir. Avtomobildəki nasazlıqlar aradan qaldırılmalıdır. Maşınların şüşəsilənləri təmizlənməlidir".

YENİ MÜSAVAT

Son səhifə

N 248 (5957) 8 oktyabr 2014



## Ən bahalı hamburger 1.1 min funt dəyərindədir

Londonda yerləşən Honky Tonk restoranında dünyanın ən bahalı hamburgeri bişirilib. Bu hamburger qızıl yarpaq, xərçəng və qara kürü ilə bəzədilib. 1.1 min funt dəyərində olan hamburgerin tərkibinə 220 qram xüsusi mal əti, eləcə də dünyanın ən bahalı ədvaları və təamları əlavə edilib. Hamburgerin qida dəyəri 2.6 min kaloridir. Bu, yetişmiş insanlar üçün Ümumdünya Səhiyyə Təşkilatının tövsiyə etdiyi gündəlik kalori dozasından artıqdır. Yeni hamburgerin yaradıcısı bu təamı "Qlamburger" adlandırıb. Onun baha qiymətini doğrultmaq üçün restoran hamburgeri İsveç masasında təqdim edəcək.



## 100 yaşını uça-uça qeyd elədi

Böyük Britaniya sakini Nora Brier 100 illik yubileyini hava şarında 2 uçuş gerçəkləşdirməklə qeyd edib. Lenta.ru saytının xəbərinə görə, qarının ümumi uçuşunun məsafəsi 3.5 kilometr olub. Bu uçuş imkanını qadına qızları hədiyyə edib. Brier deyib ki, çoxdan ekstremal əyləncələrin pərəstişkarı olub. 95 və 80 yaşlarında da ilginc təcrübələr keçirib: "Mən özümü adrenalin narkomanı adlandırardım. Hər il ad günlərimi səbirsizliklə gözləyirəm. Çünki ancaq ad günlərimdə belə çılğınlıq edirəm".

Qadının qızları isə deyib ki, anaları 1982-ci ildə ikinci ərini itirəndən sonra qeyri-adi həyəcanlara meyl edib.

# Bu paltaryuyan susuz işləyir

**Argentinalı iki tələbə susuz işləyən paltaryuyan maşın icad ediblər. Bu, əslində Kordova Milli Universitetinin tələbələri Nikolas Arayya və Nikolas Vuksanovikin diplom işidir. Onlar su əvəzinə karbon dioksidindən və ya karbon qazından istifadə etmək təklifini irəli sürüblər.**

Arayya və Vuksanovik bu ideyanı müasir dünyanın şirin su çatışmazlığı və ekoloji problemlərinin həllinə özünəməxsus töhfə hesab edirlər. Az da olsa, su işlədən quru təmizləmə qurğularından fərqli olaraq, "Nimbus"adlı paltaryuyan maşın tam susuz rejimdə işləyir. Bundan başqa, o, adi paltaryuyan maşından xeyli az elektrik enerjisi sərf edir. Belə təmizləmədən sonra paltarı nə qurutmağa, nə də ütüləməyə ehtiyac qalır.



Gənc mütəxəssislər istehsal dizaynı sahəsində yüksək qiymət alıb və artıq öz ixtiralarını patentləşdiriblər.

# Ağacın başında özünə ev tikdi

Türkiyənin Rizə şəhərindəki Çamlıtepe kəndində yaşayan Yusuf Yüce adlı şəxs mənzərə və günəşdən daha çox faydalanmaq üçün yerdən 20 metr hündürlükdə olan şam ağacının üstündə özünə ev tikib. Kənddə atasından qalan kirəmitli evi restavrasiya etmək istəyən Yusuf Yüce, inşaat ustası Muhammet Dilmaç ilə anlaşaraq işləməyə başlayıb. 9 kvadrat metr sahəsi olan ev iki həftəyə tamamlanıb. Usta inşaat boyunca şam ağacına dırmaşa bilmək üçün 12 metr hündürlüyündə pilləkəndən istifadə edib, qalan 8 metri isə budaqlardan tutaraq çıxıb. Ev küləkdə zərər görməsin deyə dəri tellərlə ağaca bağlanıb. Dilmaç yerli mediaya müsahibəsində deyib ki, inşaata başladıqları zaman heç də ağacın üzərində ev tikmək fikirləri olmayıb: "35 ildir inşaat işləri ilə məşğulam. Amma ilk dəfədir belə şeylə qarşılaşıram. Açığı, belə bir iş gördüyüm üçün də özümlə qürur duyuram. Ağacın budağında gördüyümüz işi aşağı enib görəndən sonra çox daha razı qaldıq".





## Tənha adamları qucaqlayan kreslo

Unicare firması Tokioda keçirilən Beynəlxalq Ev Əşyaları və Komfort sərgisində ilginc kreslo təqdim edib. Özəl olaraq yaşlı və tənha insanlar üçün nəzərdə tutulmuş kreslonun dizaynı olduqca ilgincdir. Belə ki, oturacaq hissə gülən və uzun qolları ilə adamı qucaqlayan adam formasındadır. Dizaynerlər hesab edir ki, kreslo yaşlı adamlara kiminsə tərəfindən qucaqlandıqlarını hiss etdirəcək və bu, onlara yalnızlıqlarını unutduracaq. "New-York Daily News"un xəbərinə görə, kreslonun ümumi məbləği 420 dollardır. Unicare təmsilçiləri deyir ki, kreslo eyni zamanda əlillər üçün də ideal vasitədir. Sərgidə eyni zamanda sahibinə dərman qəbulunun və ayaqyoluna getmənin vaxtını xatırladan kukla da nümayiş etdirilib. Həmin kukla eyni zamanda yaşlı adamlara xoş gələn keçmiş yapon mahnılarını da ifa edə bilir.




**QOÇ** - Bu vaxta qədər baş verən cəhdlərinizin boşa çıxması, uğursuz sövdələşmələr, səhhətlə bağlı narahatçılıq və s. kimi mənfi fəsadlar elə səhər saatlarından aradan qalxmağa başlayacaq.

**BUĞA** - Göy qübbəsi yuxusuzluğunuzdan, həmçinin iştahasızlığınızdan şikayətlənir. Bunun qarşısını almaq üçün bütün qüvvənizi səfərbər etməlisiniz. Bu gün əlinizə düşən pulları boş məsrəflərə xərcləməyin.

**ƏKİZLƏR** - Saat 14-16 aralığını nəzərə almasaq, bu gün tam mənasıyla ürəyinizcə olacaq. Amma gərək "bir əldə iki qarpız" tutmayasınız. Çalışmalısınız ki, reallığa uyğun hərəkət edəsiniz. Sürprizləriniz də çox olacaq.

**XƏRÇƏNG** - Gün ərzində boş dayanmağınıza lüzum yoxdur. Çünki sizin kimi romantik şəxslərə bu gün heç bir zərər dəyməyəcək, üstəlik, aktivləşdiyiniz indiki dövrdə şanslarınız da artacaq.

**ŞİR** - Bu gün bürcünüz üçün ciddi seçim ərəfəsi olacaq. Yolayrıcında qalmağınız yetər. Gələcəyinizi, taleyinizi düşünürsünüzsə, konkret addımlar atın. İnsanlarla umu-küsüləri bir kənara qoyun.

**QIZ** - Ulduzlar məsləhət görür ki, pul problemlərini qabartmayasınız. Çünki istəsəniz də, istəməsəniz də, bu təqvimi kasıbçılıqla başa vuracaqsınız. Bu səbəbdən əsas diqqətinizi münasibətlərə yönəldin.

**TƏRƏZİ** - Ötən günlərlə müqayisədə bu günün sizə əhəmiyyəti böyük olacaq. Belə ruh yüksəkliyinin yaranması bürcünüzün aktivləşməsi ilə əlaqədardır. Çoxsaylı işgüzar görüşlər, perspektivli əlaqələr mümkündür.

**ƏQRƏB** - İxtiyarınızda kifayət qədər təzadlı bir tarix durur. Proseslərin inkişafı gah müsbət, gah da mənfi istiqamətə səmt ala bilər. Bu səbəbdən də yaxşı bələd olmadığınız şəxslərlə işbirliyi yaratmaqdan imtina edin.

**OXATAN** - Bütün vacib planlarınızı saat 15-ə qədər həyata keçirməyə çalışın. Çünki günün yalnız bu hissəsi ümumi işlərinizdə aktivlik mərhələsi olacaq. Daşınmaz əmlak alış-verişindən uzaq olun.

**OĞLAQ** - Ulduzların düzümü saat 13-ə qədər ümumi işlərinizdə passivliyin hökm sürəcəyindən xəbər verir. Həmin müddətdə riskli işlərdən uzaq olmalı, yeni müqavilə və təkliflərdən boyun qaçırmalısınız.

**SUTÖKƏN** - Xırda mübahisələri nəzərə almasaq, bu gün sizin üçün normal keçəcək. Ədalətsiz insanları görəndə, haqsızlığın şahidi olanda üsyankarlıq göstərməyin. Öz ideyalarınızı beyinlərə təmkinlə yeridin.

**BALIQLAR** - Saat 12-yə qədər mübahisə və konfliktlərdən, eləcə də yeni işlərə başlamaqdan vaz keçməlisiniz. Sonrakı müddətdə isə qarşınıza qoyduğunuz ideyaların reallaşmasında heç bir çətinlik çəkməyəcəksiniz.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Arvadını doğrayıb qazanda bişirdi



Avstraliyanın Brisbane şəhərində dəhşətli bir qətl üzə çıxıb. 28 yaşlı Markus Peter Volke adlı bir kişi indoneziyalı həyat yoldaşını doğrayaraq qazanda bişirib. Qonşular evdən gələn kəskin qoxunu hiss edərək, polisə xəbər verəndən sonra qorxunc cinayət üzə çıxıb. Polis qadının ətlərini ayrı-ayrı qazanın içində aşkarlayıb. Hadisədən sonra qaçan qatil ər də boğazı kəsilmiş halda tapılıb. Qatilin intihar etdiyi ehtimal olunur. Araşdırmalara görə, əri tərəfindən öldürülən şəxs də transseksual olub.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

Lisenziya N: B 114
SAYI: 5.600

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.